RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 22 (10042) 5 fevral 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyevin dünyaya örnək sülh nümunəsi



## Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olunub

Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin himni səsləndirildi.

"Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı videoçarx nümayiş etdirildi.

Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam çıxış etdi.

Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Livan Respublikasının Prezidenti Cosef Aunun, Türkiyənin birinci xanımı Əminə Ərdoğanın və İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətləri nümayiş olundu.

2-3

## İlham Əliyevin sülh siyasətinə verilən qlobal qiymət

### Ali sülh mükafatı əsl sahibinə təqdim edildi

Şeyx Zayedin adını daşıyan bu mükafatın Prezident İlham Əliyevə təqdim edilməsi Azərbaycanın sülhpərvər siyasətinin, insan qardaşlığı ideallarının bütün dünya üçün bir mayaka çevrildiyinin bariz sübutudur. Dövlət başçısının bu mükafatı alması həm də bir həqiqəti yenidən bəyan etdi. Əsl liderlik yalnız döyüş meydanında zəfər çalmaq deyil, həm də o zəfəri əbədi və bəşəri bir sülhə çevirmək bacarığıdır.



Mükafat böyük liderimizin diplomatik məharətinin və sülhə nail olmaq üçün göstərdiyi qətiyyətin dünya miqyasında tanınması və yüksək dəyərləndirilməsidir. Prezident İlham Əliyevin adı qlobal sülh memarları ilə bir sırada çəkilir. O, təkcə öz xalqının maraqlarını qoruyan rəhbər deyil, həm də qlobal problemlərin həllində təşəbbüskar olan, sivilizasiyalararası dialoqa misilsiz töhfələr verən bir strateqdir.

4

## Azərbaycan-BƏƏ strateji tərəfdaşlığı dinamik inkişaf edir

Sülhün yaranması üçün uğurlu və etibarlı platforma rolunu oynayan Əbu-Dabi görüşü tarixi Vaşinqton Sammiti üçün münbit zəmin yaratdı. Ötən il Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Sülh Sazişinin paraflanması bölgəyə de-fakto sülh gətirdi.



Bu mənada Prezident İlham Əliyevin BƏƏ-nin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsadüfi olmadı. Sözügedən mükafat Azərbaycan liderinə Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Ötən ilin sentyabrında Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyanamə"nin, müxtəlif sahələri əhatə edən 12 memorandumun və bir müqavilənin imzalanması ölkələrimiz arasındakı münasibətlərin çoxtərəfli və yüksək səviyyəsini bir daha nümayiş etdirdi.

5

## Azərbaycanla İsrail arasında əməkdaşlıq genişlənir





Memorandum iki ölkə arasındakı strateji tərəfdaşlığın artıq ənənəvi sektorlardan yüksək texnologiyalar və rəqəmsal transformasiya müstəvisinə keçdiyini rəsmiləşdirir. İsrailin bu sahədəki qlobal liderliyi ilə Azərbaycanın regional rəqəmsal haba çevrilmək hədəflərinin kəsişməsi hər iki tərəf üçün ciddi iqtisadi və texnoloji dividendlər vəd edir. İsrailin Baş naziri Benyamin Netanyahunun iştirakı ilə baş tutan bu mərasimdə sənədin həm hərbi, həm də mülki rəhbərlər tərəfindən imzalanması süni intellektin həm milli təhlükəsizlik, həm də mülki inkişaf üçün daşıdığı ikili əhəmiyyəti bir daha təsdiqləyir.

6

## Böyük qayıdışın demoqrafiyası

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzaladı. Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri hələ bundan da xeyli əvvəl, 44 günlük Vətən müharibəsindəki Qələbədən dərhal sonra başlanmışdı. Həmin vaxtdan işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində işlər davam edir.

8

## Cinayətkarlar layiqli cəzalarını alacaqlar

Müxtəlif qanlı əməllərdə ittiham olunan erməni separatçılarının məhkəmə prosesində verdikləri ifadələr, gətirdikləri faktlar Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərdə Ermənistan dövlətinin, hakimiyyətinin əli olduğu təsdiqini tapdı. Ermənistan dövləti bu məsuliyyətdən qaça bilməz, çünki danılmaz faktlar göz qarşısındadır. Bundan başqa, Azərbaycan ərazilərini işğalda saxladığı illər ərzində burada törədilmiş cinayətlər, soyqırımı, urbisid və ekosidə görə də Ermənistan dövləti və onun işğalçı silahlı qüvvələri məsuliyyət daşıyır.





6

# İlham Əliyevin dünyaya örnək sülh nümunəsi

## Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olunub

Əvvəli 1-ci səh.



**Prezident Rəcəb Tayyib ƏRDOĞAN:**

- Hörmətli qonaqlar!

Müxtəlif ölkələrdən tədbirdə iştirak edən hörmətli dostlarım.

Sizləri ən səmimi duyğularımla, hörmətlə və sevgi ilə salamlayıram.

2026-cı il Zayed İnsan Qardaşlığı mükafatlarının başda mükafatların sahibləri olmaqla hamımız üçün xeyirli olmasını diləyirəm.

Türkiyədəki 86 milyon qardaşınızın salamlarını sizə çatdırmaqdan böyük məmnunluq duyuram.

2019-cu ildən bəri təqdim edilən mükafatların bilavasitə yaşadığımız günlərdə bütün dünyada sülhə və sabitliyə töhfə verməsini diləyirəm.

Builki mükafatlara layiq görülən Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın Baş naziri cənab Nikol Paşinyanı ürəkdən təbrik edirəm. Davamlı sülhün bərqərar olması yolunda həm İlham Əliyev qardaşımın atdığı cəsur addımları, həm də cənab Paşinyanın ortaya qoyduğu qətiyyətli iradəni son dərəcə əhəmiyyətli hesab etdiyimi xüsusilə vurğulamaq istəyirəm.

Məqsədi, əhatə dairəsi, məzmunu və ruhu üzərində iki tərəfin də razılıq əldə etdiyi razılaşmanın qüvvəyə minməsi ilə Qafqazın gələcəyində yeni bir səhifənin açılacağına inanıram.

Türkiyə olaraq bölgəmizdə və dünyada əmin-amanlıq, sülh, rifah və sabitliyə yönələn bütün təşəbbüsləri səmimiyyətlə dəstəkləyirik. Qafqazda davamlı sülhün bərqərar olması üçün üzərimizə nə düşürsə etməyə, ədalətə əsaslanan dostluq körpülərinin qurulmasında fəal şəkildə çalışmağa, inşallah, davam edəcəyik.

Bu düşüncələrlə həm Azərbaycan Prezidenti cənab Əliyevi, həm də Ermənistanın Baş naziri cənab Paşinyanı bir daha təbrik edirəm.

2026-cı il Zayed İnsan Qardaşlığı mükafatlarının bütün insanlıq üçün xeyirli olmasını diləyir, hamınızı sevgi və ehtiramla salamlayıram.

Sağ olun, var olun, salamat qalın!

❖ ❖ ❖

**Prezident Kasım-Jomart TOKAYEV:**

- Əlahəzrətlər, zati-aliləri, hörmətli qonaqlar!

Mən Prezident İlham Əliyevi və Baş nazir Nikol Paşinyanı "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunmaları münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu mükafat qarşıdurma məntiqi əvəzinə sülhün, kin əvəzinə məsuliyyətin, keçmiş əvəzinə gələcəyin seçilməsi baxımından müdrik rəhbərliyi qeyd edir.

Dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda belə siyasətin müstəsna mənəvi və siyasi əhəmiyyəti var. Sülh sazişi istiqamətində Azərbaycanın və Ermənistanın əldə etdiyi irəliləyiş tarixi əhəmiyyətə malik dönüş nöqtəsidir. Bu, hətta uzunmüddətli münaqişələrin dialoq, məsuliyyət və təmkinlik vasitəsilə həll oluna biləcəyini nümayiş etdirir.

Qarşıdurma və ciddi parçalanma xətləri ilə səciyyələndirilən bir dövrdə bu təcrübə göstərir ki, barışıq zəiflik deyil, güc deməkdir. Qazaxıstan üçün Azərbaycan və Ermənistan yaxın, qardaş ölkələrdir. Biz ölkəmizə göstərilmiş etimadı, o cümlədən sülh danışıqlarının mühüm mərhələsinin Almatıda keçirilməsini yüksək qiymətləndiririk. Bu, irəli getməyin yeganə yolunun dialoq olduğu ilə bağlı birgə inamımızın təzahürüdür.

Qazaxıstan Avrasiyada və daha geniş coğrafiyada ardıcıl olaraq sülhü, etimadı və əməkdaşlığı gücləndirən təşəbbüsləri dəstəkləyir. Şeyx Zayed Mükafatı güclü mənəvi mesaj daşıyır. O, qardaşlığın təhlükəsizlik, inkişaf və insan ləyaqətinin təmin edilməsi üçün universal prinsip və praktiki təməl olduğunu bir daha təsdiqləyir. Bu mükafat Şeyx Zayed bin Sultan Al Nəhyanın dözümlülük, qarşılıqlı hörmət və dinc birgəyaşayışa əsaslanan davamlı irsini təcəssüm etdirir.

Bu mənada mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana bu dəyərləri yüksək tutduğuna görə dərin minnətdarlığımı ifadə etmək istərdim. Bu prinsiplər konkret siyasi nəticələrdə öz aydın əksini tapır. Azərbaycan ilə Ermənistan arasında sülh və əməkdaşlıq bu mirasa yeni məzmun qatır, onun regionun hüdudlarından çox uzaqda olan aktuallığını nümayiş etdirir. Bu, həmçinin beynəlxalq münasibətlərin səmərəli aləti kimi diplomatiyaya etimadı gücləndirib.

Hörmətli Prezident Əliyev, hörmətli Baş nazir Paşinyan. Sizin sülhə güclü sadiqliyiniz milyonlarla insana ümid verdi və mehriban qonşuluq əlaqələrinin, sabitliyin beynəlxalq münasibətlərin ən ali dəyərləri olması ilə bağlı dünya ictimaiyyətinə aydın siqnal göndərdi. Hər ikiniz böyük müdriklik və dərin baxış nümayiş etdirdiniz. Əminəm ki, balansa və məntiqi düşüncəyə əsaslanan diplomatiya vasitəsilə biz daha sabit və proqnozlaşdırıla bilən gələcək qura bilərik.

Təşəkkür edirəm.

❖ ❖ ❖

**Prezident Şavkat MİRZİYOYEV:**

- Birləşmiş Ərəb Əmirliklərinin möhtərəm Prezidenti Əlahəzrət Məhəmməd bin Zayed Al Nəhyan.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev.

Ermənistan Respublikasının Baş naziri zati-aliləri cənab Nikol Paşinyan.

Xanımlar və cənablar!

Bu gün dəyişkən dünyada məsuliyyətli liderlərə, sarsılmaz siyasi iradəyə və problemlərin dialoq vasitəsilə həllinə böyük ehtiyac duyulur. Hazırkı mürəkkəb beynəlxalq vəziyyətdə bu tərzdə qəbul edilən ibrətamiz qərarlar dövlətlər və xalqlar arasında sabitlik bünövrəsini və güclü etimad yarada bilər. Lakin sülh kimi qiyməti olmayan nemət öz-özünə yaranmır. Sülh cəsarəti, digərini dinləmək və ən çətin şəraitdə belə güzəştlər yolunu tapmaq, qəbul edilmiş qərarlar üzrə məsuliyyət daşımaq bacarığını tələb edir.

Tarix göstərir ki, uzunmüddətli və dayanıqlı artım yalnız güzəştlər, qarşılıqlı hörmət və ehtiram mühiti yolu ilə əldə oluna bilər. Şeyx Zayedin "İnsan Qardaşlığı Mükafatı"nın laureatlarını - Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevi və Ermənistan Respublikasının Baş naziri zati-aliləri Nikol Paşinyanı səmimiyyətlə təbrik etmək mənim üçün böyük şərəfdir. Uzun sürmüş münaqişəni rasional şəkildə həll etmək və sülhə nail olmaq naminə həmin siyasi liderlərin birgə səyləri, heç şübhəsiz, bu nüfuzlu mükafata layiqdir. Əldə olunmuş razılaşma problemin həllində məsuliyyətli yanaşmanın, bütöv regionumuzda sabitliyin təmin edilməsi istiqamətində atılmış tarixi addımın bariz nümunəsidir.

Bu mənada dövlət xadimlərinə belə yüksək mükafatın verilməsi, həmçinin dünyanın mühüm regionlarından birində yaranan dostluq, həmrəylik və yeni əməkdaşlıq ruhunun aydın əməli təsdiqidir. Biz istənilən mübahisənin, münaqişənin yalnız beynəlxalq hüquq və mehriban qonşuluq əsasında siyasi və diplomatik vasitələrlə həllinin tərəfdarıyıq. Bu gün biz xalqımızın ümumi əmin-amanlığı və rifahını yalnız birlik, qarşılıqlı dəstək və tərəfdaşlıq vasitəsilə təmin edə bilərik. Böyük Şeyx Zayedin adını daşıyan bu mükafatın layiqli namizədlərə verilməsi faktı həmin əbədi həqiqəti bir daha aydın şəkildə sübuta yetirir.

Fürsətdən istifadə edərək, Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə beynəlxalq arenada humanist təşəbbüslərin fəal şəkildə təşviqinə, dialoqun ardıcıl şəkildə gücləndirilməsinə, Əbu-Dabinin qlobal sülh mərkəzinə çevrilməsinə verdiyi olduqca dəyərli töhfəsinə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bu cür nəcib və mərhəmətli işlər beynəlxalq ictimaiyyətin sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş ümumi səylərinə yeni təkan verəcək. Sizə möhkəm cansağlığı, səadət və şərəfli fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

Diqqətiniz üçün minnətdaram.

❖ ❖ ❖

**Baş nazir Məhəmməd Şahbaz ŞƏRİF:**

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, xanımlar və cənablar!

Çox əziz qardaşım, zati-aliləri Azərbaycan Prezidenti İlham Əliyevə nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"nın verilməsi münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan olduqca məmnunam. Mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın əbədi irsinə, onun sülhə, dinc birgəyaşayış ilə bağlı daim qəlbdə yaşayan baxışlarına böyük hörmətin əlaməti olaraq, bu mükafat Birləşmiş Ərəb Əmirliklərinin uzaqgörən rəhbərliyinin səylərini əks etdirir, bu ölkənin qlobal səviyyədə aparıcı diplomatiya mərkəzi olduğunu göstərir.

Xanımlar və cənablar, parçalanma və münaqişələr məngənəsində olan dünyada Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri hər zaman görünüb, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında sülhə yolun açılmasında, əmin-amanlığın gücləndirilməsində özünü büruzə vermişdir. Həmin olduqca mühüm razılaşma təxminən dörd onillik sürən münaqişəyə son qoydu və beləliklə, Zayed Mükafatının dərindən təşviq etdiyi insan qardaşlığının, həmrəyliyin, mərhəmətin, ortaq insani dəyərlərin əsl nümunəsini təcəssüm etdirir.

Xanımlar və cənablar, Pakistan ilə Azərbaycanı dərin kökləri olan qardaşlıq, qətiyyətli qarşılıqlı dəstək telləri bağlayır, xalqlarımızı çalışdıqları qlobal sülh, rifah və dayanıqlı inkişaf dəyərləri birləşdirir. Biz Prezident İlham Əliyevin müdrik və düşünülmüş rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdən fəxr hissi duyuruq. O, Qafqazda və onun hüdudlarından kənarda sülh və sabitliyin qətiyyətli carçısı kimi tanınır. Pakistan həmin Sazişi nəinki Azərbaycan və Ermənistan, o cümlədən bütöv region üçün yeni əmin-amanlıq və dayanıqlı sülh dövrünün başlanğıcı kimi alqışladı.

Xanımlar və cənablar, mən əziz qardaşım, Prezident İlham Əliyevi bu nüfuzlu mükafatı alması münasibətilə bir daha təbrik edirəm. Ümidvaram və dua edirəm ki, uzaqgörən rəhbərinin səyləri ilə qardaş Azərbaycan xalqı uzunmüddətli sülhə, əmin-amanlığa və tərəqqiyə doğru addımlarını davam etdirsin.

Sağ olun.

❖ ❖ ❖

**Prezident Sadır JAPAROV:**

- Hörmətli İlham Heydər oğlu Əliyev!

Hörmətli Nikol Vovayeviç Paşinyan!

Sizə 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməyiniz münasibətilə səmimi təbriklərimi çatdırıram. Qırğız Respublikası 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində aranızda keçirilmiş görüşün nəticələrinə dair Birgə Bəyannamənin imzalanmasını xüsusi məmnuniyyət hissi ilə alqışladı. Bu, sadəcə, siyasi və diplomatik addım deyil, Cənubi Qafqazda davamlı sülhün, təhlükəsizliyin və qarşılıqlı etimadın gücləndirilməsinə xidmət edən həqiqətən də tarixi bir nailiyyətdir. Onu da xüsusi vurğulamaq istəyirəm ki, hörmətli İlham Heydər oğlu və hörmətli Nikol Vovayeviç görkəmli dövlət xadimliyinin, uzaqgörən liderliyin və siyasi məsuliyyətin ən yüksək səviyyəsini nümayiş etdirdilər. Qırğız Respublikası qəti şəkildə əmindir ki, ölkələriniz arasında münasibətlərin tam bərpası, ilk növbədə, hər iki xalqın mənafeyinə xidmət edir və davamlı sülhün güclü təməlini yaradır. Bu mənada biz Sülh Sazişinin ən qısa zamanda imzalanması istiqamətində Bakı və İrəvanın son vaxtlardakı səylərini tam dəstəkləyirik. Biz iki ölkə arasında qarşılıqlı etimadı gücləndirən və dayanıqlı sülh arxitekturasının yaradılmasına töhfə verən bu prosesin hərtərəfli dəstəklənməsinə hazırıq.

Qırğız Respublikası bu sahədə özünün tarixi təcrübəsinə xüsusi əhəmiyyət verir. Bu mənada onu da qeyd etmək istəyirəm ki, Qarabağda münaqişənin dayandırılması və insanların həyatının xilas edilməsi üçün 1994-cü ildə imzalanmış Bişkek Protokolu diplomatik praqmatizmin və məsuliyyətin vacib nümunəsi oldu.

Bildiyiniz kimi, Qırğız Respublikası qonşu dövlətlərlə sərhəd məsələlərini tədricən həll etdi. 2025-ci ildə Qırğızıstan, Tacikistan və Özbəkistan arasında olan sərhədin üç ölkəni birləşdirən hissəsinə dair razılaşma imzalandı. Uzun illər ərzində biz sərhəd məsələləri ilə bağlı çağırışları ardıcıl şəkildə həll etməyə çalışmışıq. Nəticədə bütün məsələlərin yalnız dostluq, mehriban qonşuluq, qarşılıqlı dəstək və qarşılıqlı etimad ruhunda həll edilməsi mümkün oldu. İnanıram ki, Azərbaycan və Ermənistan eyni şəkildə sülh münasibətlərinə nail olacaqlar və iki xalq arasında harmoniya, dostluq və firavanlıq naminə uzunmüddətli əməkdaşlığın möhkəm təməlini qoyacaqlar.

2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Münsiflər Komitəsinin hörmətli üzvləri, belə nəcib məqsəd naminə çalışaraq vacib missiyanın davamlı irəlilədilməsinə görə sizə dərin minnətdarlığımı bildirirəm. Sizin əhəmiyyətli fəaliyyətinizin sülhün gücləndirilməsi və qarşılıqlı anlaşmaya töhfə verməsi üçün davamlı olmasını diləyirəm. Arzu edirəm ki, fəaliyyətiniz dünya ictimaiyyətini həmrəylik, qarşılıqlı dəstək və insan ləyaqətinə hörmət kimi dəyərlər ətrafında səfərbər etsin.

❖ ❖ ❖

**Prezident Cosef AUN:**

- Hörmətli qonaqlar!

Həm öz adımdan, həm də Livan xalqı adından Fələstin Rifah Təşkilatını "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Məsuliyyətli inkişaf və humanitar fəaliyyət nümunəsi olan bu qurum fərqli proqramları vasitəsilə həm Fələstində, həm də Livandakı qaçqın düşərgələrində minlərlə fələstinlinin həyat şəraitinin yaxşılaşdırılmasına inkişaf və yardım sahələrində göstərdiyi böyük səylərlə misilsiz töhfələr vermişdir. Fələstin xalqının üzləşdiyi davamlı böhranlar və çətinliklər fonunda onların öz torpaqlarına və milli kimliklərinə bağlı qalmaq əzmini və mətanətini alqışlayıram. Bir daha vurğulayıram ki, Fələstin davasını dəstəkləyən və bu yolda böyük fədakarlıqlar edən Livan Yaxın Şərq probleminin 2002-ci il Beyrut Sammitində qəbul edilmiş "Ərəb Sülh Təşəbbüsü" çərçivəsində ədalətli, hərtərəfli və qalıcı həllindən başqa alternativ görmür.

Xanımlar və cənablar, eyni zamanda Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanı və Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevi Ermənistan və Azərbaycan arasındakı sülh təşəbbüsünün eyni mükafata layiq görülməsi münasibətilə təbrik etməkdən şərəf duyuram. Bu mükafat iki ölkə arasında uzun sürən münaqişəyə son qoyan və region xalqlarının daha təhlükəsiz gələcəyi üçün yeni sabitlik səhifəsi açan tarixi Sülh Sazişinin yüksək qiymətləndirilməsidir. Bu nailiyyət bir daha sübut edir ki, siyasi cəsarət səmimi iradə ilə birləşdikdə münaqişəni fürsətə, sülhü isə daimi seçimə çevirmək mümkündür.

Hörmətli qonaqlar, müqəddəs Papa XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi Əhməd Əl-Tayyibin xeyir-duaları ilə fəaliyyət göstərən müstəqil Zayed Beynəlxalq Mükafatının rəhbərliyi tərəfindən qaliblərin seçilməsi beynəlxalq səviyyədə yüksək etirafın göstəricisidir. Bu, sülhə və insan ləyaqətinə xidmət edən işlərin dərin bəşəri dəyərini təsdiqləyir.

Sonda bütün qalibləri bir daha təbrik edir, insan qardaşlığının dünyamızı daha ədalətli və dinc gələcəyə aparan bir körpü olaraq qalmasını arzulayıram.

❖ ❖ ❖

**Birinci xanım Əminə ƏRDOĞAN:**

- Bu məsuliyyəti cəsarətlə öz üzərinə götürənləri mükafatlandırmaqla, bəşəriyyətin vicdanının hələ də vahid olduğunu və firavan gələcəyin yalnız qardaşlıq ruhu ilə qurula biləcəyini bütün dünyaya elan edirik.

❖ ❖ ❖

**Kral II ABDULLAH:**

- Mənim dostlarım!

İcazə verin, bəşəriyyətimizin ümumi dəyərlərinin bərqərar olunmasına sadiqliyi təcəssüm etdirən 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatı kimi mühüm tədbirin təltif olunan hörmətli şəxslərinə və iştirakçılarına İordaniya xalqının səmimi salamlarını çatdırım.

Ermənistanla Azərbaycan arasında Sülh Sazişinin, həmçinin həmin razılaşmanı mümkün etmiş insanların və onların göstərdiyi çox böyük səylərin tanınması və qeyd edilməsində hamınıza qoşulmaqdan böyük şərəf hissi duyuram.

Zati-aliləri, əziz dostlarım, bu cür tarixi nailiyyət münasibətilə Sizi təbrik edirəm. Cəsarətli sülh seçimini etdiyinizə görə təbrik edirəm. Bu nailiyyət Sizin inanılmaz cəsarət və rəhbərlik keyfiyyətlərinizin nəticəsidir.

Uğurunuz onilliklər boyu davam etmiş münaqişəyə baxmayaraq, sülhün üstün tutulması mümkünlüyünün nümunəsidir.

O, bütün dünyadakı, xüsusən də bölgədəki insanlara ümid verir ki, onlar gələcəkdə sülh, təhlükəsizlik və sabitlik şəraitində yaşasınlar, övladlarını böyütsünlər, işləsinlər və inkişaf etsinlər.

Zati-aliləri, bilirəm ki, biz qarşılıqlı anlaşmanı təşviq etmək və uzunmüddətli sülhə nail olmaq üçün davamlı dialoqun vacibliyinə eyni şəkildə inanırıq. Biz hamımız insan qardaşlığının, yan-yana yaşamağın gücünə və bəşəriyyətin bir hissəsi kimi bütün millətlər, mədəniyyətlər və dinlərdən olan xalqlara hörmətlə yanaşmanın qüdrətinə qəti şəkildə inanırıq.

Həmin prinsipləri fəaliyyətdə nümayiş etdirdiyinizə görə Sizə minnətdaram. Sülhün həyatımız boyu hamı üçün əlçatan olması ümidini dünyaya verdiyinizə görə Sizə təşəkkür edirəm. Sağ olun.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

Ardı 3-cü səh.

# İlham Əliyevin dünyaya örnək sülh nümunəsi

## Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olunub

*Əvvəli 2-ci səh.*






### Prezident İlham Əliyevin çıxışı

- Biz əvvəlcə kimin çıxış edəcəyi barədə razılığa gəlməliyik.

Əlahəzrət, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, münsiflər heyətinin üzvləri, xanımlar və cənablar.

İlk növbədə, bu mükafata görə, münsiflər heyətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayedin adını daşıyan bu mükafata layiq görülmək mənim üçün böyük şərəfdir. O, elə bir böyük lider idi ki, onun uzaqgörənliyi və fəaliyyəti BƏƏ-ni dünyanın ən firavan və ən uğurlu ölkələrindən birinə çevirmişdir.

Əziz qardaşım Şeyx Məhəmməd atasının inkişaf, tərəqqi və davamlı müasirləşmə siyasətini davam etdirir. Bu gün Birləşmiş Ərəb Əmirlikləri tarixi köklərinə möhkəm bağlı qalmaqla yanaşı, gələcəyə də inamla baxan, sülh və ahəngdar şəraitdə yaşayan bir cəmiyyətin necə qurulması baxımından həqiqətən də bir çox ölkələr üçün nümunədir.

Dinlərarası dialoqun inkişafına verdikləri töhfəyə, həmçinin sivilizasiyaların bir-birinə daha da yaxınlaşması istiqamətində göstərdikləri səylərə görə, Əl-Əzhərin böyük imamı, doktor Əhməd Əl-Tayyibə və Roma Papası, zati-müqəddəsləri Leoya dərin minnətdarlığımı bildirmək istəyirəm. Mərasimə ünvanladıqları xoş müraciətlərində bir daha Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayan bütün həmkarlarıma da minnətdarlığımı bildirirəm. Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq.

Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda evsahibliyi etdiyi tarixi Zirvə görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur.

Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa da minnətdarlığımı bildirmək istəyirəm. O, 2025-ci il avqustun 8-də üçtərəfli Zirvə görüşünə evsahibliyi etmişdir. Həmin Zirvə görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında Sülh Sazişi paraflanmış, həmçinin Birgə Bəyannamə imzalanmışdır. Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur.

Qeyd etdiyim kimi, bu altı ay münasibətlərimizin inkişafı baxımından çox mühüm olmuşdur. Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yükdaşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik.

Bugünkü mükafatlandırma mərasimi və hörmətli münsiflər heyəti ilə bütün dostlarımız tərəfindən səylərimizin qiymətləndirilməsi olduqca ruhlandırıcıdır. Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür.

Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi ilə bağlı qeyd edəcəyim son məqam odur ki, bu mərasim rəmzi məna daşıyır. Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton Sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir.

Bugünkü simvolizm havada hiss olunur. Bizi bu nüfuzlu mükafata layiq görənlərə, həmçinin sülhün əldə olunmasında əməyi keçən bütün şəxslərə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

Çox sağ olun.

❖ ❖ ❖

Sonra çıxış edən Ermənistanın Baş naziri Nikol Paşinyan vaxtilə belə bir nüfuzlu mükafatın Azərbaycan və Ermənistan liderlərinə veriləcəyini təsəvvür belə etməyin mümkün olmadığını xüsusi vurğuladı. O qeyd etdi ki, bu mükafatın verilməsi Ermənistanla Azərbaycan arasında münaqişənin artıq geridə qaldığını bir daha təsdiqləyir.

Ermənistanın Baş naziri bu mükafatı ölkələrimizə beynəlxalq ictimaiyyətin dəstək aktı kimi qiymətləndirdiyini bildirdi. O, çox nüfuzlu şəxslərdən ibarət münsiflər heyətinin bu qərarının regionda sülhün güclənməsinə daha da təkan verəcəyini qeyd etdi. Həmçinin xalqlarımız arasında əmin-amanlığın təmin olunması və etimada əsaslanması üçün səylərin davam etdiriləcəyini vurğuladı.

Baş nazir Nikol Paşinyan bir daha ABŞ Prezidenti Donald Trampa Sülh Sazişinin əldə olunmasına töhfə verdiyinə və bu istiqamətdə səylərini əsirgəmədiyinə görə xüsusi təşəkkürünü bildirdi. O, həmçinin mükafata görə BƏƏ-nin Prezidentinə də xüsusi minnətdarlığını ifadə etdi və bu mühüm tədbirin iştirakçılarına təşəkkürünü çatdırdı.

❖ ❖ ❖

Daha sonra "Zayed İnsan Qardaşlığı Mükafatı"nın digər laureatları - əfqanıstanlı qadın hüquqları fəalı və tədqiqatçısı Zarqa Yaftalı və "Taavon" Fələstin təşkilatı adından Nabil Qaddumi çıxış etdilər.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Prezidenti İlham Əliyevə və digər laureatlara "Zayed İnsan Qardaşlığı Mükafatı"nı təqdim etdi.

Sonda birgə foto çəkdirildi.



❖ ❖ ❖

Qeyd edək ki, Roma Papası XIV Leo və Əl-Əzhər Şərifin böyük imamı, Müsəlman Ağsaqqalları Şurasının sədri, professor Əhməd Əl-Tayyib "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik məktubları ünvanlayıblar.

**Roma Papası XIV LEONun** məktubunda deyilir:

"Əziz qardaş və bacılar!

Böyük sevinclə və ümid dolu bir qəlblə Papa Fransisk və Böyük İmam Əhməd Əl-Tayyib tərəfindən İnsan Qardaşlığı haqqında Sənədin imzalanmasının 7-ci ildönümü və İnsan Qardaşlığı üzrə Dünya Günü münasibətilə Sizə ilk dəfə müraciət edirəm. Bu gün siz insanlığımız üçün ən dəyərli və ümumbəşəri olanı - qardaşlığımızı, Uca Tanrının surətində yaradılmış hər bir insanı birləşdirən o sarsılmaz bağı qeyd edirsiniz.

Bu gün qardaşlığa olan ehtiyac uzaq ideal deyil, təxirəsalınmaz bir zərurətdir. Biz hazırda saysız-hesabsız qardaş və bacılarımızın zorakılığın, müharibənin dəhşətlərindən əziyyət çəkdiyini görməzdən gələ bilmərik. Xatırlamalıyıq ki, "hər bir müharibənin ilk qurbanı insan ailəsinin qardaşlığa olan içdən gələn çağırışıdır" (Papa Fransisk, Fratelli Tutti ensiklik məktubu, 3 oktyabr 2020-ci il, §26). Birlikdə sülh qurmaq arzusu tez-tez "köhnəlmiş utopiya" kimi rədd edildiyi bir vaxtda (eyni mənbə, s.30) biz qətiyyətlə bəyan etməliyik ki, insan qardaşlığı bütün münaqişələrdən, fərqliliklərdən və gərginliklərdən güclü, yaşana bilən bir reallıqdır. Bu, hörmət, paylaşma və şəfqət prinsiplərinə sadiq qalaraq hər gün reallaşdırılması vacib olan potensialdır.

Bu mənada, mən Zayed Mükafatı Komitəsinin üzvlərinə ünvanladığım son müraciətimdə də vurğuladığım kimi, "sözlər kifayət deyil" (11 dekabr 2025). Ən dərin inanclarımız daimi olaraq real və əməli səylərlə inkişaf etdirilməlidir. Həqiqətən də "fikirlər və nəzəriyyələr səviyyəsində qalmaq, onları müntəzəm və praktik xeyriyyə fəaliyyətləri ilə ifadə etməyə nail olmamaq ən dəyərli ümidlərimiz və arzularımızın belə zəifləməsinə və solmasına səbəb olacaq" (Apostol Sərəncamı Dilexi Te, 4 oktyabr 2025, 119). Qardaş və bacılar kimi biz hamımız periferiyada qalmamalı, daha böyük mənəvi aidiyyət duyğusu ilə bir-birimizə yaxınlaşmalıyıq (müq. Fratelli Tutti, 95).

Biz bu gün "Zayed İnsan Qardaşlığı Mükafatı" vasitəsilə həmin dəyərləri "insan mehribanlığı və xeyriyyəçiliyin səmimi nümunələrinə" çevirənlərə ehtiramımızı izhar edirik ("Zayed İnsan Qardaşlığı Mükafatı" Komitəsinin üzvlərinə müraciət. 2026, 11 dekabr 2025). Bizim mükafatçılarımız - Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri zati-aliləri cənab Nikol Paşinyan və xanım Zarqa Yaftali çox vaxt körpülər inşa etmək əvəzinə, sədd çəkənlər dünyasında ümid saçanlardır. Onlar etinasızlığın asan yolunu deyil, həmrəyliyin çətin yolunu seçməklə hətta ən dərin köklü bölünmələrin belə konkret fəaliyyət nəticəsində aradan qaldırıla biləcəyini nümayiş etdirdilər. Onların fəaliyyəti sübut edir ki, qardaşlığın işığı qardaş qırğınının qaranlığı üzərində zəfər çala bilər.

Nəhayət, mən bu təşəbbüsə göstərdiyi davamlı dəstəyə görə, Birləşmiş Ərəb Əmirlikləri Prezidenti zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığımı bildirir, həmçinin Zayed Komitəsinə onun baxışı və əxlaqi mövqeyinə görə təşəkkür edirəm. Gəlin, birlikdə işləməyə davam edək ki, qardaşlıq sevgisinin dinamizmi hər kəs üçün vahid yol olsun və "digərləri" sayılanlar artıq yad və ya təhlükə kimi deyil, bir qardaş və ya bacı kimi qəbul edilsin.

Uca Tanrının xeyir-duası hər birinizin və bütün bəşəriyyətin üzərində olsun".

❖ ❖ ❖

**Əl-Əzhər Şərifin böyük imamı Əhməd Əl-TAYYİB** isə məktubunda yazır:

"Mərhəmətli və rəhmli Allahın adı ilə.

Həmd olsun Allaha. Rəbbimiz Allahın rəsulu Məhəmməd və onun ailəsinə, məsləkdaşlarına və onun bütün davamçılarına sülh və xeyir-dua olsun.

Əziz qardaşlar və bacılar!

Allahın salamı, rəhmi və bərəkəti üzərinizə olsun!

Dəyərlərin məsuliyyətə, ümidin isə reallığa qovuşduğu bu münasibətlə Beynəlxalq İnsan Qardaşlığı Gününün bu gün qeyd edilməsində Sizlərə qoşulmaqdan böyük sevinc hissi duyuram. Bu gün Birləşmiş Millətlər Təşkilatı tərəfindən insan qardaşlığının illik əsasla qeyd edilməsi günü kimi seçilib və 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarının təltifi üçün fürsətdir. Bu gün həmin mükafat rəmzi tanınma məfhumunun hüdudlarını aşaraq, mənəvi istinadgaha çevrilərək, bütün xəliqəyə xatırladır ki, bəşəriyyət nə qədər də təlatümlərlə ağırlaşsa və ya mürəkkəb anlar onun gözü qarşısında qalxsa belə, qəlblərin səmimi, məramların həqiqi, iradənin birləşdiyi təqdirdə özünün mənəvi imanı ilə rabitədə qalmağa qadirdir.

Yeddi il öncə bəşəriyyət Birləşmiş Ərəb Əmirliklərində həlledici və tarixi ana şahid oldu. O anlarda mən rəhmətlik qardaşım, zati-müqəddəsləri Papa Fransiskə bu zəmanədə dünyanın durumu ilə bağlı dərin narahatlığımı bildirərək, yeni nəsillər üçün daha yaxşı gələcək naminə səmimi ümidlərimi bölüşdüm. Elə bir an yaranmışdır ki, zəmanə sanki süst görünən halda, Katolik Kilsə Rəhbəri və Əl-Əzhərin böyük imamı Əbu-Dabidə "İnsan Qardaşlığı Sənədi"nin imzalanmasına şahidlik ediblər. Bu sənəd hər yerdə insan şüuruna bir çağırış və aydın ismarış idi ki, dinlər özünün həqiqi mahiyyətində heç zaman münaqişə və ya qan tökülmə səbəbi olmayıb. Əksinə, dinlər şəfqət cövhəri, qovuşma körpüsü, insan ləyaqətinin qoruyucusu olub və bundan sonra da olacaqdır.

İnsan qardaşlığı nə mərasim münasibətilə söylənilən şüar, nə də ki, məclisvari toplantılarda oxunan moizədir. Əksinə, o, mənəvi öhdəliyin əbədi mübarizidir, sivilizasiya qarşısında məsuliyyətdir. Şüurlu seçim məhz dağıntılar əvəzinə tikib-yaratmağın məntiqinə, cəhalət və yer üzündən silinmə əvəzinə həyat və yaşam mədəniyyətinə əsaslanır. Münaqişələrin artdığı, yaraların dərinləşdiyi, ədavət və təcrid etmək səslərinin daha da ucaldığı bir dünyada ləyaqətlə, ehtiramla və şərəflə sınaqlardan keçmək üçün insan qardaşlığı vücudi zərurətə, insan həyatının təməl şərtinə çevrilir.

Bu gün sülhə can atan bütün tərəflərlə bir yerdə mən bu mükafata layiq görülmüş Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında tarixi Sülh Sazişini yüksək dəyərləndirir, onu məmnunluqla qəbul edirəm. Bu münasibətlə mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevi və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanı təbrik edir, onlara deyirəm: Siz isbat etdiniz ki, insan dialoqu və səmimi məramlarla münaqişənin uzun səhifələrini bağlamaq, yanaşı yaşamaq üçün yeni üfüqləri açmaq, dünyanın bu cür nümunələrə böyük ehtiyacı olduğu zaman sülh quruculuğu üçün ilhamlandırıcı nümunə göstərmək mümkündür.

Mən, həmçinin qadınların səlahiyyətləndirilməsinin hər hansı qrupun tələbi deyil, cəmiyyətlərin inkişafı və gələcəyinin qorunması üçün həqiqi təməl sütun kimi öz qətiyyəti hesabına qadınların təhsili naminə Əfqanıstanda çalışmış hörmətli bacımız Zarqa Yaftalı təbriklərimi çatdırıram.

Eyni zamanda, mən Fələstində hər il bir milyondan artıq insanın həyatına yardım əlini uzadan "Taavon" Fələstin təşkilatına göstərdiyi məxsusi humanitar və inkişaf səylərinə görə, təbriklərimi, sonsuz hörmət və ehtiramımı izhar edirəm. Həmin təşkilat məsuliyyətli humanitar fəaliyyətdə özünü doğrultmuş nümunədir və elə bir qurumdur ki, nəinki ağrı-acıları dayandırmağa çalışır, o cümlədən ləyaqəti qoruyur, müqaviməti saxlayır, insanlara öz torpağında möhkəm dayanmasına imdad verir və nəhayət, onların yaşadığı ağır şəraitə, mürəkkəb çətinliklərə baxmayaraq, həyata və ümidə qəti şəkildə inamını qoruyub saxlayır. Bu münasibətlə xeyirxahlıq və dinclik sevdasını yaşayan hər kəsə çağırış edirəm ki, əliyalın Fələstin xalqına, xüsusən də, hələ də üzləşdikləri ağır şəraitdə olan Qəzza insanlarına dəstək verin.

Bu gün burada - Əbu-Dabinin Təsisçilər Memorialında eyni mərasim çərçivəsində həmin üç nümunənin bir araya gəlməsi bütün dünyaya mənalı ismarışdır: insan qardaşlığı nə coğrafi, nə də ki, tarixi hüdud tanıyır, dardüşüncəli hesablamalara sığmır və irqindən, dinindən, yaxud dərisinin rəngindən asılı olmayaraq, tək və vahid insan məxluquna köklənir.

Böyük insani mahiyyət daşıyan bu münasibətlə mən sülhün yalnız əxlaqi dəyərlərlə qorunub saxlanılmasını, onun yalnız müdriklik, dözümlülük və dinc yanaşı yaşamağa əsaslanmasını bir daha vurğulayaraq, insan qardaşlığı prinsiplərinə qəlbən inamı olan, səmimi himayəsi və qəti dəstəyi ilə seçilən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana dərin təşəkkürümü bildirməkdən məmnunam. Mən, həmçinin dünya xalqlarına ümid ismarışı gətirən, həmin ali insan dəyərlərini təcəssüm etdirən şəxsləri seçməkdə vaxtını və əməyini sərf etmiş "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinə səmimi minnətdarlığımı bildirirəm. Mən bu mükafatı insan şüuruna aid qlobal platformaya çevirmiş, səmimi səylərini göstərmiş və yorulmadan çalışmış, mükafat üzərində işləmiş heyəti və xüsusən də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı ayrıca qeyd etmək istəyirəm.

Yekunda bu gün verdiyimiz ismarış təntənəli mərasimdən yararlanmaq deyil, bütöv bəşəriyyətə səmimi çağırışdır: hamının aydın gördüyü dünyadakı durum haqqında yenidən düşünmək, insanların özünəməxsusluğunu qoruyaraq, bir araya gələrək, ümumi yolda insan qardaşlığı qurmaq, dünyada gələcəyi zorla deyil, anlaşma ilə yaratmaq, sabahı ədavətlə deyil, şəfqət və mərhəmətlə qarşılamaq, yanında olan insan məxluqunu mövcudluqda rəqib deyil, düzgünlük naminə ömür yoldaşı kimi görmək zəruridir.

Diqqətinizə görə təşəkkür edirəm, Allah-taaladan sizlərə sülh, mərhəmət və xeyir-dua diləyirəm".

# Sülhün və sabitliyin daha da möhkəmləndirilməsi naminə səylər davam etdiriləcək

## Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə Ermənistanın Baş naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşüb.**



AZƏRTAC xəbər verir ki, tərəflər ABŞ Prezidenti Donald Trampın evsahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar. Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini vurğulayıblar.

Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Onlar, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan TRIPP və digər bağlantı layihələrinin həyata keçirilməsini müzakirə ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.



## “Xüsusi icra məmurunun vahid geyim formasının və nişanının, habelə xüsusi icra məmurunun köməkçisinin nişanının təsvirləri”nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 35** — **Bakı şəhəri, 2 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xüsusi icra məmurunun vahid geyim formasının və nişanının, habelə xüsusi icra məmurunun köməkçisinin nişanının təsvirləri" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 668 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 36** — **Bakı şəhəri, 3 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 668 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 630 (Cild I) ilə təsdiq edilmiş "Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının Dövlət Kadastrının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bəndin birinci abzasında "müxtəlif koordinat sistemləri" sözləri "UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84 (beynəlxalq koordinat sistemi)" sözləri ilə əvəz edilsin;

1.2. 3.3-cü bəndin üçüncü abzası ləğv edilsin;

1.3. 3.6-cı bənddə "sahəvi və milli koordinat sistemlərində aparılmaqla, beynəlxalq koordinat sistemlərinə uyğunlaşdırılır" sözləri "UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-də (beynəlxalq koordinat sistemində) aparılır" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 7 dekabr tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 801 (Cild I) ilə təsdiq edilmiş "Geodeziya və kartoqrafiya materiallarından istifadəyə görə ödəmə dərəcələri"nin "İstehlakçının birdəfəlik sifarişi (tələbnaməsi) əsasında materialların seçilməsi, ayrılması ilə əlaqədar xidmətlər və işlər" bölməsinin 9-cu hissəsinin üçüncü abzasının sonunda nöqtəli vergül işarəsi qoyulsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

". obyektlərin UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-də (beynəlxalq koordinat sistemində) olan coğrafi və geodezik koordinatları".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 oktyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 639 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş "Geodeziya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 10.14-cü bənddə "istənilən koordinat sistemlərindəki" sözləri "UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-dəki (beynəlxalq koordinat sistemindəki)" sözləri ilə əvəz edilsin;

3.2. 10.15-ci bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 37** — **Bakı şəhəri, 3 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin "Şübhəli əməliyyatların monitorinqi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 436 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 921) adına, 1-ci və 3-cü hissələrinə "Maliyyə Monitorinqi Xidmətinin" sözlərindən sonra "Şübhəli əməliyyatların monitorinqi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# İlham Əliyevin sülh siyasətinə verilən qlobal qiymət

## Ali sülh mükafatı əsl sahibinə təqdim edildi

**Tarix böyük hadisələri yadda saxlamaqla yanaşı, bu hadisələrin arxasında dayanan qətiyyətli liderləri və onların sülh naminə atdıqları cəsarətli addımları da əbədiləşdirir. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi də mühüm tarixi anlardan biri idi. Həmin mərasimdə ali mükafat öz həqiqi və layiqli sahibinə - Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə təqdim olundu. Bu hadisə Azərbaycan Liderinin müasir dünya nizamında sülhün və humanizmin əsas təşəbbüskarı kimi tanınmasını bir daha təsdiqlədi.**

Birləşmiş Ərəb Əmirliklərinin banisi Şeyx Zayedin şərəfinə təsis edilmiş, Papa Fransisk və Əl-Əzhər Böyük İmamı tərəfindən dəstəklənən nüfuzlu qlobal sülh və insan qardaşlığı mükafatı dünyanın ən prestijli humanitar və sülh yönümlü təltiflərindən biri hesab olunur.

Bu mükafat, sadəcə, bir təltif deyil, illərdir davam edən ədalətsizliyə son qoyan, regionda yeni sülh arxitekturası quran və xalqlar arasında nifrət sədlərini sındıraraq humanizm körpüləri salan bir liderin strateji dühasına verilən qlobal qiymətdir. Şeyx Zayedin adını daşıyan bu mükafatın Prezident İlham Əliyevə təqdim edilməsi Azərbaycanın sülhpərvər siyasətinin, insan qardaşlığı ideallarının bütün dünya üçün bir mayaka çevrildiyinin bariz sübutudur. Dövlət başçısının bu mükafatı alması həm də bir həqiqəti yenidən bəyan etdi. Əsl liderlik yalnız döyüş meydanında zəfər çalmaq deyil, həm də o zəfəri əbədi və bəşəri bir sülhə çevirmək bacarığıdır.

Mükafat böyük liderimizin diplomatik məharətinin və sülhə nail olmaq üçün göstərdiyi qətiyyətin dünya miqyasında tanınması və yüksək dəyərləndirilməsidir. Prezident İlham Əliyevin adı qlobal sülh memarları ilə bir sırada çəkilir. O, təkcə öz xalqının maraqlarını qoruyan rəhbər deyil, həm də qlobal problemlərin həllində təşəbbüskar olan, sivilizasiyalararası dialoqa misilsiz töhfələr verən bir strateqdir.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev sülh və insan qardaşlığı mövzusunda mühüm mesajlar verib. Şeyx Zayedin adını daşıyan ali mükafata layiq görülməsini böyük şərəf adlandıran dövlətimizin başçısı bildirib ki, Əbu-Dabidəki bu mükafatlandırma mərasimi simvolikdir, çünki Ermənistan və Azərbaycan arasında danışıqların son mərhələsi ötən ilin iyul ayında Vaşinqtondakı tarixi sammitdən cəmi bir ay əvvəl burada baş tutmuşdu: "Burada, Əbu-Dabidə, qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olması üçün yekun razılığa gəldik və sonra onu Vaşinqtonda rəsmiləşdirdik. Bir daha bu hörmətli və nüfuzlu mükafatı bizə təqdim etmək qərarını verən hər kəsə və sülhə çatmağımıza kömək edən hər kəsə minnətdarlığımı bildirmək istərdim".

Prezident əlavə edib ki, bu nümunə hələ də müharibədə olanlar üçün öyrənilməli və yol xəritəsi kimi qəbul edilməlidir: "Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişələrə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür". Prezidentin çıxışında Əbu-Dabinin adını xüsusi vurğulaması təsadüfi deyil. Bu, Azərbaycanın xarici siyasətində çoxşaxəlilik və regional tərəfdaşlığa verilən önəmi göstərir. Eyni zamanda sülhün yalnız Qərb mərkəzli deyil, həm də dost və qardaş ölkələrin platformasında əldə oluna biləcəyini sübut edir. Dövlət başçısının sülh prosesini digər münaqişələr üçün "yol xəritəsi" adlandırması xüsusi diqqət çəkir. Prezident mesaj verir ki, 30 illik işğal, dağıntılar və etimadsızlığa baxmayaraq, siyasi iradə olduqda sülh mümkündür. Məhz emosiyalardan xilas olaraq gələcəyə baxmaq qabiliyyəti Azərbaycanın sülh diplomatiyasının əsasını təşkil edir. Hazırda dünyanın müxtəlif yerlərində davam edən qanlı müharibələr fonunda Azərbaycan-Ermənistan sülh prosesi uğurlu bir nümunə kimi təqdim olunur.

Vaşinqton Sammiti ilə Əbu-Dabi görüşlərinin bir-birini tamamlayan halqalar kimi təqdim edilməsi Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin göstəricisidir. Bu, sülhün əldə olunmasında həm regional güclərin, həm də qlobal mərkəzlərin rolunun tanınmasıdır, lakin vurğu həlledici razılığın məhz qardaş ölkədə əldə olunmasına qoyulur. Liderimiz beynəlxalq ictimaiyyətə göstərir ki, sülh, sadəcə, kağız üzərində imzalanan müqavilə deyil, həm də qarşılıqlı hörmət, düzgün seçilmiş vasitəçilik və gələcək nəsillər üçün qurulan insan qardaşlığı körpüsüdür.

Beynəlxalq arenada qazanılan bu uğurlar nə qədər əhəmiyyətli olsa da, Prezident İlham Əliyev üçün ən böyük və əvəzolunmaz mükafat Azərbaycan xalqının sonsuz inamı və sevgisidir. Xalqın nəzərində İlham Əliyev Azərbaycanı işğal boyunduruğundan qurtaran əsl xilaskar liderdir. 44 günlük Vətən müharibəsində xalqın 30 illik həsrətinə son qoyan Müzəffər Ali Baş Komandandır. Dövlətimizi müasir, qüdrətli və dünyada söz sahibi olan bir güc mərkəzinə çevirən böyük rəhbərdir. Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi ilə son illərdə işğaldan zəfərə, zəfərdən quruculuğa və qlobal sülh memarlığına qədər möcüzəvi yüksəlişə nail olub. "Zayed İnsan Qardaşlığı Mükafatı" bu yüksəlişin beynəlxalq möhürüdür.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Tarixi dostluq əlaqələrinə dayanan Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında münasibətlər hazırda dinamik inkişaf mərhələsini yaşayır. İki ölkə arasında strateji və hərtərəfli tərəfdaşlıq səviyyəsinə yüksələn bu əlaqələr siyasi dialoqun dərinləşməsində, iqtisadi və enerji sahələrində meqalayihələrin həyata keçirilməsində və bir çox digər sahədə birgə əməkdaşlıqların icrasında da özünü bariz şəkildə göstərir.**

**Bakı-Əbu-Dabi münasibətlərinin möhkəmlənməsində ölkə liderlərinin qarşılıqlı səfərləri vacib əhəmiyyət daşıyır. İndiyə qədər Prezident İlham Əliyevin BƏƏ-yə iki rəsmi və beş işgüzar səfəri olub. Eləcə də BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi və işgüzar səfərləri iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada dayandığını göstərir.**



## Azərbaycan-BƏƏ strateji tərəfdaşlığı dinamik inkişaf edir

### Əbu-Dabi görüşündən Vaşinqton zirvəsinə

Ötən il sentyabrın 16-da Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana, Qarabağa səfər etməsi həm də BƏƏ-nin ölkəmizin ədalətli mövqeyinə tam dəstəyinin ifadəsi idi. Həmin zaman Şuşada Prezident İlham Əliyevin BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü zamanı ölkəmizin rəhbərinin "Bugünkü səfəriniz xüsusi əhəmiyyət daşıyır. Çünki Siz Qarabağa, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz və bu, bizi, bütün Azərbaycan xalqını çox məmnun edir. Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub" sözləri də iki ölkə arasında qarşılıqlı etimada dayanan yüksək münasibətlərdən xəbər verirdi.

Burada vacib məqama diqqət çəkək. Keçən il iyulun 10-da Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi görüşü Bakının irəli sürdüyü sülh gündəliyinin həyata keçirilməsi istiqamətində dönüş nöqtəsi oldu. Həmin vaxt liderlər bir araya gələrək ikitərəfli danışıqlar apardılar. Heç bir vasitəçi olmadan keçirilən və sülh gündəliyinin irəlilədilməsi baxımından mühüm əhəmiyyət daşıyan görüş zamanı Ermənistan ilə Azərbaycan arasında sülh prosesi istiqamətində müzakirələr aparıldı, razılaşmalar əldə edildi. İkitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqləndi və bu əsasda nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırıldı. Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar verdilər. Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəldilər.

Sülhün yaranması üçün uğurlu və etibarlı platforma rolunu oynayan Əbu-Dabi görüşü tarixi Vaşinqton Sammiti üçün münbit zəmin yaratdı. Ötən il Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Sülh Sazişinin paraflanması bölgəyə de-fakto sülh gətirdi.

Bu mənada Prezident İlham Əliyevin BƏƏ-nin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsadüfi olmadı. Sözügedən mükafat Azərbaycan liderinə Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

### Perspektivli əlaqələr

Ötən ilin sentyabrında Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin, müxtəlif sahələri əhatə edən 12 memorandumun və bir müqavilənin imzalanması ölkələrimiz arasındakı münasibətlərin çoxtərəfli və yüksək səviyyəsini bir daha nümayiş etdirdi.

"Cənab Prezident, dost ölkənizlə ikitərəfli əlaqələrimizi gücləndirmək və genişləndirmək üçün xüsusi və böyük marağımız var, onu daha yüksək səviyyəyə qaldırmağı arzulayırıq. Biz hər iki tərəfə fayda gətirəcək və davamlı inkişafa töhfə verəcək yeni əməkdaşlıq fürsətlərinin daim axtarışındayıq" deyən BƏƏ lideri də həmin vaxt Şuşadan ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını bəyan etmişdi.

Cari il fevralın 2-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri həm səfər proqramının zənginliyi, həm də Bakı-Əbu-Dabi əlaqələrinin daha da dərinləşməsi ilə əlamətdar oldu.

Prezident İlham Əliyev və BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın görüşü zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu.

Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı.

Qeyd edək ki, Azərbaycan-BƏƏ əməkdaşlığında əsas yerlərdən birini enerji sektoru tutur. "Masdar", ADNOC və SOCAR arasında imzalanmış sazişlər bərpaolunan enerji, neft-qaz hasilatı və beynəlxalq enerji bazarlarında birgə fəaliyyət üçün mühüm imkanlar açır.

Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələsinin özü də ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrə müsbət töhfə kimi dəyərləndirilməlidir.

### Dayanıqlı sülhün təmin olunmasına töhfə

Dövlətimizin başçısının səfəri çərçivəsində Azərbaycan Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.

İki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin keçirilməsi isə Azərbaycan ilə BƏƏ arasında hərbi əməkdaşlığın yeni və daha dinamik mərhələyə keçidini göstərir.

Fevralın 3-də Azərbaycan və BƏƏ liderləri "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təlimini izləyiblər. Yaşayış məntəqəsi, dağlıq ərazi və dəniz mühitində keçirilən birgə təlimdə qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmi üzərində nəzarətin bərpası, terrorçu ünsürlərin zərərsizləşdirilməsi və girovların azad edilməsi, yaralıların təxliyəsi, yaşayış məntəqəsində ictimai təhlükəsizliyə təhdid yaradan iğtişaş və sabotaj xarakterli fəaliyyətlərin qarşısının alınması, eləcə də yanğınsöndürmə fəaliyyətləri üzrə tapşırıqlar yerinə yetirilib.

Təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır.

Qarşılıqlı etimada, ortaq maraqlara və gələcəyə hesablanmış strateji baxışa söykənən Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələri uğurla inkişaf edir. Siyasi dialoqun dərinləşməsi, iqtisadi, humanitar və hərbi əməkdaşlıq sahələrində qurulan tərəfdaşlıq da bunu nümayiş etdirir. İki ölkə arasında müdafiə və təhlükəsizlik sahəsində formalaşan əməkdaşlıq isə həm də regional sabitliyin möhkəmləndirilməsinə xidmət edir. Bütün bunlar Azərbaycan ilə BƏƏ arasında əməkdaşlığın gələcək illərdə daha da dərinləşməsindən və hər iki ölkənin milli maraqlarına mühüm töhfə verəcəyindən xəbər verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Dayanıqlı sülh modeli

**Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində böyük hərbi-siyasi zəfərlərinin ardınca yaratdığı reallıqlar fonunda beynəlxalq siyasətin aparıcı aktorlarından birinə çevrilməsi, BƏƏ-nin isə qlobal siyasətdə və dünya iqtisadiyyatında əsas mərkəzlərdən biri rolunu üstləməsi fonunda ölkələrimiz arasında münasibətlərin inkişafı yalnız iki dövlət arasında əlaqələr çərçivəsində şərh oluna bilməz. Bu, birmənalı şəkildə geosiyasi hadisədir. Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfərinə qlobal miqyasda xüsusi diqqətin ayrılması bu mənada çox təbiidir.**



Qlobal ziddiyyətlərin dərinləşdiyi, sülh və sabitliyə təhlükələrin artdığı bir dövrdə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri və keçirdiyi görüşlər ölkələrimiz arasında münasibətlərin tam yeni mərhələsi və geosiyasi təhdidlərə qarşı birgə fəaliyyət formatı hesab oluna bilər.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, işgüzar səfər olmasına baxmayaraq, Prezident İlham Əliyevin Əbu-Dabi hava limanında BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan tərəfindən şəxsən qarşılanması iki lider arasındakı şəxsi dostluq və yüksək etimadı simvolizə etməklə bərabər, Azərbaycanın BƏƏ-nin xarici siyasət prioritetlərindəki xüsusi yerini göstərir. Eyni zamanda sirr deyil ki, BƏƏ ilə münasibətlər Azərbaycanın Şərq siyasətində mühüm bir halqadır. Ölkələrimiz arasında əməkdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir və səfər çərçivəsində cənab İlham Əliyevin Prezident Məhəmməd bin Zayed Al Nəhyanla görüşündə də ifadə olunduğu kimi, siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə əməkdaşlıq tərəflərdə məmnunluq doğurur. "Paralel olaraq Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələri arasında keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin uğurla başa çatması, iki ölkənin Silahlı Qüvvələri arasında operativ hərbi uyğunluğun inkişafına töhfələrin davam etdirilməsi iradəsinin ifadə olunması, habelə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin BƏƏ-nin "XRG" şirkətinə satılması iki ölkə arasındakı münasibətlərin artıq strateji tərəfdaşlıqdan faktiki hərtərəfli strateji tərəfdaşlıq mərhələsinə keçdiyini nümayiş etdirir. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin böyük artım tempi də prosesin kifayət qədər uğurlu dinamikasından xəbər verir. Səbəb isə çox sadədir", - deyə Bəhruz Məhərrəmov əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan və BƏƏ münaqişələrin həllində dialoq modelini dəstəkləyirlər. Regionda investor kimi rolunu artırmaqda olan BƏƏ Azərbaycanla birgə Cənubi Qafqazda sülhün bərqərar olması və iqtisadi dəhlizlərin inkişafında ortaq maraqlara malikdir. Həmçinin hər iki ölkənin postneft dövrünə hazırlıq və yüksək texnologiyalara əsaslanan iqtisadi model qurmaq vizyonu tam üst-üstə düşür. Bakı və Əbu-Dabi arasında qurulan bu model həm enerji asılılığından uzaqlaşaraq texnologiya, investisiya və logistika üzərində qurulan yeni tipli strateji ittifaq, həm də mümkün təhlükəsizlik təhdidlərinə qarşı perspektivli tərəfdaşlıqdır. Qeyd olunanlar fonunda əminliklə demək mümkündür ki, bu, sadəcə, sıradan bir səfər, yaxud prezidentlər arasında növbəti bir görüş deyil, həm də ölkələrimiz arasında bütün sferaları əhatələyən müsbət dinamikanı qorumağa xidmət edən tarixi hadisədir.

B.Məhərrəmov deyib ki, Azərbaycan Prezidentinin BƏƏ-yə səfəri yalnız iki dövlət arasında münasibətlər çərçivəsində təhlil edilə bilməz və bu mənada Əbu-Dabidə Azərbaycan Prezidentinin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü və sülh prosesi çərçivəsində bu tip təmasların Əbu-Dabidə ilk dəfə baş tutması Azərbaycanla BƏƏ arasında münasibətlərin həm də uğurlu bir platforma formalaşdırdığı qənaətinə gəlməyə imkan verir: "Azərbaycanla Ermənistan arasında ötən il avqustun 8-də ABŞ-də Prezident Donald Trampın evsahibliyi və şahidliyi ilə baş tutan sülh sammiti və qəbul edilən qərarlar Bakı və İrəvan arasında sülh prosesinin yeni mərhələsi hesab olunur. Ötən 6 ay ərzində Azərbaycan və Ermənistan arasında müxtəlif səviyyədə təmaslar davam edib və Əbu-Dabidə Azərbaycan və Ermənistan rəhbərlərinin görüşündə də ifadə olunduğu kimi, Vaşinqton görüşündən sonra sülh prosesi təqdirəlayiq formada irəliləyib. Təbii ki, hazırkı mürəkkəb mərhələdə prosesin uğurunun əsas göstəricisi təmasların davamlılığı hesab olunmalıdır və bu mənada Əbu-Dabi görüşü Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanması niyyətinin göstəricisi sayılmalıdır. 2025-ci ilin avqustundan ötən dövr ərzində məhz Bakının aparıcı aktor qismində çıxış etdiyi sülh prosesi praktik mərhələyə qədəm qoyub. Əbu-Dabidə də bəyan edildiyi kimi, ikitərəfli ticarətin başlanması, Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsi, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsi məmnunluq doğurmaqdadır. Daha konkret desək, liderlərin görüşündə də ifadə olunduğu kimi, artıq hər iki cəmiyyət sülhün faydalarına real həyatda şahid olmaqdadır. Belə bir məqamda tərəflərin Əbu-Dabidə ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağa davam etmək barədə razılığa gəlməsi, əslində, hazırkı de-fakto sülh mərhələsinin de-yure sülhə addımlaması istiqamətində çox vacib element kimi çıxış edəcək".

Deputat vurğulayıb ki, Cənubi Qafqaz kimi maraqların toqquşduğu və tarixən iri güclərin imperialist niyyətlərinin hədəfləndiyi mürəkkəb coğrafiyada sülhə nail olmaq ümumbəşəri dəyərlərə xidmətdir və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin aliliyinə bundan daha yaxşı töhfə ola bilməz. Bu mənada Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması və regionda sabitliyin təmin edilməsi istiqamətindəki səylərinə görə nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na (Zayed Award for Human Fraternity) layiq görülməsi tam təbii və ədalətli qərardır. Roma Papası Fransisk və Əl-Əzhər Şərifin Böyük İmamı Əhməd Əl-Tayyib tərəfindən 2019-cu ildə imzalanmış "İnsan qardaşlığı" sənədi əsasında təsis edilən bu nüfuzlu mükafat Prezident İlham Əliyevə konkret olaraq Azərbaycan və Ermənistan arasında "Sülh və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in hazırlanması və bu istiqamətdə nümayiş etdirilən siyasi iradəyə görə verilib.

B.Məhərrəmov deyib ki, qaliblər müəyyən edilərkən münsiflər heyəti haqlı olaraq qeyd edib ki, Azərbaycanın təqdim etdiyi sülh modeli dünyadakı digər münaqişə bölgələri üçün də nümunə ola bilər: "Həqiqətən də, real situasiyanı təhlil etsək, maraqların toqquşduğu və tarixən münaqişə bölgəsi kimi adıçəkilən Cənubi Qafqazda təməlində müxtəlif imperialist maraqların dayandığı bir münaqişənin sona çatdırılması sadə hadisə deyil. Üstəlik, cənab İlham Əliyevin münaqişənin kökündə dayanan amillərin, o cümlədən separatizmin tam şəkildə aradan qaldırılmasına, habelə böyük zəfərlərimizlə yaratdığı hərbi-siyasi reallıqların bölgədə yeni münaqişəyə rəvac verə biləcəyi hər hansı situasiyanı preventiv qaydada aradan qaldıracaq status-kvoya nail olması müasir dövrdə ən dayanıqlı sülh modelini ortaya qoymuş olur. Aydındır ki, sülh sahəsində bəşəri fəaliyyətinə görə bu günə qədər çoxsaylı liderlər müxtəlif mükafatlarla təltif olunub. Demək olar ki, hər il "Nobel" sülh mükafatı müəyyən xidmətlərinə görə ayrı-ayrı şəxslərə təqdim olunur. Lakin dəyişməyən bir reallıq var ki, həmin şəxslər yalnız və yalnız sülh uğrunda səylərinə görə təltif olunur, real nəticələrə gəldikdə isə laureatların sülh təşəbbüslərinin qiymətləndirildiyi münaqişələrin özü faktiki olaraq həll olunmamış qalıb və bu gün də çoxsaylı nümunələr mövcuddur ki, həlli istiqamətində səylərinə görə "Nobel" mükafatı verilmiş çoxsaylı münaqişələr hazırda da davam etməkdədir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev faktiki olaraq tarixdə ilk dəfə 30 ildən artıq davam etmiş bir qanlı münaqişəyə tam şəkildə son qoyaraq, qarşıdurmanın yenidən alovlanması üçün şərait yarada biləcək mümkün situasiyanı da aradan qaldırıb. Bu da, əslində, cari təltifi yalnız nəzəri səylərin yox, həm də praktik nəticələr fonunda qiymətləndirmə aparıldığı unikal proseslərdən birinə çevirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Bakı sülh prosesinin dönməzliyini təmin edib

**Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sülh gündəliyinin təşviqi istiqamətindəki fəaliyyətini qətiyyətlə davam etdirir. Məhz Azərbaycan liderinin birbaşa təşəbbüsü ilə başladılan, regional və qlobal səviyyədə qəbul edilən sülh prosesi Cənubi Qafqazın diplomatik mənzərəsində yeni dönəmin başlanğıcını qoyur.**

Onilliklərlə davam edən münaqişə səhifəsini bağlayan Azərbaycan və Ermənistan təkcə siyasi bəyanatlarla deyil, konkret iqtisadi və humanitar layihələrlə regionun gələcək taleyini yenidən yazırlar. Fevralın 4-də Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyanla görüşü bu yolda atılan növbəti strateji addım kimi regionda geri dönməz sabitlik dövrünün başladığını bütün dünyaya nümayiş etdirdi. Liderlər sülh gündəliyini növbəti mərhələyə daşıyaraq, regionun gələcəyini iqtisadi tərəqqi və qarşılıqlı etimad üzərində inşa etmək yolunda öz mövqelərini bir daha ortaya qoydular.

Görüş zamanı tərəflər əldə olunan irəliləyişi alqışladılar və normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini vurğuladılar. İkitərəfli ticarətin başlamasından, üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların daşınmasından məmnun olduqlarını bildirdilər. Eyni zamanda vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayaraq etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəldilər. Tərəflər TRIPP və digər layihələrin həyata keçirilməsini də müzakirə etdilər.

Liderlərin budəfəki görüşü Vaşinqtonda təməli qoyulan böyük barışıq prosesinin real nəticələr verdiyini və bölgədə sabitliyin yeni, sarsılmaz reallığa çevrildiyini təsdiqləyir. Bu dialoq tərəflərin, sadəcə, sülhün şərtlərini müzakirə etmədiklərini, eyni zamanda sülhün gətirdiyi imkanları bölüşdüklərini göstərir. Yeni reallığın ən güclü sütununu iqtisadi inteqrasiya təşkil edir. Uzun illərdir regionun inkişafını ləngidən blokada artıq öz yerini ikitərəfli və çoxtərəfli əməkdaşlığa buraxıb. Azərbaycandan Ermənistana birbaşa neft məhsullarının ixracı ticarətin başlanması ilə paralel, həm də çox ciddi etimadın göstəricisidir. Bu addım Ermənistanın enerji bazarını şaxələndirməklə yanaşı, iki ölkə arasındakı iqtisadi bağları möhkəmləndirir. Eyni zamanda üçüncü ölkələrin, xüsusilə Mərkəzi Asiyanın strateji məhsullarının Azərbaycan ərazisindən keçərək Ermənistana çatdırılması "Şərq-Qərb" dəhlizinin effektivliyini artırır. Bu proses tərəflərin bir-birinin suverenliyinə və logistik imkanlarına olan hörmətinin praktiki təzahürüdür.

İlkin proqnozlara görə, sülh sazişinin imzalanmasından sonra tərəflər arasında 38 məhsul növü üzrə qarşılıqlı ticarət əlaqələrinin qurulması mümkündür. Bura enerji daşıyıcıları ilə yanaşı, qeyri-neft-qaz sektoru məhsulları da daxildir. İqtisadçıların qənaətincə, sülh sənədi imzalanacağı və ticari münasibətlər bərpa ediləcəyi təqdirdə Azərbaycan ilə Ermənistan arasında illik 300 milyon dollarlıq ticarət dövriyyəsi yarana bilər.

Liderlərin mütəmadi görüşləri sülh prosesini diplomatik hadisə səviyyəsindən çıxararaq, sistemli proqram halına gətirir. Siyasi iradənin ən yüksək səviyyədə nümayiş etdirilməsi dövlət aparatının müvafiq instansiyalarının fəaliyyətini də müəyyənləşdirir. Sərhədlərin delimitasiyası üzrə işçi qrupları, gömrük və vergi komissiyaları liderlərin cızdığı strateji xətt üzrə texniki məsələlərin icrasını sürətləndirirlər. Nəticədə əvvəlki dövrlərdə illərlə müzakirə olunan süni maneələr aradan qaldırılır.

TRIPP layihəsinin liderlər səviyyəsində müzakirəsi regionun gələcəyini qlobal müstəviyə daşıyır. Bu layihə təkcə avtomobil və dəmir yollarından ibarət deyil, həm də rəqəmsal bağlantılar, elektrik şəbəkələrinin sinxronlaşdırılması və ortaq sənaye coğrafiyasının yaradılmasını nəzərdə tutur. Beləliklə, Cənubi Qafqaz Avropa və Asiya arasında vahid, sabit və təhlükəsiz ticarət platformasına çevrilir. Bu, eyni zamanda xarici investorlar üçün regionun risk dərəcəsini kəskin şəkildə aşağı salan ən mühüm amildir.

Sülhün ən həssas və vacib tərəfi isə cəmiyyətlərin bu prosesə hazırlanmasıdır. Vətəndaş cəmiyyəti nümayəndələrinin, media təmsilçilərinin və ziyalıların görüşləri, qarşılıqlı səfərləri illərboyu davam etmiş düşmənçiliyi, psixoloji baryerləri tədricən aradan qaldırır. "Xalq diplomatiyası" adlanan bu proses sülhün, sadəcə, diplomatik masalarda yox, sadə vətəndaşların həyatında da hiss edilməsinə yardımçı olur. Praktika göstərir ki, sülhün gətirdiyi iqtisadi və sosial faydaların real həyatda təzahürü sülh prosesini daxili və xarici siyasi dalğalanmadan qoruyan ən güclü faktordur. Ələlxüsus kənar vasitəçilərin müdaxiləsi olmadan ikitərəfli formatda aparılan danışıqlar region ölkələrinin öz talelərini məhz özlərinin müəyyən etdiyini bütün dünyaya göstərir. Əbu-Dabi görüşü də təsdiqləyir ki, Azərbaycan liderinin sayəsində Bakı və İrəvan arasında sülh prosesi geri dönməz hal alıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sülh gündəliyi təkcə Azərbaycanın zəfərini diplomatik müstəvidə möhkəmləndirmir, həm də bütün region xalqlarına onilliklərdir həsrət qaldıqları sabit tərəqqi və təhlükəsizlik vədi verir. Bu da bölgədə hərbi ritorika dövrünün qapandığını, artıq yalnız əməkdaşlıq dilinin keçərli olduğunu göstərir. Şübhəsiz, müsbət tendensiyanın davamlı olması Ermənistanın sülh prosesinə nə dərəcədə sadiq qalacağından asılıdır. Azərbaycan regionda daimi sülhün tərəfdarı olmaqla bərabər, hər zaman öz milli maraqlarını müdafiə etmək iqtidarındadır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Qanun layihələri və onların şərhi

## Özəl klinikalarda onkoloji xəstələrin müalicə imkanlarının genişləndirilməsi gözlənilir

**Xəbər verildiyi kimi, parlamentin yaz sessiyasının ilk iclasında "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihə (birinci oxunuş) müzakirə olunub.**



Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qanun layihəsini təqdim edərək diqqətə çatdırıb ki, müvafiq qanunvericiliyə əsasən onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. Təklif edilən dəyişikliklərdə isə onkoloji xəstələrə göstərilən tibbi yardımın dövlət onkoloji tibb müəssissələri ilə yanaşı, özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsi ehtiva olunur.

Ə.Əmiraslanov daha sonra qeyd edib ki, bu gün Azərbaycanda onkoloji xəstələrə keyfiyyətli tibbi xidmət göstərə biləcək özəl müəssisələrin sayı çox azdır. "Bu qanunun qəbulu o demək deyil ki, bütün özəl tibb müəssisələri onkoloji xəstələrə tibbi yardım göstərəcək. Bununla bağlı özəl klinikalarda monitorinqlər aparılacaq. Artıq müvafiq icra hakimiyyəti orqanları ilə əlaqə saxlanılıb, danışıqlar aparılıb. Monitorinqdən sonra hansı özəl klinikanın maddi-texniki bazası, kadr potensialı onkoloji xəstələrə keyfiyyətli tibbi yardım göstərə biləcəksə, klinik protokollara uyğun yardım həyata keçiriləcəksə, o xəstəxanalara da lisenziya veriləcək. Bunların hesabatlılığı isə Dövlət Onkoloji Tibb Müəssisələrinin qarşısında olacaq. Onkoloji Elmi Mərkəz bütövlükdə əhaliyə göstərilən onkoloji xidmətə cavabdeh olan bir orqandır və bütün statistika, hesabatlar dövlət tibb müəssisələrindəki kimi özəl tibb müəssisələrindən də onkoloji xəstəxanalara veriləcək. Bu məsələyə son dərəcədə ciddi yanaşılmalıdır. Hansı özəl xəstəxananın buna imkanı varsa, o da həmin tibbi xidməti göstərəcək", - deyə o bildirib.

Qeyd edək ki, müzakirəyə çıxarılan qanunvericilik dəyişiklikləri onkoloji yardımın göstərilməsi sahəsində yeni yanaşmaların tətbiqini nəzərdə tutur.

Mövzu ilə bağlı Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, onkoloji yardımın həyata keçirilməsi özəl tibb müəssisələrində yalnız Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş standartlara cavab verən müəssisələr üçün mümkündür. Bu standartlara uyğunluq təsdiq edildikdən sonra həmin müəssisələr müvafiq qaydada lisenziyalaşdırılır və onkoloji xidmət göstərmək üçün xüsusi lisenziyaya malik olmalıdırlar. Sözügedən lisenziyada onkoloji xidmətin göstərilməsinə ayrıca icazə verilməlidir.

Deputat qeyd edib ki, ümumilikdə tibb fəaliyyəti lisenziyalaşdırılan sahədir və onun tərkibində onkoloji xidmətlərin göstərilməsi üçün xüsusi meyarlara cavab vermək tələb olunur. Yalnız bu meyarlara uyğun olan tibb müəssisələri onkoloji xidmət göstərə bilər. Bu məsələlər mövcud qanunvericilikdə öz əksini tapıb.

M.Məmmədli diqqətə çatdırıb ki, hazırda onkoloji xəstələrə yardım, əsasən, dövlət proqramı çərçivəsində dövlət tibb müəssisələrində həyata keçirilir. Dövlət proqramı ilə nəzərdə tutulan müalicə sistemləri yalnız dövlət müəssisələri tərəfindən icra olunur. Onkoloji xidmətlər icbari tibbi sığortanın əsas Xidmətlər Zərfinə daxil deyil. Yalnız bəzi müayinə və diaqnostik metodlar icbari tibbi sığorta çərçivəsində təmin edilir.

Deputat əlavə edib ki, özəl klinikaların onkoloji xidmət göstərməsi üçün cavab verməli olduğu meyarlar qanunvericilikdə qismən əks olunub. Belə ki, bu sahədə fəaliyyət göstərmək üçün müasir tibbi-texniki tələblərə cavab verən avadanlıqlar, diaqnostik tədbirlərin aparılması üçün uyğun infrastruktur, eləcə də kifayət qədər ixtisaslı kadr, elmi potensial və orta tibb işçiləri mövcud olmalıdır. Konkret və detallı meyarlar isə qanun qüvvəyə mindikdən sonra Səhiyyə Nazirliyi tərəfindən hazırlanacaq müvafiq təlimat və qaydalarda əksini tapacaq. Çünki qanunvericilik ümumi müddəaları müəyyən edir, detallı tənzimləmələr isə icraedici normativ sənədlərlə həyata keçirilir.

"Qanunun qəbulu ilə onkoloji yardımın göstərilməsində çeşidlilik artırılır. Strateji məqsəd gələcəkdə bütün tibbi xidmətlərin icbari tibbi sığorta ilə əhatə olunmasıdır. Hazırda dövlət tibb müəssisələri məhdud sayda və spesifik xidmətlər göstərdiyi üçün ciddi xəstə yükü mövcuddur. Ödənişli müalicə almaq istəyən vətəndaşların özəl sektora müraciət etməsi dövlət müəssisələrinin yükünün azalmasına xidmət edəcək. Bununla belə, bütün proseslər, prosedurlar və müalicə protokolları Səhiyyə Nazirliyinin, eləcə də müvafiq ixtisaslaşmış onkoloji mərkəzlərin tibbi və elmi tövsiyələri çərçivəsində həyata keçiriləcək", - deyə Müşfiq Məmmədli əlavə edib.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanla İsrail arasında əməkdaşlıq genişlənir





**Azərbaycan və İsrail süni intellekt sahəsində əməkdaşlığa dair memorandum imzalayıb. İsrail Baş nazirinin ofisinin məlumatına görə, tədbir İsrailin Baş naziri Benyamin Netanyahunun iştirakı ilə keçirilib. Sənədi İsrailin Süni İntellekt üzrə Milli Qərargahının komandiri, briqada generalı Erez Eskel və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev imzalayıblar.**

Tərəflər yüksək məhsuldarlıqlı hesablama infrastrukturu, vacib mülki sektorlarda süni intellekt tətbiqini, mütəxəssislərin hazırlanması və birgə tədqiqatlar aparmaq sahələrində tərəfdaşlıqlarını dərinləşdirməyi planlaşdırırlar. Netanyahu süni intellektin müasir dövrün bir aləti olduğunu və Azərbaycanla əməkdaşlığın ölkənin bu sahədə liderliyini gücləndirməyə kömək edəcəyini bildirib. İsrailin Baş naziri Azərbaycan Prezidenti İlham Əliyevə xoş arzularını çatdırmağı xahiş edib.

Memorandum iki ölkə arasındakı strateji tərəfdaşlığın artıq ənənəvi sektorlardan yüksək texnologiyalar və rəqəmsal transformasiya müstəvisinə keçdiyini rəsmiləşdirir. İsrailin bu sahədəki qlobal liderliyi ilə Azərbaycanın regional rəqəmsal haba çevrilmək hədəflərinin kəsişməsi hər iki tərəf üçün ciddi iqtisadi və texnoloji dividendlər vəd edir. İsrailin Baş naziri Benyamin Netanyahunun iştirakı ilə baş tutan bu mərasimdə sənədin həm hərbi, həm də mülki rəhbərlər tərəfindən imzalanması süni intellektin həm milli təhlükəsizlik, həm də mülki inkişaf üçün daşıdığı ikili əhəmiyyəti bir daha təsdiqləyir.

Bu əməkdaşlığın ən fundamental məqamlarından biri yüksək məhsuldarlıqlı hesablama (HPC) infrastrukturunun qurulmasıdır. Süni intellekt modellərinin öyrədilməsi üçün tələb olunan nəhəng hesablama gücü Azərbaycanın rəqəmsal infrastrukturunun onurğa sütununa çevriləcək. Məlumatların xarici serverlərdə deyil, ölkə daxilindəki HPC mərkəzlərində emal edilməsi həm milli təhlükəsizliyi və məlumat suverenliyini gücləndirir, həm də dövlət məlumatlarının daha təhlükəsiz və sürətli idarə olunmasına imkan yaradır. Bu texnoloji güc enerji, nəqliyyat və kənd təsərrüfatı sektorlarında toplanan milyonlarla məlumatın saniyələr içində analiz edilməsinə, neft yataqlarının daha dəqiq modelləşdirilməsinə və logistik marşrutların optimallaşdırılması vasitəsilə milyonlarla manat vəsaitə qənaət edilməsinə şərait yaradacaq.

Mülki sektorlarda tətbiq olunacaq süni intellekt həlləri isə cəmiyyət üçün əsl texnoloji sıçrayış vəd edir. Xüsusən, Azərbaycan üçün aktual olan su qıtlığı problemi İsrailin süni intellekt əsaslı idarəetmə sistemləri ilə həllini tapa bilər. Sensorlar vasitəsilə torpağın rütubətinin ölçülməsi və peyk görüntülərinin analizi sayəsində bitkinin ehtiyacı olan su miqdarının dəqiq hesablanması su itkisini 30-50 faiz azaldacaq. Eyni tərəqqi səhiyyə sahəsində də gözlənilir. Rentgen, MRT və KT görüntülərinin Sİ tərəfindən analizi ən kiçik patologiyaları belə vaxtında üzə çıxaracaq, xəstənin genetik məlumatlarına əsasən fərdi müalicə üsulları tətbiq ediləcək.

Lakin infrastruktur nə qədər güclü olsa da, onu idarə edəcək "beyin gücü" olmadan uzunmüddətli uğur qazanmaq mümkün deyil. Bu səbəbdən memorandumun insan kapitalı və birgə tədqiqatlarla bağlı bəndləri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanlı mütəxəssislərin İsrailin qabaqcıl mərkəzlərində təcrübə keçməsi ölkədəki kadr çatışmazlığını aradan qaldıracaq. İsrailin uğurlu startapçılarının yerli gənclərə mentorluq etməsi isə Azərbaycan startaplarının qlobal bazara çıxışını asanlaşdıracaq.

Süni intellekt sahəsindəki yeni mərhələ Azərbaycan və İsrail arasında onilliklər ərzində formalaşmış sarsılmaz siyasi-strateji dialoqun üzərində ucalır. İki ölkə arasındakı münasibətlər, sadəcə, diplomatik əlaqələrlə məhdudlaşmır. Bu, regional təhlükəsizlik və qarşılıqlı etimada əsaslanan strateji müttəfiqlikdir. Azərbaycanın İsraildə səfirlik açması ilə yeni müstəviyə qədəm qoyan siyasi əlaqələr, indi də texnoloji suverenlik müstəvisində inkişaf etməkdədir. İqtisadi müstəvidə Azərbaycan və İsrail arasındakı münasibətlər energetika sektorunun hüdudlarını çoxdan aşıb. Azərbaycan İsrailin neftə olan ehtiyacının təxminən 40 faizini təmin etməklə onun enerji təhlükəsizliyində həlledici rol oynayır. Bunun müqabilində isə İsrail investisiyaları Azərbaycanın qeyri-neft sektoruna, xüsusilə yüksək texnologiyalar, kənd təsərrüfatı və su menecmenti sahələrinə yönəlir. İmzalanmış memorandum göstərir ki, tərəflər iqtisadiyyatın rəqəmsallaşdırılmasını və süni intellekt əsaslı yeni sənaye sahələrinin yaradılmasını gələcək inkişafın əsas prioriteti kimi qəbul edirlər. Nəticə etibarilə, bu tərəfdaşlıq Azərbaycanı regionda süni intellekt sahəsində strateji qərarverici mövqeyə yüksəldir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələri inkişaf edir

**Fevralın 4-də Milli Məclisin İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupu üzvlərinin İrlandiya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə onlayn görüşü olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Erkin Qədirli qanunverici orqanlar arasında münasibətlərin genişləndirilməsində parlamentlərarası əlaqələr üzrə İşçi qruplarının rolundan bəhs edib. O, Milli Məclisdə yaradılmış Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun əməkdaşlığın inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib. Qeyd edib ki, qarşılıqlı səfərlər və bu cür görüşlər əlaqələrimizin daha da möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edir.

İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni Makkormak görüşə görə təşəkkürünü bildirərək, İrlandiya ilə Azərbaycan arasında əlaqələrin inkişafından danışıb. O, ikitərəfli görüşlərin əməkdaşlığın daha da genişlənməsinə təkan verəcəyinə inamını bildirib və bu işdə hər iki ölkənin parlamentlərinin mühüm rol oynadığını söyləyib.

Onlayn görüşdə söhbət zamanı İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri - Sevinc Fətəliyeva, Gülşən Paşayeva və irlandiyalı deputatlar parlamentlərarası əlaqələrin perspektivləri, müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikirlərini açıqlayıblar.

*"Azərbaycan"*

# *Yanq Ta KİM:* "Azərbaycanın yanaşmaları Orta dəhlizin strateji əhəmiyyəti ilə bağlı konsensusun formalaşmasına töhfə verir"

**"Azərbaycan coğrafi baxımdan Orta dəhlizin mərkəzində yerləşir. Tarixi İpək yolunun müasir formada bərpası bu ölkəni Asiya ilə Avropa arasında əsas əlaqələndirici halqaya çevirir".**



Bunu AZƏRTAC-a açıqlamasında Beynəlxalq Nəqliyyat Forumunun (ITF) baş katibi Yanq Ta Kim bildirib. Onun sözlərinə görə, Azərbaycan müxtəlif regionlar arasında körpü rolunu oynayaraq nəqliyyat və logistika baxımından mühüm üstünlüklər əldə edir.

"Bununla yanaşı, ITF-də sədrliyi dövründə Azərbaycan özəl sektor investorları üçün daha şəffaf və proqnozlaşdırıla bilən yanaşmalar irəli sürür, eləcə də, siyasətçilər arasında Orta dəhlizin strateji əhəmiyyəti ilə bağlı konsensusun formalaşmasına töhfə verir. Bu sahədə bir neçə əsas məsələnin eyni vaxtda həllinə ehtiyac var. Fiziki infrastrukturun inkişafı, rəqəmsal texnologiyaların tətbiqi və dayanıqlılıqla yanaşı, sərhəd keçidlərinin səmərəliliyi xüsusi əhəmiyyət daşıyır.

Sərhəd prosedurları və inzibati mexanizmlər mübadilənin asanlaşdırılması baxımından ölçülməsi çətin proseslərdir. Bu tədbirlərin mərhələli deyil, paralel şəkildə həyata keçirilməsi vacibdir. Vaxt amili bu prosesdə əsas çağırışlardan biridir. Bununla belə, vahid yanaşma və qarşılıqlı anlaşma əsasında mühüm irəliləyişlər əldə etmək mümkündür",- deyə Yanq Ta Kim vurğulayıb.

# Cinayətkarlar layiqli cəzalarını alacaqlar

**Erməni qəsbkarlarının təxribatı nəticəsində 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatdı. Qazanılan qələbə nəticəsində uzun illərdən bəri Ermənistanın işğalı altında qalmış tarixi torpaqlarımız azad olundu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi.**



44 günlük Vətən müharibəsində, eləcə də ondan sonra uğurla həyata keçirilən antiterror əməliyyatları zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında yalnız Ermənistan silahlı qüvvələrini deyil, bütünlüklə erməni mifini məhv etdi. İkinci Qarabağ müharibəsində Azərbaycan gücünü, qüdrətini həm düşmənlərinə, həm də dostlarına göstərdi.

Xalqımıza qarşı soyqırımlar, terror hadisələri törətməkdən çəkinməyən ermənilər İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə də sakit dayanmamışlar. Döyüş meydanında ağır məğlubiyyətlərlə üzləşən, ordumuzun bir-birindən uğurlu əks-hücumları qarşısında dayana bilməyən Ermənistan bu məğlubiyyətə azğın və namərd şəkildə "cavab" verirdi. Ermənistan silahlı qüvvələri dəfələrlə döyüş meydanından uzaq olan, mülki vətəndaşların məskunlaşdığı Azərbaycan ərazilərini hədəfə alaraq ağır itkilərlə nəticələnən terror aktları törətmişlər.

Erməni işğalçılarının terror cəhdlərinə baxmayaraq, Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsini 44 gün ərzində Zəfərlə başa çatdırdı. 19-20 sentyabr 2023-cü ildə isə uğurla həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğala son qoyuldu. 1988-ci ildən Qarabağda məskən salmış erməni separatizminin yuvası darmadağın olundu. Azərbaycan xalqına qarşı Xocalı soyqırımı, həmçinin müxtəlif terror aktları və müharibə cinayətləri törətməkdə təqsirli bilinən erməni separatçıları və hərbi-siyasi rəhbərlik cinayət məsuliyyətinə cəlb edilərək məhkəmə qarşısına çıxarıldı.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının bir qrup vətəndaşları barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi başladı.

Prezident İlham Əliyev həmişə çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı, terror hadisələri törətmiş erməni separatçılarının həbs edilərək layiqli cəzalarına çatacağını, günahsız insanların qanının yerdə qalmayacağını xüsusi olaraq vurğulayırdı. Dövlətimizin başçısı qətiyyətlə bildirirdi ki, Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir: "Əfsuslar olsun ki, bu cinayəti törədənlər hələ ki ədalət qarşısında cavab verməyiblər, amma o gün gələcəkdir".

İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə xalqa etdiyi müraciətlərində də Prezident İlham Əliyev vətəndaşlarımıza qarşı soyqırımlar, terror hadisələri törətmiş erməni separatçılarının mütləq həbs edilərək cəzalandırılıcağını bildirmişdi. Dövlətimizin başçısı müraciətlərinin birində demişdir: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər".

Dövlət başçısının səsinə səs verən Azərbaycan xalqı da bunu istəyirdi. İstəyirdi ki, Xocalıda, eləcə də Qarabağın başqa şəhər və kəndlərində xalqımıza qarşı soyqırımlar törətmiş erməni separatçıları həbs edilərək layiq olduqları cəzalarını alsınlar. Çox şükürlər olsun ki, həmin gün yetişdi. Bir zamanlar xalqımıza qarşı faciələr törətmiş, insanları öldürmüş, şəhər və kəndlərimizi darmadağın etmiş erməni separatçıları bu gün ədalət məhkəməsi qarşısındadırlar.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan müasir tariximizdə nadir ölkələrdəndir ki, həm ərazi bütövlüyünü və tam suverenliyini öz gücü ilə, heç kimdən və heç yerdən yardım almadan, bütün təzyiqləri dəf edərək bərpa edib. Bununla yanaşı, həm də müharibə cinayətlərini törətməkdə şübhəli bilinən şəxsləri mühakimə qarşısına çıxarıb. Yenilməz gücü və qətiyyəti hesabına mümkün olmayanları mümkün edib.

Separatçıların ədalət məhkəməsi qarşısına çıxarıldığı ilk günlər xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbisini pul kisəsinə xidmət edən bəzi qüvvələr heç bir əsası olmayan siyasi təzyiqlər göstərməyə çalışdılar. Amma bununla heç nəyə nail olmadılar. Bütün bu əsassız təzyiqlər, qeybət xarakterli dedi-qodular Prezident İlham Əliyevin qətiyyətli mövqeyinə heç bir təsir göstərmədi. Çünki tarixdən də məlumdur ki, ədalətə qarşı çıxanlar həmişə məğlubiyyətə məhkumdurlar. İnsanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxsləri həbs edib ədalət mühakiməsinə cəlb etmək haqqın, ədalətin yenilməz təntənəsidir. Bununla yanaşı, həm baş vermiş münaqişələrin və müharibələrin ədalətli həlli üçün qəbul edilən ən məqbul yoldur. Məlumdur ki, dünyanın bir çox ölkəsində münaqişə və müharibələr gec-tez bitir. Amma bu qanlı hadisələr zamanı yüzlərlə, minlərlə mülki insanın qətlində əli olan cinayətkarlar məsuliyyətdən kənarda qalırlar. Müharibə cinayətkarlarının ədalət mühakiməsinə cəlb olunmaması ilə bağlı xeyli nümunə gətirmək olar. Azərbaycan isə müharibədə həm qalib gəlmiş, həm də günahkarları ədalət məhkəməsi qarşısına çıxarmışdı.

Müxtəlif qanlı əməllərdə ittiham olunan erməni separatçılarının məhkəmə prosesində verdikləri ifadələr, gətirdikləri faktlar Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərdə Ermənistan dövlətinin, hakimiyyətinin əli olduğu təsdiqini tapdı. Ermənistan dövləti bu məsuliyyətdən qaça bilməz, çünki danılmaz faktlar göz qarşısındadır. Bundan başqa, Azərbaycan ərazilərini işğalda saxladığı illər ərzində burada törədilmiş cinayətlər, soyqırımı, urbisid və ekosidə görə də Ermənistan dövləti və onun işğalçı silahlı qüvvələri məsuliyyət daşıyır. Çünki 30 ilə yaxın müddət ərzində həmin ərazilər Ermənistan silahlı qüvvələrinin nəzarətində olub. Bu ərazilərdə baş verən hadisələrə görə də bütün məsuliyyət Ermənistan dövlətinin üzərinə düşür. Bundan heç yerə qaçmaq mümkün deyil.

Açıq keçən məhkəmələrdə gətirilən dəlillər, göstərilən faktlar, zərərçəkmişlərin ifadələri, təqsirləndirilən şəxslərin etirafları torpaqlarımızın işğalına Ermənistan silahlı qüvvələrinin məsuliyyət daşıdığını bir daha üzə çıxardı. L.Mnatsakanyan açıq etiraf etdi ki, tarixin zibilliyinə atılmış qondarma rejimin ordusu müstəqil qüvvə yox, Ermənistan silahlı qüvvələrinin ən böyük hərbi birləşməsi olub. Qondarma rejimin ordusunda yuxarı vəzifələrə təyinat İrəvanda təsdiqlənirdi, onun təminatı Ermənistan silahlı qüvvələrinin daxilində təşkil olunurdu. Məhkəmədə A.Arutyunyanın hərbi xidmətdə olması, B.Saakyanın Şuşanın işğalında iştirakı və s. kadrlar Qarabağda və onun ətrafında baş verən hadisələrdə Ermənistanın böyük rol oynadığını təsdiq edir. Məhkəmə prosesindən o da aydın oldu ki, Ermənistan qondarma rejimi işğalçılıq siyasətini ört-basdır etmək üçün yaradıb. Özü isə rejimin arxasında gizlənərək bu cinayətkar quruma kənardan "dirijorluq" edib. Qondarma rejimin rəhbər şəxsləri Ermənistanın Qarabağda işğalçılıq siyasətini həyata keçirən əsas icraçılar idilər.

Şübhə yox ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşlarının barəsində olan cinayət işləri üzrə məhkəmə prosesində ədalət qalib gələcək və xalqımıza qarşı çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilənlər layiqli cəzalarını alacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*




# DOST Agentliyi: sosial sahədə müasir idarəetmə modeli

> **"DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir".**
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***

2019-cu ildə Prezident İlham Əliyevin qeyd etdiyi bu fikirlə məramını tapan DOST xidmətləri bu gün Azərbaycan vətəndaşının sosial müdafiəsinin, rifah halının və rahatlığının təminatına yönəlib. Prezidentin 2018-ci il 9 avqust tarixli fərmanı ilə yaradılan DOST Agentliyi sosial sahədə idarəetmənin tamamilə yeni mərhələyə keçidini təmin edib. Bu model təkcə sosial xidmətlərin bir məkanda cəmlənməsi deyil, eyni zamanda dövlət-vətəndaş münasibətlərində keyfiyyətcə yeni yanaşma formalaşdırıb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST konsepsiyası dövlət sosial xidmətlərini vahid platformadan, innovativ, şəffaf və operativ şəkildə, vətəndaş rahatlığına əsaslanan sadə prosedurlarla təqdim edən unikal bir modeldir. Vətəndaş məmnuniyyətinin təmin olunmasında yeni mərhələ açan bu modelin DOST mərkəzlərində hazırda 162 xidmət "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf şəkildə təqdim olunur. Agentliyin missiyası da əhalinin əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə DOST mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.

Hazırda ölkə üzrə 5-i Bakıda, 1-i Abşeronda, 1-i Bərdədə olmaqla 7 DOST mərkəzi əhaliyə xidmət edir. Bu mərkəzlərdə 2025-ci ildə 887 min vətəndaşa, ümumilikdə ötən dövrdə isə 4,1 milyon şəxsə xidmət göstərilib. Xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,7 faizdir.

DOST xidmətləri işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin də sosial məsələlərinin həllində əhəmiyyətli rola malikdir. Ötən dövrdə Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Qarabağ Regional DOST Mərkəzinin Şuşa filialı, Kəlbəcər və Füzulidə DOST məntəqələri, bu il isə mərkəzin Tərtər rayonunda DOST filialı fəaliyyətə başlayıb. Bu ünvanlarda sakinlərin əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrinə aid müraciətlərində əksini tapan məsələlər öz həllini tapır. Bu ərazilərdə DOST xidmətləri şəbəkəsi təkcə doğma yurdlarına qayıdan insanların yox, eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa işlərində çalışan, qeydiyyat yerindən asılı olmayaraq hər bir şəxsin xidmətindədir. Çünki DOST xidmətləri müraciət edən şəxsin ölkənin hansı rayon və şəhərində qeydiyyatda olmasına fərq qoyulmadan dövlət sosial xidmətlərinin hər kəsə vahid platformadan çatdırılmasına yönəlib.

Ötən il DOST mərkəz və filiallarında ümumilikdə xidmət göstərilən vətəndaşların orta günlük sayı 3700 nəfərdən çox olub. Bir vətəndaşa göstərilən xidmət müddəti cəmi 7-10 dəqiqə təşkil edib. Bu o deməkdir ki, bir neçə il əvvəl sosial sahəyə aid problemini həll etmək üçün günlərlə, bəzən aylarla ayrı-ayrı qurumlara müraciət edərək gözləyən vətəndaş bu gün həmin məsələni, sadəcə, bir DOST pəncərəsində bir neçə dəqiqəyə həll edir.

Hazırda bu konsepsiyanın ölkəboyu genişləndirilməsi işləri çərçivəsində Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda da DOST mərkəzlərinin qurulması üçün layihələr reallaşdırılır, təmir-tikinti işləri aparılır. Ümumilikdə 14 regional DOST mərkəzi və ətraf rayonlar üzrə 64 kiçik filiallardan ibarət xidmət şəbəkəsinin yaradılması nəzərdə tutulub. Bu o deməkdir ki, bütün ölkə əhalisinin DOST xidmətlərinə tam əlçatanlığı yaxın bir neçə il ərzində təmin olunacaq.

DOST Agentliyi Azərbaycanda könüllülük hərəkatının genişlənməsində də mühüm rola malikdir. Təkcə ötən il ərzində "Könüllü DOST" proqramına 45 min müraciət olub, 1,6 min şəxs proqrama cəlb edilib. Proqramın "Gənc DOST", "Gümüşü DOST" (yaşlılar üçün), "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST", "DigiDOST", "TeleDOST" kimi altproqramları fəaliyyət göstərir. Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.








Agentliyin tabeliyində fəaliyyət göstərən "142" Çağrı mərkəzi vətəndaşların əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya, övladlığagötürmə və digər müvafiq müraciətlərinin şifahi və elektron cavablandırılmasını həyata keçirir. Müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı, Çağrı mərkəzinin fəaliyyəti son illər IVR (interaktiv səsli cavablandırma) sisteminin, həmçinin sosial bot, onlayn çat, əks əlaqə, SMS müraciətlər üzrə cavablandırmanın tətbiqi ilə əhəmiyyətli dərəcədə genişlənib. 2025-ci ildə Çağrı mərkəzi tərəfindən 1,5 milyon zəng cavablandırılıb. Cavablandırılan zənglərin günlük orta sayı isə 6 374 təşkil edib.

Azərbaycanın xidmət brendi olan DOST konsepsiyası beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Artıq bir neçə ölkə DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə başlayıb. Hazırda Özbəkistanda DOST mərkəzləri fəaliyyət göstərir. Həmçinin Moldovada bu istiqamətdə pilot layihələr həyata keçirilir. DOST modeli komponentlərinin tətbiqi istiqamətində Xorvatiya ilə də işgüzar əlaqələr qurulub. Serbiyada və Rumıniyada isə DOST mexanizmi əsasında elektronlaşma dəstəyi verilir. Bu onu göstərir ki, Azərbaycan sosial sahədə xidmətlərin göstərilməsi istiqamətində artıq qabaqcıl ölkələrlə eyni sıradadır və öz uğurlu təcrübəsini digər ölkələrə də təqdim edir.

Hazırda DOST Agentliyi BMT, Avropa Sosial Şəbəkəsi, Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) kimi mötəbər beynəlxalq qurumlarla, o cümlədən yerli təşkilatlar, ali təhsil müəssisələri ilə fəal əməkdaşlıq edir.

Agentlik Keyfiyyət İdarəetmə Sistemi, Müştəri məmnunluğunun təmin edilməsi və şikayətlərin idarəedilməsi sistemi, Rüşvət əleyhinə idarəetmə sistemi və s. istiqamətlər üzrə ISO sertifikatlarına (Beynəlxalq Standartlaşdırma Təşkilatının sertifikatları), həmçinin ötən dövr ərzində 30 beynəlxalq mükafat və sertifikata layiq görülüb. DOST Agentliyi BSTA-nın "Xidmət keyfiyyəti" meyarı üzrə Mükəmməllik Sertifikatı ilə də təltif olunub, həmçinin agentliyin İdarə Heyətinin sədri BSTA "Sosial Təminat Siyasətinin Təhlili və Araşdırılması üzrə Texniki Komissiyası"nın sədri seçilib.

Ötən il ölkəmizdə DOST Agentliyinin təşəbbüsü ilə keçirilən "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" adlı beynəlxalq konfrans sosial xidmətlərin inkişafı, yeni idarəetmə yanaşmaları və beynəlxalq təcrübənin paylaşılması baxımından mühüm platforma olub. Konfrans yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə sosial xidmətlər sahəsində sürətli inkişaf perspektivlərinin qiymətləndirilməsi, innovativ yanaşmaların, süni intellekt alətlərinin və müasir texnologiyaların tətbiq edilməsi ilə gələcək inkişaf yollarının müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayıb. Bütün bunlar Azərbaycanın sosial siyasət və idarəetmə sahəsində qlobal miqyasda artmaqda olan nüfuzunun daha bir göstəricisidir.

Beləliklə, DOST sosial xidmətlərin təşkili və göstərilməsi sahəsində tətbiq olunan yenilikləri və hər kəsə öz dost yanaşması ilə Azərbaycan vətəndaşının xidmətindədir. İnnovativ yanaşmalar, şəffaf mexanizmlər və yüksək xidmət keyfiyyəti DOST modelini təkcə ölkə daxilində deyil, qlobal miqyasda da nümunəvi bir brendə çevirib. Bu konsepsiyanın genişlənməsi sosial xidmətlərin daha əlçatan, operativ və insan mərkəzli formada təqdim olunmasını təmin etməklə Azərbaycanın sosial siyasətində yeni uğurların davamlı olacağını deməyə əsas verir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Əqidəyə sədaqət

**Azərbaycanın əsrlərin süzgəcindən keçmiş milli dəyərlərini yaşadan, kiçik dövlət sayılan ailənin və bütövlükdə cəmiyyətin ən böyük mənəvi dayağı onlardır. Səbirli, dözümlü, müdrik qadınlarımız...**



Tarixən belə olub. Azərbaycan qadınları yalnız fədakar ana və vəfalı ömür-gün yoldaşı kimi deyil, yeri gələndə atalarına, qardaşlarına, həyat yoldaşlarına silahdaş olmağı bacırıb, igidlikləri, şücaətləri ilə onlardan geri qalmayıblar. Dövrlərinə uyğun olaraq at çapıb, ox atıb, qılınc tutublar. Zaman dəyişdikcə, yeni silahlar çıxdıqca onlardan da məharətlə istifadə etməyi öyrəniblər. Atalarımız gücü, əzmi ilə yenilməz olan belə qadınlarımıza baxıb fəxrlə "Aslanın erkəyi, dişisi olmaz" deyiblər.

Ağıllı olduqları qədər bacarıqlı, istedadlıdırlar. Əsrlərə üz tutaq. Yalnız məmləkətimizdə deyil, uzaq-uzaq ölkələrdə də tanınmış, müdrikliyi, qəhrəmanlığı, ədaləti ilə nümunə olmuş hökmdar, siyasətçi, şair, rəssam... Azərbaycan qadınlarının adlarını bu gün də ehtiramla anırıq.

Bəzən cəmiyyət onların gücünü, istedadını düzgün qiymətləndirə bilməyib. Yersiz qadağalarla, yanlış münasibətlərlə onların inkişafına mane olmağa çalışıb. Ancaq mübariz Azərbaycan qadınları daim zamanın fövqündə dayanmağı bacarıblar. Odur ki, Şərqdə bir çox birincilik - ilk diplomat qadın, ilk bəstəkar, ilk aktrisa və daha neçə-neçə ilklər Azərbaycan qadınlarının adlarına yazılıb.

İllər ötdükcə Azərbaycan qadınları ziyalı, maarifçi, sənətkar kimi formalaşaraq xalqın taleyində mühüm rol oynayıblar. Təhsildə, elmdə, siyasətdə, mədəniyyətdə və ictimai həyatda fəal mövqeyi ilə seçilib, ölkənin inkişaf yolunda mühüm söz sahibinə çevriliblər. Haqqında söhbət açacağımız Elmira Məmməd qızı Qasımova kimi...

Azərbaycanın ictimai-siyasi xadimi Elmira Qasımova 1951-ci il fevralın 9-da İmişli rayonunun Yalavac qəsəbəsində dünyaya gəlib. Kiçik yaşlarından arzularını məqsədə çevirməyi bacarıb. Orta təhsilini başa vurduqdan sonra ali təhsil almaq bir çox gənc kimi onun da ən böyük istəyi olub. Ancaq Elmira Qasımovanın fikri, niyyəti yalnız ali məktəbdə oxuyaraq diplom almaq, təhsil aldığı ixtisas üzrə çalışmaq deyildi. Pedaqoji və siyasət sahəsində bilik və bacarıqlarını artırmağı qarşısına məqsəd qoyub. Odur ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində dil və ədəbiyyat üzrə, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında politologiya üzrə ali təhsil alıb.

Öz üzərində böyük səylə çalışıb. Geniş savada, dünyagörüşünə malik olmaq üçün daim öyrənib.

Elmira xanım həmçinin rus dilini yaxşı bilir. Bu da onun siyasi və beynəlxalq əlaqələr sahəsində fəaliyyətini asanlaşdırıb.

Azərbaycanın müstəqillik tarixində elə şəxsiyyətlər var ki, onların fəaliyyəti yalnız tutduqları vəzifə ilə deyil, həm də təmsil etdikləri dövrün məsuliyyəti və çətinliyi ilə ölçülür. Elmira Qasımova məhz belə ictimai-siyasi xadimlərdəndir. O, dövlətçilik ənənələrinin yenidən qurulduğu, parlament mədəniyyətinin formalaşdığı mürəkkəb dövrdə Milli Məclisdə təmsil olunan qadın deputatlardan biri kimi yadda qalıb.

Yaşının ən gənc çağlarında gənclərə örnək olaraq çıxmışdı həyat yoluna. Elmira Qasımova əməyi, zəhməti ilə İmişli rayon gənclərinin nümunəsinə çevrilib və rayon rəhbərliyində yüksək vəzifələrə təyin olunub.

Ölkənin ən çətin dönəmlərində gecə-gündüz yorulmadan qonşu rayonlardan pənah gətirən məcburi köçkünlərin yerləşdirilməsi, onların sosial rifahının yaxşılaşdırılması və bir çox məsələnin operativ həlli üçün dayanmadan çalışıb.

Bu, uzunmüddətli və əzmkar fəaliyyətin nəticəsində 1995-ci ildə Elmira Qasımova 68 saylı İmişli seçki dairəsindən bitərəf namizəd kimi qeydə alınıb. 1995-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Milli Məclisinin birinci çağırış deputatı seçilib. 2000-ci il noyabrın 12-dək parlamentdə fəaliyyət göstərib.

Xalqın səsini çatdırmaq, seçicilərin problemlərini gündəmə gətirmək üçün siyasi arenanın mərkəzində dayanmağı bacaran Elmira Qasımova deputatlıq fəaliyyəti dövründə bir sıra qanun layihələrinin hazırlanması və müzakirəsində yaxından iştirak edib. O, bu illər ərzində əlil gənclərə, erkən yaşlarında məhbus həyatı yaşamış gənclərə, kimsəsiz gənclərin ailə qurmasına dəstək göstərib, seçicilərin sosial problemlərinin həllində fəal rol oynayıb.

O, Milli Məclisdə Sosial siyasət daimi komissiyasının üzvü kimi çalışıb. Həmçinin Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvü olub.

Elmira xanım parlamentdə sosial siyasət sahəsinin inkişafı, vətəndaşların sosial hüquqlarının qorunması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi məsələlərə xüsusi diqqət yetirib və bu istiqamətlərdə ardıcıl fəaliyyət göstərib. Deputat kimi fəaliyyəti onun cəmiyyətin sosial problemlərinə həssas yanaşmasını və qanunvericilik prosesinə verdiyi töhfələri aydın şəkildə nümayiş etdirib.

Elmira Qasımovanın parlamentdaxili fəaliyyəti, xüsusilə sosial siyasət və beynəlxalq əlaqələr üzrə aparılan işlərdə iştirakı milli qanunvericiliyin formalaşmasında faydalı olub. Onun fəaliyyəti qadınların ictimai-siyasi sahədə iştirakının genişləndirilməsi, sosial problemlərin qanunvericilik müstəvisində əks olunması və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində diqqətəlayiq olub.

E.Qasımova Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamış sabiq deputatlardandır. Onun parlamentar fəaliyyəti, sosial və beynəlxalqyönümlü təşəbbüsləri ölkədə demokratik institutların möhkəmlənməsi və qadınların siyasi iştirakının gücləndirilməsi baxımından da əhəmiyyət daşıyır.

Elmira xanımın bu gün 75 yaşı tamam olur. Ömrünün 40 ilini Azərbaycan xalqına və dövlətinə sədaqətlə həsr etmiş sabiq deputat öz mövqeyi və fəaliyyəti ilə ölkənin ən sadiq siyasətçi qadınlarından biridir. Heydər Əliyev siyasi məktəbindən bəhrələnən Elmira Qasımova Ümummilli Liderin hər iki hakimiyyəti dövründə onun ideyalarına sədaqətlə bağlı olub.

İnsan öz əqidəsinə sədaqəti ilə ucalır. Elmira xanım məhz bu keyfiyyəti ilə həm imişlililər, həm də geniş ictimaiyyət arasında böyük hörmət qazanıb. Yaşının bu çağında belə rayon və respublika səviyyəli tədbirlərdə fəal iştirak edir, zəngin təcrübə və biliklərini gənclərlə bölüşür.

Ömrünü doğma Azərbaycana olan müqəddəs sevgisinə həsr edən Elmira Qasımova həm də anadır. Cəmiyyət üçün örnək üç övlad böyüdüb. Onun övladlarından ikisi hüquqşünas, biri həkimdir. O, övladlarına, nəvələrinə örnək və ümumilikdə gələcək nəsillərə layiqli insan nümunəsi, xanım, ana və nəhayət, tarixdə iz qoymuş siyasətçi qadınlardan biri olmağı bacarıb.

Elmira Qasımovanın vətənə, dövlətə, millətə olan sonsuz sevgisinin uzun illər davam etməsini, nəsillərə ötürülməsini arzu edirik.

***Günel HÜSEYNOVA,***
***Azərbaycan Yaradıcılıq Fondu Qarabağ filialının sədr müavini, Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***

# AMB uçot dərəcəsi və faiz dəhlizinin digər parametrlərini 0,25 faiz bəndi azaldıb

**Azərbaycan Respublikası Mərkəzi Bankı (AMB) İdarə Heyətinin qərarı ilə faiz dəhlizinin bütün parametrləri 0,25 faiz bəndi azaldılıb. Uçot dərəcəsi 6,5, faiz dəhlizinin aşağı həddi 5,5, faiz dəhlizinin yuxarı həddi isə 7,5 faiz səviyyəsinə endirilib.**

AMB-nin bununla bağlı yaydığı açıqlamada bildirilir ki, faiz dəhlizi ilə bağlı qərar qəbul edilərkən faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf intervalı (4±2 faiz) ilə uyğunluğu, qlobal iqtisadi aktivlik və beynəlxalq maliyyə bazarlarındakı mövcud vəziyyət, daxili makroiqtisadi şəraitdə müşahidə olunan əsas meyillər, eləcə də pul siyasəti qərarlarının maliyyə bazarları və real sektora ötürücülüyü əsas götürülüb.

Hazırda illik inflyasiya hədəf daxilində qalmağa davam edir. Son 2 ayda inflyasiyanın dinamikasında azalma meyli müşahidə olunur. 2025-ci ilin dekabr ayında 12 aylıq inflyasiya 5,2 faiz təşkil edib. Qiymətlər illik əsasda qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,4 faiz, ödənişli xidmətlər üzrə 5,7 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz artıb. İllik baza inflyasiyası 2025-ci ilin dekabr ayında 4,8 faiz təşkil edib ki, bu da inflyasiyanın qalıcı hissəsinin hədəfə yaxın olduğunu göstərir. Faktiki inflyasiya başlıca olaraq xarici və daxili xərc amillərindən təsirlənir.

Məlumatda bildirilir ki. valyuta bazarındakı stabillik qiymət sabitliyinin təmin edilməsində mühüm rol oynamağa davam edir. 2025-ci ildə mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 423 milyon dollar üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin 2025-ci ildə 2,6 faiz bəndi azalaraq 28 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Bu şəraitdə 2025-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatları 5,1 faiz artaraq 11,5 milyard dollara çatıb.




Valyuta bazarında tarazlığın formalaşmasında həlledici rol oynayan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Gömrük statistikasına əsasən, 2025-ci ildə ölkənin xarici ticarətində 0,7 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. İlkin qiymətləndirmələrə görə, qızıl idxalı çıxılmaqla xarici ticarətdə müsbət saldo 6,9 milyard dolları üstələyib. Mərkəzi Bankın yenilənmiş makroiqtisadi proqnozlarına uyğun olaraq 2026-cı və 2027-ci illərin sonuna cari əməliyyatlar hesabının profisitli olacağı gözlənilir.

Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilir. Mərkəzi Bank başlıca olaraq əsas açıq bazar əməliyyatı olan birhəftəlik depozit hərracları ilə pul siyasətindən kənar amillərin AZIR indeksinə təsirini minimallaşdırıb. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində, uçot dərəcəsinə yaxın hərəkət edir. Dekabrda uçot dərəcəsinin azalmasının təsiri ilə AZIR indeksinin orta günlük səviyyəsi 2025-ci ilin dekabrındakı 6,73 faizdən cari ilin yanvarında 6,7 faizə enib. 2025-ci ilin iyul və dekabr aylarında iki mərhələdə uçot dərəcəsinin toplam olaraq 0,5 faiz bəndi endirilməsi maliyyə bazarlarının müxtəlif seqmentlərində faizlərin azalması ilə müşayiət olunub. Belə ki, son yarım ildə Mərkəzi Bankın notlarının və dövlət qiymətli kağızlarının gəlirliliyində, eləcə də manatla cəlb edilən yeni depozit və yeni kredit faizlərində azalmalar qeydə alınıb.

Baza ssenarisinə əsasən, 2026-cı ilin sonuna və 2027-ci ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozlaşdırılır. Belə ki, baza ssenarisi üzrə 2026-cı ilin fevral proqnozlarına görə, illik inflyasiyanın 2026-cı ildə 5,5, 2027-ci ildə isə 4,0 faiz olacağı gözlənilir. 2026-cı ilə inflyasiya proqnozu azaldılma istiqamətində dəyişdirilib.

Mərkəzi Bankın ötən iclasdan bəri inflyasiya riskləri balansında əhəmiyyətli dəyişiklik baş verməyib. Qlobal miqyasda geosiyasi gərginliklərin davam etməsi, iqtisadi fraqmentasiya meyillərinin güclənməsi və qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarları ilə bağlı qeyri-müəyyənlikləri yüksək səviyyədə saxlayır. Əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Bu riskin reallaşması ticarət tərəfdaşlarında inflyasiyanın dinamikası, qlobal əmtəə qiymətlərinin istiqaməti, eləcə də nominal effektiv məzənnənin dəyişkənliyi kimi faktorlardan asılı olacaq. Cari ildə başlıca daxili risk faktoru isə daxili xərc amillərinin gözləniləndən çox reallaşması ola bilər.

Məlumatın sonunda deyilir: "Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar proqnoz və faktiki inflyasiyanın istiqaməti, habelə makroiqtisadi təhlillərin nəticələri əsasında veriləcək. AMB bundan sonra da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcək.

Mərkəzi Bankın qərarı 2026-cı il fevralın 5-dən qüvvəyə minəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat 2026-cı il aprel ayının 2-də ictimaiyyətə açıqlanacaq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanın investisiya imkanları Türkiyənin Aralıq dənizi bölgəsində təqdim edilib

**Azərbaycanın Türkiyədə ticarət nümayəndəsinin Antalya, Burdur, İsparta və Alanyada iş adamları ilə keçirdiyi görüşlərdə ölkəmizin əlverişli işgüzar mühiti barədə məlumat verilib.**

Azərbaycanın Türkiyədə ticarət nümayəndəsi Tamerlan Tağıyev Antalya, Burdur və İsparta vilayətlərində, eləcə də Alanyada ticarət və sənaye palatalarının təmsilçiləri ilə işgüzar görüşlər keçirib.

Görüşlər zamanı həmin bölgələrin ticarət və sənaye palatalarında təmsil olunan iş adamlarına Azərbaycanın əlverişli biznes və investisiya mühiti barədə məlumat verilib. Ölkəmizdə fəaliyyət göstərən sənaye parklarında, Ələt Azad İqtisadi Zonasında, işğaldan azad edilmiş ərazilərdə investorlar üçün nəzərdə tutulan güzəştlər, imtiyazlar, həmçinin təşviq mexanizmləri barədə təqdimatlar olub.

Ticarət nümayəndəsi Tamerlan Tağıyev türkiyəli iş adamlarını Azərbaycanda, xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə fəal iştiraka dəvət edib, onları investorlara təqdim olunan təşviq və dəstək mexanizmlərindən yararlanmağa çağırıb.

Görüşlərdə iş adamlarının sualları cavablandırılıb, əməkdaşlıq imkanları haqqında fikir mübadiləsi aparılıb.

## "İƏİT Avrasiya Həftəsi - 2026"da ölkəmizin iqtisadi inkişaf prioritetləri barədə məlumat verilib

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Parisdə keçirilən "İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Avrasiya Həftəsi - 2026" tədbirində iştirak edib.**

Ölkəmizin beynəlxalq tərəfdaşlıqlar, ikitərəfli və çoxtərəfli investisiya fondları vasitəsilə ticarət və investisiya əlaqələrini genişləndirdiyi nəzərə çatdırılıb. O cümlədən Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahədə əməkdaşlığın inkişafı üçün perspektivlərin olduğu vurğulanıb.




E.Əliyev tədbir çərçivəsində "Rəqabətqabiliyyətlilik, investisiya və ticarətin gücləndirilməsi yolu ilə artımın təşviqi" mövzusunda panel sessiyada çıxış edib. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft-qaz sənayesinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər və strateji təşəbbüslər barədə məlumat verilib. Avropa və Asiya arasında etibarlı körpü rolunu oynayan ölkəmizin beynəlxalq nəqliyyat və logistika qovşağına çevrildiyi vurğulanıb.

Qeyd edilib ki, makroiqtisadi sabitlik, əlverişli investisiya mühiti, həmçinin sənaye zonaları və azad edilmiş ərazilərdə təqdim edilən güzəştlər xarici sərmayədarlar üçün cəlbedici şərait yaradır, xüsusilə qeyri-neft-qaz sektoruna yönələn investisiyaların artmasına təkan verir. Rəqəmsallaşma və müəssisələrin rəqabət qabiliyyətinin artırılması istiqamətində atılan addımlar qeyd olunub. Bərpaolunan enerji mənbələrinin inkişafına yönəlmiş irimiqyaslı layihələrin regional enerji əməkdaşlığının dərinləşdirilməsi baxımından yeni perspektivlər açdığı diqqətə çatdırılıb.

Elnur Əliyev "İƏİT Avrasiya Həftəsi - 2026" tədbiri çərçivəsində İƏİT-in Qlobal Əlaqələr Katibliyinin Avrasiya şöbəsinin rəhbəri Vilyam Tompsonla görüşüb. Görüşdə ölkəmizin İƏİT ilə fəal və səmərəli əməkdaşlıq etdiyi vurğulanıb. Xarici investisiyaların cəlbi, rəqəmsallaşma, kiçik və orta sahibkarlığın inkişafı və digər istiqamətlərdə əməkdaşlığın ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə töhfə verdiyi qeyd edilib. Tərəflər Azərbaycan və İƏİT arasında tərəfdaşlığın prioritet istiqamətləri, sənaye, maliyyə, ticarət, korporativ idarəetmə, nəqliyyat və digər sahələrdə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

E.Əliyev Fransaya səfər çərçivəsində "MEDEF International" təşkilatının baş icraçı direktoru Filip Qotye ilə görüşüb. Görüşdə Azərbaycanda formalaşdırılmış etibarlı və əlverişli biznes mühiti, həmçinin işgüzar əlaqələrin genişləndirilməsi üçün mövcud potensial diqqətə çatdırılıb.

## Böyük qayıdışın demoqrafiyası

### Bu il yanvarın 1-dək Qarabağ və Şərqi Zəngəzurda yaşayanların sayı 73,5 min nəfər olub

**30 il yurd həsrəti ilə yaşayan, böyük çətinliklərdən keçən, qəlbi məcburi köçkün ifadəsinin ağırlığından göynəyən insanlar yurda dönürlər. Dövlətə minnətdarlıq edə-edə, şəhidlərə rəhmət diləyə-diləyə, qazilərə cansağlığı arzulaya-arzulaya öz doğma yuvalarında yenidən məskən salırlar.**



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev təzədən tikilib qurulan, yaxud köklü şəkildə bərpa olunan hər kəndin, şəhərin sakinləri ilə görüşür, onları təbrik edir.

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzaladı. Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri hələ bundan da xeyli əvvəl, 44 günlük Vətən müharibəsindəki Qələbədən dərhal sonra başlanmışdı. Həmin vaxtdan işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində işlər davam edir. Əlbəttə, bu işlərin vaxtında və yüksək keyfiyyətlə icra olunmasında insan amili mühüm rol oynayır. Prezidentimiz keçmiş məcburi köçkünlər üçün öz yurd-yuvalarında ən yaxşı şəraitin yaradılmasını prioritet kimi qarşıya qoyub və bu gün sözügedən ərazilər bütün dünyanın gözü qarşısında cənnətə çevrilir.

Görülən işlərin ilkin nəticəsi olaraq 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinin sakinlərinin doğma yurdlarına qayıdışı baş tutdu. Məcburi köçkün həyatı yaşayan insanların bir hissəsi öz doğma dədə-baba yurdlarına qayıtdı, orada həyat yenidən canlandı. O vaxtdan bəri keçmiş məcburi köçkünlər mərhələ-mərhələ öz doğma şəhər və kəndlərinə dönürlər.

Bu gün Qarabağın və Şərqi Zəngəzurun Şuşa, Xankəndi, Ağdam, Laçın, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Xocalı şəhərlərində, Hadrut, Mincivan, Ağbənd, Kərkicahan qəsəbələrində, Ağalı, Cocuq Mərcanlı, Zabux, Sus və bir sıra digər kəndlərində insanlar yaşayır və işləyirlər. Onların sayını göstərən rəqəmlər də maraq doğurur.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, ötən il noyabrın 1-dək işğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə 20 min 879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi məlumata görə, həmin tarixə Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı isə 38 min 917 nəfər təşkil edib. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 2154 nəfər tələbə də nəzərə alınmaqla işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşmış əhalinin ümumi sayı 61 min 950 nəfər olub.

Bu il yanvarın 5-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində demişdir: "Əsas məqsəd keçmiş köçkünləri oraya qaytarmaqdır. Bu gün artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq".

Dövlət Statistika Komitəsindən (DSK) bu günlərdə aldığımız məlumat isə işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan əhalinin sayının son aylar ərzində bir qəqər də artdığını təsdiqləyir. DSK Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına istinadən bildirir ki, 2026-cı il yanvarın 1-dək işğaldan azad edilmiş ərazilərə 26 min 14 nəfər keçmiş məcburi köçkün geri qayıdıb. Bununla da həmin ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 73 min 514 nəfər təşkil edib.

Lakin bunlar da son rəqəmlər deyil. Çünki yeni ilin əvvəlindən də o ərazilərə neçə-neçə köç karvanı gedib. Məsələn, Prezident İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb.

Prezident bu kəndlərin hər birində olduğunu, orada aparılan işləri əyani gördüyünü qeyd edib. Ağdərə rayonunun artıq doqquz kəndinə keçmiş məcburi köçkünlərin qayıtdığını da bildirərək deyib: "Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri. Bu gün Qozlukörpü kəndində təxminən 15 meqavat gücündə su-elektrik stansiyasının açılışını qeyd etdik. Bu bölgə elektriklə tam təmin edilib. Hətta burada istehsal olunan enerji Azərbaycanın digər bölgələrinə də ötürülür. Yollar çəkilir. Buradan Tərtərə qədər, Kəlbəcərə qədər yollar tikilir, genişlənir. Bu gün "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə də tanış oldum. Orada 1000-ə yaxın iş yeri yaradılır. Yəni iş yerləri ilə bağlı heç bir problem olmayacaq. Həm dövlət, həm özəl sektor tərəfindən şərait yaradılır. Eyni zamanda bu gözəl, səfalı, mənzərəli təbiətdən istifadə edərək əkinçilik, heyvandarlıq, arıçılıq, meyvəçilik - bütün bu işlərlə mütləq məşğul olmaq lazımdır ki, siz burada rahat, firavan yaşayasınız".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

**Ekologiya**

## Ətraf mühitə ətraf kimi baxmayaq

### Hər canlı, hər ağac, hər kol təbiətin vuran nəbzidir

**Bu gün ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması bəşəriyyətin qarşısında duran ən vacib məsələlərdəndir. Sürətli sənayeləşmə, urbanizasiya və təbii ehtiyatlardan səmərəsiz istifadə Azərbaycanda ekoloji problemlərin yaranmasına səbəb olub. Xüsusilə hava, su və torpaq çirklənməsi, biomüxtəlifliyin azalması, eləcə də iqlim dəyişikliklərinin təsirləri ölkənin ekoloji vəziyyətinə ciddi təsir göstərir.**

Ona görə də mövcud ekoloji problemlərin araşdırılması, onların yaranma səbəblərinin müəyyənləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanda sənaye müəssisələrinin fəaliyyəti, nəqliyyat vasitələrinin sayının artması, məişət tullantılarının düzgün idarə olunmaması və təbii ehtiyatlardan səmərəsiz istifadə ekoloji tarazlığı pozan faktorlar sırasındadır. Sirr deyil ki, neft-qaz sənayesinin uzun illər ərzində ətraf mühitə göstərdiyi mənfi təsirlər bəzi regionlarda torpaq və su ehtiyatlarının çirklənməsinə gətirib çıxarıb.

Ekoloji vəziyyətin real mənzərəsini müəyyənləşdirmək məqsədilə müvafiq dövlət qurumları tərəfindən mütəmadi olaraq monitorinq və müayinələr həyata keçirilir. Bu işlər sənaye müəssisələrinin, istehsal sahələrinin və digər təsərrüfat obyektlərinin ətraf mühitə təsirini qiymətləndirməyə, mövcud nöqsanları aşkar etməyə və ekoloji qanunvericiliyin tətbiqini yoxlamağa xidmət edir. Aparılan araşdırmalar göstərir ki, bir sıra müəssisələrdə ekoloji normalara tam əməl olunmur və bu hal su hövzələrinin, atmosfer havasının və torpaq ehtiyatlarının çirklənməsi ilə nəticələnir. Bu mənada Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılan müayinələrin nəticələri ölkədə ekoloji problemlərin miqyasını daha aydın şəkildə ortaya qoyur. Araşdırmaların nəticələrinə əsasən, su hövzələrinin çirkləndirilməsi halları tədqiq olunan müəssisələrin 54,3 faizində qeydə alınıb. Atmosfer havasının çirkləndirilməsi ilə bağlı pozuntular müayinəyə cəlb olunmuş müəssisələrin 53 faizində aşkar edilib. Torpaq ehtiyatlarının çirkləndirilməsi üzrə aparılan yoxlamalar zamanı isə müəssisələrin 26,3 faizində tullantıların normadan artıq olduğu müəyyənləşdirilib.

Bu rəqəmlər ölkədə ekoloji normaların bir sıra müəssisələr tərəfindən kifayət qədər ciddi şəkildə yerinə yetirilmədiyini sübut edir. Xüsusilə su hövzələri və atmosfer havasının çirklənməsi üzrə yüksək faizlərin qeydə alınması ətraf mühit və insan sağlamlığı üçün ciddi risklər yaradır. Torpaq ehtiyatlarının zibillənməsi isə kənd təsərrüfatının davamlı inkişafına və ekosistemlərin qorunmasına mənfi təsir göstərir. Bu səbəbdən ekoloji nəzarətin gücləndirilməsi, pozuntuya yol verən müəssisələrə qarşı daha sərt tədbirlərin görülməsi və qabaqlayıcı mexanizmlərin tətbiqi mühüm əhəmiyyət daşıyır. Təbii mühafizə qanunvericiliyinin pozulması rəsmi statistikada belə göstərilib: ötən il inzibati məsuliyyətə cəlb olunmuş 1319 nəfər vəzifəli şəxs və sıravi vətəndaşa 1614 manat məbləğində inzibati cərimə sanksiyası tətbiq edilib.



Sadalanan faktlar təbii mühafizə qanunvericiliyinin pozulmasının hələ də aktual problem olaraq qaldığını açıq şəkildə göstərir. İnzibati məsuliyyətə alınan şəxslərin bu qədər çox olması ekoloji qaydalara əməl edilməsində ciddi nöqsanların mövcudluğunu nümayiş etdirir. Tətbiq edilən cərimələr bir tərəfdən hüquqi mexanizmlərin işə salındığını təsdiqləsə də, digər tərəfdən qabaqlayıcı tədbirlərin və ekoloji maarifləndirmə işlərinin gücləndirilməsinin gərəkli olduğunu ortaya qoyur.

Qeyd edək ki, ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə və çirklənmənin qarşısının alınması flora və faunanın qorunmasına xidmət edir. Bu da təbii mühitin sağlamlığının təmin edilməsində və ekoloji tarazlığın qorunmasında mühüm rol oynayır. Bitki və heyvan növlərinin mühafizəsi, onların təbii yaşayış yerlərinin qorunması, nəsli kəsilməkdə olan növlərin mühafizəsi bioloji müxtəlifliyin saxlanmasına və insan həyatının davamlı inkişafına xidmət edir. Azərbaycanda bir çox nadir və qorunan heyvan növü mövcuddur ki, təbii yaşayış mühitinin pozulması həmin canlılar üçün ciddi təhlükə yaradır. Bu baxımdan milli parkların və mühafizə edilən təbiət ərazilərinin yaradılması, həmçinin mövcud olanların qorunması böyük əhəmiyyət kəsb edir. Vətəndaşların və müəssisələrin məsuliyyətli davranışı, qanunvericiliyin gücləndirilməsi və ekoloji maarifləndirmə işlərinin aparılması da flora və faunanın qorunmasında əsas amillərdəndir.

Ötən ilin rəsmi statistik göstəriciləri Azərbaycanda ekoloji vəziyyətin və flora-faunanın qorunması sahəsindəki vəziyyəti daha dəqiq ortaya qoyur. Prezident İlham Əliyevin 14 iyul 2025-ci il tarixli sərəncamına əsasən, Qax, Samux və Yevlax rayonları ərazisində yerləşən Axar-Baxar və İlisu milli parklarının yaradılması təbiətə göstərilən diqqətin bariz nümunəsidir. 2026-cı ilin əvvəlinə ölkədə flora və faunanın qorunub saxlanması, eləcə də təkrar istehsalı məqsədilə ümumi sahəsi 103,3 min hektar olan 9 dövlət təbiət qoruğu, sahəsi 459,2 min hektar olan 12 milli park və sahəsi 350,8 min hektar olan 24 dövlət təbiət yasaqlığı mövcuddur. Xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,6 faizini təşkil edir.

Təbiət yalnız ətraf mühit deyil, həm də canlıların evi, həyat mənbəyidir. Hər bir bitki və heyvan növü ekosistemin tarazlığını qorumaqda mühüm rol oynayır. Azərbaycanda nadir və mühafizə edilən növlərin mövcudluğu, onların təbii yaşayış mühitlərinin qorunması və xüsusi ərazilərin yaradılması təbiətin həyatını davam etdirmək üçün atılan vacib addımlardır. Dövlət səviyyəsində görülən tədbirlər və ekoloji proqramlar göstərir ki, flora və faunanın qorunması yalnız qanunla yox, həm də gələcək nəsillərə sağlam bir dünyanı miras qoymaq məqsədilə prioritet sahəyə çevrilib.

Amma bir gerçəklik də var ki, ətraf mühitin mühafizəsi yalnız dövlət qurumlarının deyil, cəmiyyətin bütün təbəqələrinin birgə məsuliyyətini tələb edir. Ekoloji problemlərin həlli üçün hər bir vətəndaşın təbiətə qarşı məsuliyyətli münasibət göstərməsi və davamlı inkişaf prinsiplərinə əməl etməsi vacib şərtdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dövlət maliyyəsində yeni mərhələ: rəqəmsal idarəetməyə keçid

**Azərbaycan dövləti son illər idarəetmənin bütün sahələrində rəqəmsallaşmanı prioritet istiqamət kimi müəyyən etmişdir. Bu proses təkcə texnologiyanın tətbiqi sahələrinin genişləndirilməsi deyil, eyni zamanda şəffaflığın artırılması, nəzarətin gücləndirilməsi və ictimai etimadın möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.**

Həmin istiqamətdə atılan növbəti mühüm addım Prezident İlham Əliyev tərəfindən "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamənin təsdiq edilməsidir. 2026-cı il 26 yanvar tarixli fərmanla təsdiq edilmiş əsasnamə dövlət maliyyə idarəçiliyində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Sənəd dövlət büdcəsinin formalaşdırılmasından və icrasından tutmuş dövlət borcunun idarə edilməsinə, maliyyə nəzarətindən elektron mühasibat uçotuna qədər geniş spektrli maliyyə proseslərini vahid rəqəmsal platformada birləşdirir. Əsasnamədə göstərildiyi kimi, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) yaradılmasının əsas məqsədi maliyyə sahəsində dövlət idarəetməsinin optimallaşdırılması, analitik imkanların genişləndirilməsi və qərar qəbuletmə prosesinin faktlara əsaslanan, şəffaf və çevik mexanizmə çevrilməsidir.

Müasir dövrdə dövlət maliyyəsinin idarə olunması artıq yalnız ənənəvi hesabatlılıqla kifayətlənə bilməz. Qlobal təcrübə göstərir ki, səmərəli maliyyə idarəçiliyi real vaxt rejimində məlumat axınını, operativ təhlili və risklərin öncədən müəyyən edilməsini tələb edir. RDMİS məhz bu ehtiyacdan irəli gələrək formalaşdırılır. Bu sistem vasitəsilə dövlət büdcəsinin gəlir və xərcləri, dövlət rüsumları, inzibati cərimələr, audit nəticələri, dövlət borcu və digər maliyyə öhdəlikləri, investisiya layihələrinin maliyyələşdirilməsi, dövlət müəssisələrinin maliyyə göstəriciləri və bir sıra digər mühüm indikatorlar vahid platforma üzərindən və real vaxt rejimində izləniləcəkdir. Bu isə maliyyə axınlarının yalnız nəticə mərhələsində deyil, icra prosesinin gedişində nəzarətdə saxlanılmasına imkan verəcəkdir.

RDMİS-in tətbiqi ilk növbədə dövlət vəsaitinin necə, hara və hansı məqsədlə xərcləndiyini aydın göstərən mərkəzləşdirilmiş və rəqəmsal nəzarət mexanizminin formalaşdırılması deməkdir. İndiyədək maliyyə məlumatlarının müxtəlif dövlət qurumları arasında parçalanmış şəkildə saxlanılması, hesabatların fərqli formatlarda hazırlanması və məlumatların gecikmə ilə təqdim olunması maliyyə intizamının təmin edilməsində müəyyən çətinliklər yaradırdı. Yeni sistem bu problemi aradan qaldıraraq məlumatların vahid standartlar əsasında toplanmasını, emal edilməsini və istifadəsini təmin edir. Rəqəmsallaşma həm də hesabatlılıq mədəniyyətinin dəyişməsi deməkdir. Artıq maliyyə göstəriciləri yalnız illik və ya rüblük hesabatlarda deyil, dinamik şəkildə izlənəcəkdir. Bu yanaşma dövlət orqanlarının maliyyə intizamına məsuliyyətini artırmaqla yanaşı, səmərəsiz xərclərin, maliyyə pozuntularının və risklərin vaxtında aşkarlanmasına şərait yaradır. Sistem daxilində formalaşan analitik alətlər maliyyə qərarlarının subyektiv yanaşmalara deyil, obyektiv rəqəmlərə əsaslanmasını təmin edəcək. Digər tərəfdən, RDMİS dövlət maliyyə idarəçiliyində şəffaflıq prinsipinin institusional səviyyədə möhkəmləndirilməsinə xidmət edir. Büdcə prosesində iştirak edən qurumlar üçün məlumatlara çıxışın asanlaşması, göstəricilərin müqayisəli təhlili və nəticələrin vizual formada təqdim olunması idarəetmə keyfiyyətini yüksəldir. Bu isə həm icraçı strukturlar, həm də nəzarət orqanları üçün qərarvermə prosesini daha səmərəli edir.

Bir çox inkişaf etmiş ölkədə dövlət maliyyəsinin rəqəmsallaşdırılması büdcə intizamının gücləndirilməsi, xərclərin səmərəliliyinin artırılması və korrupsiya risklərinin azaldılması baxımından əsas alət kimi çıxış edir. RDMİS məhz bu müasir yanaşmalara uyğun olaraq formalaşdırılıb və Azərbaycan dövlət maliyyə idarəçiliyinin yeni mərhələyə keçidini ifadə edir.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi yalnız müasir texnoloji həllərin toplusu deyil. Bu sistem ilk növbədə dövlət maliyyə idarəçiliyində yanaşmanın, düşüncə tərzinin və idarəetmə fəlsəfəsinin dəyişməsini ifadə edir. Məqsəd, sadəcə, proseslərin elektronlaşdırılması deyil, maliyyə idarəçiliyinin daha çevik, nəticəyönümlü və vətəndaş mərkəzli modelə keçidini təmin etməkdir.

RDMİS-in əsas fərqləndirici cəhətlərindən biri də onun "mobil prioritetli tərtibat" prinsipi əsasında qurulmasıdır. Bu prinsip müasir dövrdə informasiya texnologiyalarının istifadə vərdişlərinə uyğun olaraq sistemə istənilən məkandan və vaxtdan çıxış imkanı yaradır. Dövlət qulluqçuları, maliyyə nəzarəti orqanları, eləcə də digər istifadəçilər üçün məlumatlara operativ çıxış qərar qəbuletmə prosesinin sürətini və keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda bu yanaşma vətəndaşlar və biznes subyektləri üçün də dövlət maliyyə proseslərinə dolayı deyil, birbaşa və rahat çıxış imkanı yaradır.

İstifadəçi yönümlü yanaşma RDMİS-in əsas fəlsəfi dayaqlarından biridir. Sistem yalnız idarəedici strukturların ehtiyaclarını deyil, eyni zamanda istifadəçilərin rahatlığını, məlumatların anlaşıqlılığını və xidmətlərin əlçatanlığını əsas götürür. Bu isə dövlət-vətəndaş münasibətlərində ənənəvi bürokratik çətinliklərin azalmasına, prosedurların sadələşdirilməsinə və dövlət xidmətlərinə inamın artmasına xidmət edir. Beləliklə, rəqəmsallaşma burada məqsəd deyil, effektiv idarəetməyə aparan vasitə rolunu oynayır.

RDMİS-in texniki infrastrukturu da bu idarəetmə fəlsəfəsinə uyğun şəkildə formalaşdırılıb. Sistem yüksəkötürücülü fiber-optik rabitə kanalları, ehtiyat data mərkəzləri və müasir bulud texnologiyaları əsasında qurulub. Xüsusilə "Hökumət buludu" üzərində yerləşdirilməsi məlumatların mərkəzləşdirilmiş şəkildə saxlanılmasını, onların təhlükəsizliyinin və əlçatanlığının təmin edilməsini mümkün edir. Bu infrastruktur texniki nasazlıqlar, fövqəladə hallar və kənar risklər zamanı belə sistemin fasiləsiz fəaliyyət göstərməsinə şərait yaradır.

Ehtiyat data mərkəzlərinin mövcudluğu və məlumatların müntəzəm ehtiyat nüsxələrinin yaradılması RDMİS-in dayanıqlılığını daha da gücləndirir. Bu yanaşma dövlət maliyyə məlumatlarının qorunmasını strateji prioritet kimi ön plana çıxarır və informasiya təhlükəsizliyinə verilən əhəmiyyəti nümayiş etdirir. Beləliklə, sistem yalnız bu günün deyil, həm də gələcəyin tələblərinə cavab verən davamlı və etibarlı platforma kimi formalaşır.

Əsasnamədə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin strukturuna daxil olan 13 altsistemin konkret şəkildə müəyyən edilməsi bu sənədin ən mühüm və praktik əhəmiyyət kəsb edən cəhətlərindən biridir. Bu altsistemlər təsadüfi seçilməyib - onlar dövlət maliyyəsinin formalaşmasından icrasına, nəzarətindən təhlilinə qədər bütün əsas mərhələləri əhatə edən vahid maliyyə idarəetmə xəritəsi yaradır.

RDMİS-in tərkibində yer alan "Büdcə məlumatlarının idarə edilməsi" altsistemi dövlət və icmal büdcə göstəricilərinin formalaşdırılması, gəlir və xərclərin bölgüsü, büdcə təşkilatlarından məlumatların toplanması və onların təhlili üçün əsas platforma rolunu oynayır. Bu altsistem büdcə planlaşdırılmasının daha əsaslandırılmış və real göstəricilərə söykənən mexanizm üzərində qurulmasına imkan verir. "Dövlət maliyyə nəzarəti" altsistemi dövlət vəsaitinin məqsədli və səmərəli xərclənməsi üzərində nəzarətin gücləndirilməsinə xidmət edir. Büdcə və büdcədənkənar fondların vəsaitləri, dövlət zəmanətli kreditlər, dövlət müəssisələrinin maliyyə resursları bu altsistem vasitəsilə izlənilir və təhlil olunur. Beləliklə, maliyyə nəzarəti epizodik yoxlamalar deyil, davamlı və sistemli proses xarakteri alır.

Dövlət investisiya layihələrinin maliyyələşdirilməsi üzrə altsistem isə iri infrastruktur və sosial layihələrə ayrılan vəsaitlərin icrasını real vaxt rejimində izləməyə imkan verir. Layihələrin maliyyə təminatı, icra mərhələləri və xərclərin uyğunluğu bu altsistem üzərindən monitorinq edilir ki, bu da dövlət investisiyalarının səmərəliliyini artıran mühüm amildir.



"Dövlət borcu və maliyyə öhdəliklərinin idarə olunması" altsistemi dövlətin daxili və xarici borcları, zəmanətlər və digər öhdəliklər barədə məlumatların vahid mərkəzdən idarə edilməsini təmin edir. Bu, borc yükünün real vəziyyətinin operativ qiymətləndirilməsinə və fiskal risklərin öncədən müəyyən edilməsinə şərait yaradır. Dövlət müəssisələrinin rəqəmsal monitorinqi altsistemi dövlətə məxsus və ya dövlət nəzarətində olan hüquqi şəxslərin maliyyə fəaliyyətinin şəffaflığını artırır. Bu altsistem vasitəsilə həmin müəssisələrin gəlir və xərc smetaları, icra göstəriciləri və maliyyə nəticələri mütəmadi olaraq izlənilir və təhlil edilir.

RDMİS-də yer alan e-mühasibat, e-müqavilə, e-rüsum və e-mədaxil altsistemləri dövlət maliyyə əməliyyatlarının gündəlik icrasını tamamilə rəqəmsal müstəviyə keçirir. Mühasibat uçotunun elektron aparılması, dövlət satınalmaları üzrə müqavilələrin elektron bağlanılması, rüsum və mədaxillərin vahid sistemdə uçotu maliyyə əməliyyatlarında şəffaflığı və operativliyi əhəmiyyətli dərəcədə artırır.

Xəzinədarlığın rəqəmsal idarə edilməsi altsistemi dövlət büdcəsinin kassa icrasını, ödənişlərin vaxtında və düzgün aparılmasını, vahid xəzinə hesabının mərkəzləşdirilmiş idarə olunmasını təmin edir. Bu isə dövlət vəsaitinin hərəkətinə real vaxt rejimində nəzarət imkanını genişləndirir. İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış uçotu altsistemi isə tətbiq olunan cərimələrin hesablanması, ödənilməsi və dövlət büdcəsinə yönəldilməsi prosesini şəffaf və izlənilə bilən edir. Bu sahədə məlumatların pərakəndə şəkildə deyil, vahid mərkəzdən idarə olunması maliyyə intizamının gücləndirilməsinə xidmət edir.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin ən mühüm üstünlüklərindən biri maliyyə proseslərinin real vaxt rejimində monitorinqi və analitik təhlili imkanlarının yaradılmasıdır. Bu yanaşma dövlət maliyyə idarəçiliyində uzun illər mövcud olmuş ənənəvi gecikmiş nəzarət modelindən imtina edərək, operativ və qabaqlayıcı nəzarət mexanizminə keçidi təmin edir. Artıq maliyyə göstəriciləri yalnız hesabat dövrlərinin sonunda deyil, icra prosesinin gedişində izlənilir və qiymətləndirilir. Xüsusilə dövlət investisiya layihələrinin icra vəziyyətinin RDMİS üzərindən izlənilməsi mühüm əhəmiyyət daşıyır. Ayrılan vəsaitlərin hansı mərhələdə, hansı həcmdə və hansı istiqamətlər üzrə istifadə edildiyi sistemdə aydın əks olunur. Layihələrin icrasında yaranan gecikmələr, planlaşdırılmış göstəricilərlə faktiki icra arasındakı fərqlər, eləcə də potensial maliyyə riskləri dərhal görünən hala gəlir. Bu isə məsul qurumlara vaxtında müdaxilə etmək, qərarları gecikdirmədən qəbul etmək və səmərəsiz xərclərin qarşısını almaq imkanı yaradır. Real vaxt nəzarəti maliyyə intizamının gücləndirilməsində həlledici rol oynayır. Dövlət vəsaitinin hərəkəti üzərində fasiləsiz nəzarət mexanizmi formalaşdıqca maliyyə pozuntularının gizli qalması və ya sonradan aşkar edilməsi ehtimalı minimuma enir. Nəticədə dövlət xərclərinin icrası daha məsuliyyətli və şəffaf xarakter alır, büdcə vəsaitindən istifadədə səmərəlilik yüksəlir.

RDMİS eyni zamanda dövlət müəssisələrinin maliyyə fəaliyyətinin şəffaflığını artırır. Həmin müəssisələrin gəlir və xərc göstəriciləri, maliyyə nəticələri və icra vəziyyəti rüblük əsaslarla sistem üzərindən izlənilir. Gəlir və xərc smetalarının icrası üzrə təhlillər avtomatik aparılır, kənarlaşmalar və risklər analitik alətlər vasitəsilə ön plana çıxarılır. Bu yanaşma dövlət müəssisələrinin maliyyə fəaliyyətinə nəzarəti gücləndirməklə yanaşı, onların fəaliyyətinin daha məsuliyyətli və nəticəyönümlü şəkildə qurulmasına stimul yaradır. Şəffaflıq RDMİS-in əsas fəlsəfi dayaqlarından biridir. Maliyyə məlumatlarının mərkəzləşdirilmiş və standartlaşdırılmış formada toplanması, emal edilməsi və təqdim olunması qərarverici şəxslər üçün aydın və müqayisə edilə bilən mənzərə yaradır. Bu isə maliyyə siyasətinin formalaşdırılmasında intuitiv yanaşmaların deyil, dəqiq məlumatlara əsaslanan rasional qərarların üstünlük təşkil etməsinə şərait yaradır.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin Əsasnaməsində RDMİS-in Elektron Hökumət İnformasiya Sistemi (EHİS) ilə inteqrasiyasına xüsusi yer ayrılması dövlət idarəçiliyində vətəndaş mərkəzli yanaşmanın gücləndirildiyini göstərir. Bu inteqrasiya dövlət maliyyə sahəsində göstərilən elektron xidmətlərin vahid platforma üzərindən əlaqələndirilmiş və ardıcıl şəkildə təqdim olunmasına imkan yaradır. Yeni sistem çərçivəsində dövlət qurumları, hüquqi şəxslər və fiziki şəxslər RDMİS-ə "Vahid giriş" mexanizmi vasitəsilə daxil olacaq, onlara avtomatik olaraq yaradılan elektron kabinetlər üzərindən maliyyə xidmətlərindən istifadə edəcəklər. Elektron kabinetlər vasitəsilə müraciətlərin göndərilməsi, sənədlərin təqdim edilməsi, dövlət rüsumlarının və digər ödənişlərin həyata keçirilməsi tamamilə rəqəmsal müstəvidə baş tutacaqdır. Bu isə dövlət xidmətlərinə çıxışı asanlaşdırmaqla yanaşı, proseslərin şəffaflığını və izlənilə bilənliyini də artırır.

"Bir pəncərə" prinsipi RDMİS-in tətbiqi ilə dövlət maliyyə xidmətlərində praktik məzmun qazanır. Əvvəllər müxtəlif qurumlara müraciət etməyi, ayrı-ayrı platformalarda qeydiyyatdan keçməyi və çoxsaylı sənədlər təqdim etməyi tələb edən prosedurlar artıq vahid sistem üzərindən həyata keçiriləcəkdir. Bu yanaşma vətəndaşların və biznes subyektlərinin vaxt itkisini minimuma endirir, inzibati prosedurları sadələşdirir və dövlət xidmətlərinin əlçatanlığını əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda elektron xidmətlərin geniş tətbiqi korrupsiya risklərinin azaldılmasında mühüm rol oynayır. İnsan amilinin minimuma endirilməsi, qərarların avtomatlaşdırılmış sistemlər üzərindən qəbul edilməsi və bütün əməliyyatların elektron izinin qalması şəffaflığı gücləndirir və sui-istifadə hallarının qarşısını alır. Bu isə vətəndaş-dövlət münasibətlərində etimadın möhkəmlənməsinə xidmət edir.

RDMİS çərçivəsində təqdim olunan elektron xidmətlər yalnız rahatlıq amili ilə məhdudlaşmır. Sistem istifadəçi davranışlarını və müraciətlərin dinamikasını təhlil etməklə xidmətlərin keyfiyyətinin daim təkmilləşdirilməsinə də imkan yaradır. Beləliklə, "bir pəncərə" prinsipi dövlət maliyyə idarəçiliyində həm səmərəliliyi, həm də ictimai məmnunluğu artıran funksional mexanizmə çevrilir. Dövlət maliyyəsinin rəqəmsallaşdırılması təkcə rahatlıq və operativlik deyil, eyni zamanda yüksəksəviyyəli təhlükəsizlik tələb edir. Məhz bu səbəbdən "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin təhlükəsizliyi məsələsi əsasnamədə ayrıca və geniş şəkildə tənzimlənir. Burada əsas prinsip ondan ibarətdir ki, maliyyə məlumatlarının qorunması texniki detal deyil, milli təhlükəsizliyin tərkib hissəsi kimi dəyərləndirilir.

Əsasnaməyə uyğun olaraq, RDMİS-in informasiya təhlükəsizliyinin təmin edilməsində Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və digər aidiyyəti dövlət qurumları ilə koordinasiyalı fəaliyyət nəzərdə tutulur. Bu koordinasiya kibertəhlükələrin qarşısının alınması, məlumatların icazəsiz müdaxilədən qorunması və sistemin dayanıqlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sistemdə mümkün təhlükəsizlik insidentləri ilə bağlı məlumatların operativ şəkildə ötürülməsi və dərhal reaksiya mexanizmlərinin işə salınması xüsusi olaraq vurğulanır. Bu o deməkdir ki, hər hansı texniki nasazlıq, kiberhücum və ya məlumat təhlükəsizliyinə risk yaradan hal baş verdikdə, məsul qurumlar vaxt itirmədən müdaxilə edə biləcəkdir. Belə çevik yanaşma RDMİS-in fasiləsiz fəaliyyətini təmin etməklə yanaşı, dövlət maliyyə məlumatlarının etibarlılığını da qoruyur.

Təhlükəsizlik məsələsi yalnız texniki infrastrukturla məhdudlaşmır. Əsasnamədə sistemin idarəetmə və məsuliyyət arxitekturası da aydın şəkildə müəyyən olunmuşdur. Sənəddə RDMİS-in sahibi, operatoru, iştirakçıları və istifadəçiləri üçün konkret hüquq və vəzifələr təsbit edilmişdir. Bu yanaşma "məsuliyyətin yayılması" problemini aradan qaldıraraq, hər bir proses üzrə konkret cavabdeh subyektin müəyyən edilməsinə imkan verir.

Sistemin sahibi onun ümumi fəaliyyətinə və strateji inkişafına cavabdehdirsə, operator texniki istismar, məlumatların işlənməsi və sistemin fasiləsiz fəaliyyətinin təmin olunmasına məsuliyyət daşıyır. İştirakçılar və istifadəçilər isə öz səlahiyyətləri çərçivəsində məlumatların düzgünlüyünə, vaxtında təqdim edilməsinə və təhlükəsizlik qaydalarına əməl olunmasına cavabdehdirlər. Beləliklə, RDMİS-də hər bir əməliyyatın "sahib"i və cavabdehi aydın şəkildə müəyyən olunur. Bu məsuliyyət bölgüsü dövlət maliyyə idarəçiliyində yeni yanaşmanın formalaşmasına xidmət edir. Artıq sistem daxilində baş verən hər hansı pozuntu və ya uyğunsuzluq ümumi mexanizmin üzərində deyil, konkret struktur və ya istifadəçi səviyyəsində qiymətləndirilir. Bu isə maliyyə intizamını gücləndirməklə yanaşı, idarəetmədə şəffaflığı və hesabatlılığı artırır.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə bir daha göstərir ki, Azərbaycan dövlət maliyyə idarəçiliyində qlobal trendlərə uyğun, müasir və dayanıqlı inkişaf modelini ardıcıl şəkildə formalaşdırır. Bu model klassik büdcə idarəetməsindən kənara çıxaraq rəqəmsal texnologiyaların imkanlarını strateji idarəetmə fəlsəfəsi ilə birləşdirir. Nəticədə maliyyə siyasəti yalnız xərclərin uçotu deyil, resursların səmərəli planlaşdırılması və nəticəyə yönəlmiş idarə olunması müstəvisinə keçir. Yeni yanaşma büdcə intizamının gücləndirilməsi ilə yanaşı, ictimai nəzarətin də institusional əsaslarını möhkəmləndirir. Dövlət vəsaitinin necə formalaşması, hansı istiqamətlərə yönəldilməsi və hansı nəticələr verdiyi artıq qapalı hesabatlarda deyil, rəqəmsal mühitdə sistemli şəkildə izlənilir. Bu isə cəmiyyət üçün dövlət maliyyəsinə münasibətdə daha yüksək etimad mühiti yaradır və şəffaflığı real mexanizmə çevirir.

Prezidentin "Rəqəmsal dövlət maliyyəsi" sistemi ilə bağlı qəbul etdiyi bu qərar maliyyə sahəsində aparılan islahatların təsadüfi deyil, ardıcıl, planlı və sistemli xarakter daşıdığını bir daha təsdiqləyir. Bu qərar göstərir ki, dövlət maliyyə idarəçiliyi qısamüddətli texniki yeniliklərlə deyil, uzunmüddətli strateji baxışla formalaşdırılır. RDMİS bu baxışın praktik ifadəsi kimi çıxış edir və onun tətbiqi dövlət vəsaitinin hər manatının izlənildiyi, analiz edildiyi və hesabatlılığın təmin olunduğu rəqəmsal maliyyə ekosisteminin əsasını qoyur. Bu ekosistem maliyyə axınlarını pərakəndə mexanizmlərdən xilas edərək vahid, qarşılıqlı əlaqəli və nəzarət olunan sistemdə birləşdirir. Beləliklə, maliyyə qərarları daha əsaslandırılmış, xərclər daha məqsədyönlü, risklər isə daha erkən mərhələdə görünən hala gəlir.

Beləliklə, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin tətbiqi Azərbaycan dövlət maliyyə idarəçiliyində yalnız texniki yenilənmə deyil, idarəetmənin mahiyyətcə dəyişməsi deməkdir. Bu sistem dövlət vəsaitinin hərəkətini pərakəndə mexanizmlərdən çıxararaq vahid, şəffaf və məsuliyyətli rəqəmsal müstəviyə daşıyır. Artıq maliyyə prosesləri gecikmiş hesabatlarla deyil, real vaxt rejimində nəzarət və analitika əsasında idarə olunur. Prezidentin bu istiqamətdə verdiyi qərar göstərir ki, maliyyə sahəsində aparılan islahatlar təsadüfi və epizodik deyil, strateji baxışa əsaslanan ardıcıl dövlət siyasətidir. RDMİS büdcə intizamını möhkəmləndirməklə yanaşı, ictimai nəzarəti genişləndirir, korrupsiya risklərini azaldır və iqtisadi qərarların keyfiyyətini yüksəldir. Ən önəmlisi isə budur ki, bu sistem dövlət maliyyəsinin idarə olunmasında yeni mədəniyyət formalaşdırır.

*Şəffaflıq, hesabatlılıq və rəqəmsal intizam artıq kağız üzərində qalan anlayışlar deyil, gündəlik idarəetmə praktikasıdır. Dövlət qurumları üçün bu, daha yüksək məsuliyyət deməkdirsə, vətəndaşlar üçün dövlət vəsaitinin taleyi ilə bağlı aydınlıq və inam deməkdir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan dövlət maliyyəsinin idarə olunmasında rəqəmsal formatda şəffaflıq və sistemli nəzarət dövrünə qətiyyətlə daxil olub. Bu yol təkcə bugünkü çağırışlara cavab vermir, həm də gələcək nəsillər üçün daha dayanıqlı, səmərəli və güclü dövlət maliyyə idarəçiliyinin möhkəm təməlini yaradır.*

***Amal HƏSƏNLİ,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru***

I Türkoloji Qurultay - 100

# Terminologiya:
# ideoloji mübarizənin əsas cəbhələrindən biri



Odabaş dilin inkişafını sosial-tarixi proseslə sıx bağlı şəkildə izah edir: hər yeni ictimai dəyişiklik, hərəkat, elmi-texniki nailiyyət dildə yeni leksikanın yaranmasını zəruri edir. Qərb dilləri üçün əsas termin mənbəyi latın və qismən yunan dilidir, müsəlman Şərqində isə bu rol ərəb dili üzərinə düşür, yəni terminoloji siyasəti tarixi reallıqdan çıxış edərək izah edir, süni "təmizləmə"nin mümkünsüzlüyünü vurğulayır.

Odabaş üçün mühüm anlayışlardan biri purizmdir (dilin yad sözlərdən təmizlənməsi hərəkatı). Bildirir ki, purizm müəyyən dərəcədə faydalıdır, lakin heç bir dildə yad təsirləri tam aradan qaldırmaq mümkün deyil. O, türk dillərində iki müxtəlif purizm təcrübəsini qeyd edir: a) Osmanlı və Azərbaycan. Məqsəd: ərəb və fars təsirindən təmizlənmək, nəticədə müəyyən ortaqlaşma baş verir, lakin tam uğur mümkün olmur; b) Mərkəzi və Şimal-Şərqi Asiya türk dilləri. Ərəb və fars təsiri zəifdir, burada purizm yeni terminlərin həddindən artıq türkcə qurulmasına gətirir, bu ifrat ekstremizmdir. Odabaşa görə həm "tam ərəbçilik", həm də "tam türkçülük" termin yaradıcılığında qeyri-elmi yanaşmadır. O, sistemli şəkildə üç əsas prinsip təklif edir: 1.Ərəb və farsdan keçmiş elmi terminlər saxlanılmalıdır, amma onlar elmi cəhətdən təmizlənməli, vahid yazılış forması qurulmalı, bütün türk xalqları üçün eyni mənanı ifadə etməlidir. 2.Yeni terminlər ilk növbədə türk dillərinin öz materialından qurulmalıdır, bu zaman fonetika, morfologiya, ahəng qanunu mütləq nəzərə alınmalıdır. 3. Bəzi ərəb şəkilçilərindən istifadə məqbul sayılır (-i, -iyyat və s.). Çünki bunlar artıq türk dillərində tam mənimsənilmişlər.

Avropa terminlərinin alınmasına münasibətdə o, reallığı qəbul edir - texniki və elmi sahədə Avropa terminləri qaçılmazdır. Onu da vurğulayır ki, abstrakt-fəlsəfi anlayışlarda türk dillərində ərəb mənşəli terminlər artıq kifayət qədər formalaşıb, tarixi balans belədir: fikir dünyasında ərəb və fars, texnikada isə Avropa təsiri. Təklif edir ki, terminologiya sistemli şəkildə, xüsusi elmi institut tərəfindən qurulmalıdır. Yanaşması praqmatik, sistemlidir: dil canlıdır və tarixi prosesin məhsuludur, nə ifrat milliləşdirmə, nə də kor-koranə alınma düzgündür, ərəb və fars terminlərini tam atmaq elmi cəhətdən əsassızdır, Avropa texniki terminlərinin qəbulu qaçılmazdır. Terminologiya mərkəzləşdirilmiş şəkildə yaradılmalıdır.

Baytursunovun məruzəsi iki hissədən ibarətdir: qazax elmi və ədəbi xadimləri xalq ədəbiyyatı üçün terminologiyanı necə qurur və terminologiyanın işlənməsi zamanı hansı prinsiplərə əsaslanmalıdır? Müasir dövrdə həyatın ən möhkəm təməli mədəniyyətdir, buna görə də qabaqcıl dövlətlərin bütün həyatı məhz mədəniyyət üzərində qurulmuşdur. Müasir mədəniyyət hər hansı bir millətin əsəri deyildir. Hər bir millətin mədəniyyətində öz yaradıcılığı ilə yanaşı, alınmalar da vardır və bu alınmaların xarakteri xalqlar arasındakı münasibətlərdən asılı olaraq formalaşır. Mədəniyyətlərin bir-birinə təsiri həm bir xalqın digərinin işğalı zamanı, həm də xalqların bir-biri ilə dinc ünsiyyəti nəticəsində baş verir. Bu zaman din formalarının oxşarlığı, adət-ənənələr, əxlaq normaları, ictimai quruluş, meyillərin, psixologiyanın yaxınlığı və s. amillər mədəniyyətlərin qarışmasını və alınmalar prosesini xeyli asanlaşdırır. Dil mənəvi həyatla ən sıx bağlı olan sahə olduğundan, din və yazı ilə birlikdə dini və dünyəvi ədəbiyyat, onunla yanaşı isə yad dillərdən alınma sözlər də dillərə daxil olurdu. Nəticədə dillər tədricən qarışır, öz saflığını itirərək korlanır. Bu bəladan yalnız o türk xalqları qurtula bilirdi ki, onların arasında din və yazılı ədəbiyyat dərin kök sala bilməmişdi. Məsələn, qazaxlar və qırğızlar arasında dinin və dini ədəbiyyatın təsiri zəif olmuşdur. Buna görə də onların dili öz təbii inkişaf yolu ilə davam etmişdir. Rusiyada türk xalqlarının mədəni inkişafına həm dünyəvi, həm də dini sahədən asılı vəziyyətləri mənfi təsir göstərmişdir. Lakin indi türk xalqları müasir mədəniyyət həyatının bütün sahələrini mənimsəməyə çalışırlar. Yüksək mədəniyyətə məxsus maddi və mənəvi nemətləri qəbul edərkən aid olduqları anlayış və ideyaları da mənimsəməlidirlər. Bu anlayış və ideyaları ifadə etmək üçün ana dilinin lüğət tərkibi çox vaxt kifayət etmir. Beləliklə, bütün türk xalqları qarşısında bir seçim dayanır: ya anlayışları ifadə etmək üçün yad dillərdən sözlər götürməli, ya da öz dillərinin lüğət tərkibini bu məqsədə uyğunlaşdıraraq terminologiya yaratmalı.

*(Əvvəli qəzetin 3-4 fevral tarixli nömrələrində)*

Vahid terminologiyanın hazırlanması üçün bizdə Akademik Mərkəz yanında bir komissiya mövcuddur. Komissiyanın prinsipləri:

a) Terminlər üçün ilk növbədə həmin anlayışa tam uyğun məna daşıyan qazax sözlərini götürmək daha məqsədəuyğundur. Bu, dilin təbəqələşməsinin, yəni yuxarı təbəqənin dili ilə aşağı təbəqənin dili, başqa sözlə, savadlıların dili ilə savadsızların dilinin ayrılmasının qarşısını almaq üçün edilir.
b) Əgər qazax dilində bu cür sözlər yoxdursa, onları qazax dilinə qohum dillərdən almaq lazımdır. Qohum dillərin əksər sözləri forma etibarilə bir olmasa da, kökləri ortaqdır; deməli, onlar həm anlaşılma baxımından daha asandır, həm də tələffüz üçün qazax dilinə yad olan sözlər qədər çətin deyil; türk xalqları arasında hər zaman sıx ünsiyyət olmuşdur və var, buna görə də hər hansı bir dilin əksər sözü kök ortaq olmasa belə digər dilin daşıyıcılarına uyğun ola bilər.
c) Ümumi işlənən dünya terminləri qəbul edilə bilər, lakin qazax dilinin təbiətinə uyğun şəkildə dəyişdirilməlidir. Yad sözləri "özümüzünkü" etmək zəruridir.
ç) Qazax dilinin təbiətinə uyğun gəlməyən bütün qeyri-qazax sözləri qazax danışığına müvafiq surətdə mütləq dəyişdirilməlidir. Bu o deməkdir ki, birincisi, qazax dilinə yad olan səsləri ehtiva edən bütün qeyri-qazax sözlərində bu səslər müvafiq qazax səsləri ilə; ikincisi, qeyri-qazax sözlərindəki şəkilçilər qazax dilinin şəkilçiləri ilə əvəz edilməlidir; üçüncüsü, ikiqat səslər sadə formaya salınmalıdır; dördüncüsü, qazax dilinə yad olan sonluqlar tələffüz rahatlığına uyğun olaraq dəyişdirilməlidir.

Dili barbarizmdən qoruyan bu prinsip sayəsində biz - qazaxlar hazırda vahid qazax dilinə malikik, yəni bizim dilimiz xalq dili və ədəbi dilə, yaxud sadə xalq danışığı və ziyalı danışığına bölünmür. Anadolu türkləri və azərbaycanlılar yazdıqları dildə danışırlarsa, şübhəsiz ki, bu dillərdə türkcədən çox az şey qalıb. Ən çox qarışıq hala düşmüş dil qədimdən bəri yazılı ədəbiyyatı olan tatar dilidir. Bu dil də barbarizmlərdən həddindən artıq istifadə etmiş dillərdən biridir. Özbək ədəbi dili də mənə xeyli dərəcədə qarışıq bir dil kimi görünür. Krım tatarlarının ədəbi dili də elədir. Başqırtlarda ədəbi dil hələ indi yaranır və onların da öz dillərini barbarizmlərdən qorumağa meyil göstərdikləri nəzərə çarpır. Türkmən ədəbiyyatı da eyni yolu tutmuşdur. Yad təsirlərdən və barbarizmlərdən azad olan dillərdən biri qırğız dilidir; ədəbi dilin yaradılması məsələsində o, bizim qazax dilində tutduğumuz prinsipi əsas götürür. Ədəbi dilin əsası kimi götürdüyümüz prinsipi düzgün hesab edirəm.

❖ ❖ ❖

Baytursunov, sadəcə, nəzəriyyəçi deyil, əməli dil siyasətçisi kimi çıxış edir. Onun mədəniyyət və dil haqqında ümumi fəlsəfi mövqeyi belədir ki, müasir dövrdə mədəniyyət millətin mövcudluğunun əsas şərtidir, heç bir millətin mədəniyyəti "təmiz və yalnız özünəməxsus" deyil, bütün mədəniyyətlər qarşılıqlı təsir içində formalaşır, amma burada çox mühüm fərq var: yad təsirlər dilin təbii inkişafını korlaya bilər. Dillərin korlanmasının əsas səbəbi din, dini ədəbiyyat, yazı mədəniyyəti vasitəsilə ərəb və fars sözlərinin intensiv axınıdır. Baytursunov konkret misal çəkir, qazax və qırğız dilində islamın təsiri zəif olduğundan dil təbii şəkildə inkişaf edib, buna görə "təmiz" qalıb. O, ən çox zərər görənlər kimi Osmanlı türkcəsi, Azərbaycan, tatar və özbək dillərini göstərir və qeyd edir ki, müasir mədəniyyətlə ayaqlaşmaq üçün türk xalqları iki yolun birini seçməlidir: yad dillərdən söz almaq, öz dillərinin içində terminologiya yaratmaq. İkinci yolu daha məqsədəuyğun sayır.

Onun çıxışı iki əsas hissədən ibarətdir: 1.Real praktika - Qazax ziyalılarının terminologiya yaratması; 2.Nəzəri baza - terminologiya yaradılmasında əsas prinsiplər.

Baytursunovun qənaəti elitar-mədəni dilin yaranmasının qarşısını almaqdır - xalq dili ilə "ziyalı dili" arasında fərq yaranmamalı, eləcə də dil sosial təbəqələrə bölünməməlidir. Əgər qazaxcada qarşılıq yoxdursa, söz qohum türk dillərindən alınmalıdır, çünki köklər ortaqdır, başa düşülməsi asandır, fonetika uyğunluq təşkil edir, xalqlar arasında tarixi ünsiyyət var. Bu, yalnız türk dilləri daxilində ümumtürk terminologiya ideyasının bir formasıdır.

Ümumdünya terminlərinin qəbulunda əsas prinsip bir şərtlə - qazax dilinin fonetik və qrammatik sisteminə uyğunlaşdırılması ilə mümkündür. Yad sözlər məcburi adaptasiya olunmalıdır. Bu prinsip faktiki olaraq, dilin fonetik və morfoloji qanunudur: yad səslər qazax səsləri, şəkilçilər qazax şəkilçiləri ilə əvəz edilməli, ikiqat səslər sadələşdirilməlidir, səslər danışığa uyğunlaşdırılmalıdır. Bu, ideoloji baxımdan bir qədər sərt görünür.

Ən çox "qarışmış dillər" hesab etdiyi osmanlı türkcəsi, Azərbaycan, tatar, özbək və Krım tatarlarının dili haqqında deyir ki, onların yazı dili türk dilindən bunun əksinə olaraq, qazax, qırğız, türkmən, başqırd dilləri barbarizmdən uzaqlaşıb.

Onun dil konsepsiyasının əsas cizgiləri bunlardır: dil millətin ruhudur, yad təsirlərdən qorunmalıdır, terminologiya milli baza üzərində qurulmalıdır, qohum dillər arasında inteqrasiya mümkündür, Qərb terminləri yalnız uyğunlaşdırılaraq qəbul edilə bilər.



**Bilal Süleyeviç Suleyev (1893-1968)** yeni terminologiyanın işlənib hazırlanması ilə bağlı Baytursunovun tezislərində irəli sürülmüş bütün prinsiplərlə razılaşdığını bildirir. Lakin ümumilikdə bütün türk xalqları üçün vahid terminologiya yaradılması məsələsinə bir qədər pessimist yanaşır. Türk xalqlarının terminologiyasının tam birləşməsindən deyil, yaxınlaşdırılmasından danışmaq olar. Terminologiya qəbul edilərkən yeni sözlər mütləq həmin və ya digər türk dialektinin qaydalarına tabe edilməlidir. Belə olmadıqda geniş xalq kütləsi üçün anlaşılan terminologiya yaratmaq mümkün olmayacaq.

Ümumiyyətlə, bütün türk xalqları üçün vahid terminologiya yaratmaq cəhdi yalnız bir təcrübə kimi aparıla bilər. Bunun üçün ayrı-ayrı respublikalar daxilində ayrıca birləşdirici büro yaratmağa ehtiyac yoxdur. Belə bir orqan SSRİ Elmlər Akademiyası nəzdində təşkil edilməlidir. Terminologiya sahəsində tədqiqat işlərinin əlaqələndirilməsi üçün türk respublikaları arasında mübadiləni, elmi mərkəzlərin qarşılıqlı əlaqəsini təmin etmək lazımdır.

❖ ❖ ❖

Suleyev Baytursunovun yeni terminologiya prinsipləri ilə razı olsa da, bütün türk xalqları üçün vahid terminologiya yaratmaq fikrinə skeptik yanaşır. Onun qənaətinə görə, bu məsələnin həlli tam birləşmə ilə deyil, yalnız yaxınlaşma ilə mümkündür, terminlər mütləq dillərin qaydalarına uyğunlaşdırılmalıdır, əks halda terminologiya kütlə üçün anlaşılan olmayacaq. Vahid terminologiya təcrübə səviyyəsində yalnız sınana bilər. Əsas mexanizm elmi mərkəzlərin əlaqəsidir.

Suleyevin mövqeyi balanslı praqmatikliyə əsaslandırılmışdır. Yəni hamı üçün eyni terminologiya ideyası tarix və dil reallığı baxımından çətin görünür. O, kompromis variant təklif edir: yaxınlaşdırma. Termin yalnız elmi dairələr üçün deyil, kütləvi istifadə üçün yararlı olmalıdır, əks halda terminoloji sahə "xüsusi sahə adamlarının dili"nə çevrilər.

Onun fikirləri əsaslıdır, çünki türk dilləri arasında fonetik, morfoloji quruluşda fərqlər var, sosial-tarixi inkişaf eyni səviyyədə olmayıb, siyasi-inzibati müstəqillik fərqlidir. Bu səbəbdən vahid terminologiya yaratmaq ideyası süni normativlik riskidir, yaxınlaşdırılmış terminologiya isə real faktlara əsaslandırıla bilər.



**Şərif Manatov (1887-1936)** qeyd edir ki, arxaik sözlərdən, geniş bölgə ləhcələrindən və varvarizmlərdən dil çirklənir. Əgər tərkibini türk sözləri ilə əvəz etmək mümkün olan sözlər varsa, bunu etmək lazımdır. Bəzi sözlər var ki, dilimizdə onları tapa bilərik, lakin yenə də bəzi hallarda onları Avropa sözləri ilə əvəz etmək lazım olur. Məsələn, geniş xalq kütləsi anlamayan "disiplin" sözünü "inzibat" sözü ilə əvəz etmək tövsiyə edilir. Hansı söz bizim üçün daha yaxındır, "disiplin", yoxsa "inzibat"? Mən əminəm ki, "disiplin" sözü bizim üçün "inzibat" sözündən daha aydındır. Ərəb sözü yalnız kəndlərdə deyil, şəhərlərdə də artıq istifadə olunmur, şəhər əhalisi belə onu başa düşmür. Hər kəs kiçik də olsa, hərbi və ya inzibati dairələrdə olubsa, "disiplin" sözünü yaxşı anlayır. Avropa mənşəli beynəlxalq sözləri qəbul edərkən, türk xalqlarının tələffüzünü nəzərə almalıyıq. Məsələn, "fabrika" sözü. Hər bir türkcə danışan şəxs "fabrika" yox, "fabrik" deyər. Bu, fransız sözüdür və maraqlıdır ki, fransız da "fabrik" deyir. Beləliklə, bir tərəfdən Avropa tələffüzündən uzaqlaşmırıq, eyni zamanda öz türk tələffüzümüzə uyğunlaşdırırıq.

O, Odabaşın məruzəsinə tənqidi yanaşır: əgər bizim dilimizdə bir termin yoxdursa, həmin termin başqa türk xalqında var və biz onu oradan götürməliyik. Məsələn, bəzi sözləri başqa türk xalqından, deyək ki, başqırd və ya tatar dilindən götürmək və bunu mütləq özbək dilinə tətbiq etmək lazımdır. Əgər belə götürülmüş sözü qəbul etməsəniz, bu bölgəçilik hesab olunur. Bunu düzgün hesab etmirəm. Professor Çobanzadə öz məruzəsini elmi baxımdan mükəmməl əsaslandırdı, məruzəsi çox maraqlı idi, lakin bütün məruzəsi sanki "ümumi türk milli dili" yaratmaq üzərində qurulmuşdu. Bu fikirlə də razı deyiləm. Ola bilsin bütün türk dillərini tədricən yaxınlaşdıra bilərik, lakin bunun üçün ayrıca "xüsusi milli dil" yaratmaq fikri düzgün deyil. Bu cür "ultramilli" dildən birdəfəlik imtina etmək lazımdır.

❖ ❖ ❖

Manatov qeyd edir ki, arxaik sözlərlə, ləhcə elementləri və varvarizmlərlə dil çirklənir. Bunun üçün hər hansı bir termini türk sözləri ilə əvəz etmək mümkündürsə - edilməlidir, bəzi hallarda Avropa terminlərini qəbul etmək labüddür, həmin sözlər qəbul edilərkən türk tələffüzünə uyğunlaşdırılmalıdır.

O, başqa türk dillərindən söz almağı məcburiyyət kimi təqdim etməyi tənqid edir. Manatov başqa türk dillərindən məcbur söz götürmək prinsipinə qarşı çıxır. İncə məqamlara diqqət yetirir: dillər arasında termin mübadiləsi məcburi ideoloji layihə əsasında olmamalıdır, dil zorla birləşdirilməməlidir, xalqın real dili nəzərə alınmalıdır. Bu, dil planlaşdırmasında zorakı unifikasiya modelinə, o cümlədən Çobanzadənin "ümumi türk milli dili" ideyasına qarşı çıxır, onun fikrincə, ultramilli vahid dil ideyasından tam imtina edilməlidir. "Disiplin" və "inzibat" sözlərini sosial dil reallığına əsaslanan nümunə kimi göstərir: "inzibat" ərəb mənşəlidir və artıq işlək deyil, "disiplin" hərbi və inzibati sferada geniş yayılıb, kütlə üçün daha anlaşıqlıdır. O, vacib olan iki mühüm sosiolinqvistik həqiqətə söykənir: dil norması yalnız lüğətdə deyil, istifadə praktikasında formalaşır, terminoloji uyğunluq həm də sosiumda işləklik qazanmaq səviyyəsi ilə ölçülür.

O, Avropa dillərindən alınma sözlərə münasibətdə praqmatik siyasət sərgiləyir: türkcə qarşılıq varsa, işlədək, yoxdursa, Avropa terminini türk tələffüzünə uyğunlaşdıraq, qəbul edək. Bu düşüncə dilin terminoloji inkişafını əngəlləmir, xalqın öyrənmə qabiliyyətinə xələl gətirmir, fonetik harmoniyanı qoruyur, süni purizm tələblərinə qarşıdır.

Manatovun mövqeyi romantik-millətçi purizmdən yox, sosiolinqvistik reallıqdan doğur. Yəni dil nə qədər milli olsa da, ictimai həyat və elm beynəlxalqdır. Terminləri yalnız "türkçülük naminə" süni şəkildə dəyişmək olmaz. Əgər beynəlxalq termin artıq işlək və anlaşılandırsa, onu fonetik baxımdan uyğunlaşdırıb qəbul etmək daha məntiqlidir. Amma bu proses türklər arasında dil hegemonluğu yaratmamalıdır.

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

## Qərbi Azərbaycan İcması İdarə Heyətinin iclasında 2026-cı il üçün fəaliyyət istiqamətləri müəyyənləşdirilib



**Qərbi Azərbaycan İcması İdarə Heyətinin növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a icmadan məlumat verilib.**

Bildirilib ki, iclasda icmanın 2025-ci il üzrə fəaliyyəti qiymətləndirilib, struktur və kadr məsələlərinə baxılıb, həmçinin 2026-cı il üçün Tədbirlər Planı müzakirə edilərək təsdiqlənib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli 2025-ci il dekabrın 20-də keçirilmiş ümumi yığıncağın yekunları barədə ətraflı məlumat verib. O bildirib ki, qəbul edilən qərarlar icmanın fəaliyyətinin institusional əsaslarının möhkəmləndirilməsinə və qarşıdakı mərhələdə işlərin daha sistemli qurulmasına xidmət edir.

İclasda İdarə Heyətinin və şuraların tərkibində aparılan dəyişikliklər müzakirə olunub. Qeyd edilib ki, bir şəxsin eyni zamanda iki idarəedici qurumda təmsil olunmaması prinsipi əsas götürülərək müəyyən yenilənmələr aparılıb və nəticədə İdarə Heyətinin tərkibində ümumilikdə 8 dəyişiklik edilib.

İdarə Heyətinin yeni üzvləri - Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının və Nərimanov rayon bələdiyyəsinin sədri, Qərbi Azərbaycan İcması Nərimanov rayon nümayəndəsi Təmraz Tağıyev, Bakı Sağlamlıq Mərkəzinin icraçı direktoru, dosent Asiman Həsənov, Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent, Qərbi Azərbaycanın Paşalı rayon icmasının sədri Faiq Xudayev, Bakı Dövlət Universitetinin Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin direktoru, siyasi elmlər doktoru, Əməkdar jurnalist Xalid Niyazov, Prezident Kitabxanasının müdiri, professor Afət Abbasova, Qərbi Azərbaycanın Barana rayon icmasının sədri Osman Hacıyev iclas iştirakçılarına təqdim olunub.

Daha sonra Qərbi Azərbaycan İcması şuralarının tərkibi təsdiqlənib. Bildirilib ki, Ziyalılar Şurasında 144, Ağsaqqallar Şurasında 97, Qadınlar Şurasında 126, Gənclər Şurasında isə 141 nəfər üzv təmsil olunur. Şuraların formalaşdırılmasında regional balans və təmsilçilik əsas meyar kimi götürülüb.

Gündəliyin növbəti məsələsi kimi Qərbi Azərbaycan İcmasının 2026-cı il üçün Tədbirlər Planı müzakirəyə çıxarılıb. Qeyd olunub ki, plan ilkin variantdır və İdarə Heyətinin üzvlərinin təklifləri nəzərə alınmaqla təkmilləşdiriləcək. Plan çərçivəsində rayon icmaları ilə işin gücləndirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi, elmi-tədqiqat və nəşr fəaliyyətinin artırılması, arxiv materiallarının toplanması və beynəlxalq müstəvidə Qərbi Azərbaycan həqiqətlərinin təbliği əsas prioritetlər kimi müəyyənləşdirilib.

İclasda çıxış edən icmanın Hüquq komissiyasının sədri, hüquq elmləri doktoru, professor Zahid Cəfərov rayon icmalarının fəaliyyətinin genişləndirilməsinin vacibliyini vurğulayıb. O, rayon icmalarında mütəmadi görüşlərin keçirilməsini təklif edib.

Tədqiqatçı-alim, kimya üzrə fəlsəfə doktoru Nazir Əhmədli Qərbi Azərbaycanla bağlı tarixi sənədlərin üzə çıxarılması baxımından arxivlərlə işin genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib.

Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının və Nərimanov rayon bələdiyyəsinin sədri, Qərbi Azərbaycan İcması Nərimanov rayon nümayəndəsi Təmraz Tağıyev icmanın 2025-ci il fəaliyyətini yüksək qiymətləndirərək Qərbi Azərbaycan həqiqətləri sırasında Qərbi Azərbaycan kökənli şəxsiyyətlərin öyrənilməsini, təbliğini də vacib amil kimi xüsusi qeyd edib.

Prezident Kitabxanasının direktoru Afət Abbasova yaşlı qərbi azərbaycanlıların xatirələrinin toplanaraq arxivləşdirilməsini və bu materialların xarici dillərə tərcümə olunaraq beynəlxalq ictimaiyyətə təqdim edilməsini təklif edib.

İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərli çıxışında Təhsil Nazirliyi ilə birgə məktəblərdə keçirilən maarifləndirici tədbirlərdən bəhs edərək, bu işlərin qarşıdakı dövrdə daha da genişləndiriləcəyini bildirib.

Daha sonra iclasda çıxış edən, 2025-ci ildə bu sahədə uğurlu layihələrə imza atan ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor, Qərbi Azərbaycanın Keşkənd rayon icmasının sədri Mahirə Hüseynova maarifləndirmə işinin, xüsusilə rayonlarda yaşayan qərbi azərbaycanlılarla görüşlərin intensivləşdirilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda orta məktəblərdə Qərbi Azərbaycanla bağlı maarifləndirmə işinin əhəmiyyətindən bəhs edib.

İclasda Milli Məclisin deputatları İlham Məmmədov, Aydın Mirzəzadə, Elşad Musayev, AMEA Tarix İnstitutunun şöbə müdiri Cəbi Bəhramov, tanınmış ictimai xadim Rauf Zeyni və digərləri çıxış edərək müzakirə olunan məsələlər barədə öz rəy və təkliflərini bildiriblər.

İclasın sonunda gündəlikdə duran bütün məsələlər üzrə qərarlar qəbul olunub.

## Bakıda Misir və Azərbaycan poeziyasına həsr olunmuş musiqili-poetik tədbir keçirilib

**Misirin Azərbaycandakı Mədəniyyət və Təhsil Mərkəzində Misir və Azərbaycan poeziyasına həsr olunmuş musiqili-poetik tədbir təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Misir Mədəniyyət və Təhsil Mərkəzinin direktoru, professor, elmlər doktoru Tarek Məhəmməd tədbiri açıq elan edərək, poeziyanın xalqlar arasında bir körpü kimi əhəmiyyətini vurğulayıb və iki ölkə arasında mədəni dialoqun inkişaf etdirilməsinə görə təşəkkürünü bildirib.

Səudiyyə Ərəbistanı Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Ülviyyə Hüseynova beynəlxalq mədəni və ədəbi təşəbbüslərin əhəmiyyətini, eləcə də onların humanitar əlaqələrin möhkəmləndirilməsindəki rolunu qeyd edib.

Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, həmçinin Bakı Avrasiya Universitetinin xarici əlaqələr üzrə prorektoru Sevda Rzayeva beynəlxalq ədəbi dialoqun genişləndirilməsi üçün mədəni və akademik əməkdaşlığın önəmini vurğulayıblar.

Tədbir çərçivəsində görkəmli Azərbaycan və ərəb şairlərinin əsərləri səsləndirilib.

Proqramda Mikayıl Müşfiqin, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Əhməd Şaukinin, İbrahim Hafizin və digər klassik və müasir müəlliflərin əsərləri təqdim olunub.

Konsert poetik ifalar, vokal və musiqi nömrələrini bir araya gətirib.

Qeyd edək ki, tədbir "Modern Poems" ədəbi layihəsi, Misir Mədəniyyət və Təhsil Mərkəzi və Səudiyyə Ərəbistanı Mərkəzi tərəfindən təşkil olunub.






# Gənclik







● Gələcəyə dəstək

**Tarixin müxtəlif mərhələlərində üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirən gənclərimiz bu gün də milli-mənəvi dəyərlərə sadiq, müasir dövrün tələblərinə cavab verən və yeniliklərə daim hazır olan bir nəsil kimi formalaşıb. Azərbaycan gəncliyi cəmiyyətin aparıcı qüvvəsi, dövlətin gələcəyinin əsas təminatçısıdır.**



# Dövlətin dayağı və gələcəyin təminatçısı

### Xalqa sevgi, dövlətə sədaqətlə...

Azərbaycan XX əsrin sonlarında müstəqilliyinə nail olanda ciddi ictimai-siyasi və iqtisadi sınaqlarla üz-üzə qaldı. Həmin illərdə Ermənistanın Azərbaycandan yeni ərazilər qoparmaq kimi mənfur niyyəti, münaqişələrə rəvac verməsi, müharibənin başlamasına səbəb olması vəziyyəti daha da ağırlaşdırdı. Lakin bütün çətinliklərə, mürəkkəb proseslərə baxmayaraq, həmin dövrün gəncləri dövlətçiliyin qorunmasında, milli ideyaların yaşadılmasında fəal iştirak etdilər.

Tariximizin şanlı səhifələrinə çevrilən 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan gəncliyinin vətənpərvərliyini, milli ruhunu və dövlətə sədaqətini bir daha bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən gənclərimiz həm ön cəbhədə, həm də arxa cəbhədə böyük fədakarlıq göstərdilər. Vətən müharibəsində, eləcə də 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatında qazandığımız böyük qələbələr gənclərimizin doğma xalqına sevgisinin, dövlətinə sədaqətinin təzahürü oldu.

Prezident İlham Əliyev bu il 2 Fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə müraciətində onların qəhrəmanlığını bir daha vurğuladı: "Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir".

### Dövlətin güvəndiyi əsas qüvvə

Azərbaycan cəmiyyətində gənclərə olan inam yüksək səviyyədədir. Dövlətimiz gənclər siyasətini prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirərək onların təhsilinə, məşğulluğuna, sosial fəallığına və şəxsi inkişafına xüsusi diqqət yetirir. Gənclər siyasətinə dair dövlət proqramları, beynəlxalq təhsil imkanları və innovasiya layihələri bunun bariz nümunəsidir.

Dövlət başçısı İlham Əliyevin gənclərə müraciətində qeyd etdiyi kimi: "Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir".

### Uğurlu gələcəyə açılan yollar

Gənclərimiz bu gün təkcə ölkə daxilində deyil, beynəlxalq arenada da ölkəmizi uğurla təmsil edirlər. Elm, texnologiya, idman, mədəniyyət və incəsənət sahələrində əldə olunan nailiyyətlər Azərbaycan gəncliyinin yüksək potensiala və geniş dünyagörüşünə malik olduğunu nümayiş etdirir.

Azərbaycanın gələcək inkişaf strategiyasında gənclər əsas aparıcı və icraedici qüvvə kimi çıxış edirlər. Yüksəkixtisaslı, milli-mənəvi dəyərlərə sadiq, eyni zamanda qlobal düşüncəyə malik gənclərin yetişdirilməsi dövlətin uzunmüddətli inkişaf məqsədlərinin əsasını təşkil edir.

Son illərdə Azərbaycan gənclərinin elmi potensialının sürətlə artması xüsusi diqqət çəkir. Beynəlxalq olimpiadalarda, nüfuzlu elmi konfranslarda və tədqiqat layihələrində qazanılan uğurlar göstərir ki, Azərbaycan gəncliyi rəqabətədavamlı və müasir çağırışlara cavab verən bir nəsildir. Xüsusilə süni intellekt, informasiya texnologiyaları, energetika, tibb və mühəndislik sahələrində fəaliyyət göstərən gənc alimlər ölkənin elmi gələcəyinin formalaşmasında mühüm rol oynayırlar.

Azərbaycanda gənclərin təhsili, məşğulluğu, sosial fəallığı və innovativ təşəbbüslərinin dəstəklənməsinə yönəlmiş dövlət proqramları, layihələr həyata keçirilir. Həmin tədbirlər gənclərin bilik və bacarıqlarını göstərmələrinə və uğurlu fəaliyyətlərinə geniş imkanlar yaradır. Respublikamızda 2019-cu ildən keçirilən "Yüksəliş" müsabiqəsi bu mənada xüsusi vurğulanmalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa nəzarəti ilə həyata keçirilən bu müsabiqə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

Ötən illərin uğurlu nəticələri artıq göz önündədir. Belə ki, 2019-2021-ci illərdə keçirilmiş ilk müsabiqədə 27 qalib, 2022-ci il ikinci müsabiqədə 22, 2023-cü il üçüncü müsabiqədə 22, 2024-cü il dördüncü müsabiqədə 25 və 2025-ci il beşinci müsabiqədə 20 qalib müəyyən edilib. Beləliklə, ötən beş müsabiqə üzrə ümumilikdə 70 minə yaxın müraciət qəbul edilib, 40 minə yaxın Azərbaycan vətəndaşı prosesin iştirakçısı olub. Nəticədə 116 nəfər qalib elan edilib.

2025-ci il dekabrın 10-da Prezident İlham Əliyev 2026-cı ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" sərəncam imzalayıb. Gənclərimiz "Yüksəliş" müsabiqəsi vasitəsilə növbəti dəfə bilik və bacarıqlarını yenidən nümayiş etdirəcəklər. "Yüksəliş" onlara özlərini təmsil etdikləri dəyərlərlə birgə tanımaq, liderlik bacarıqlarını nəzərdən keçirmələrinə, peşəkar əlaqələr şəbəkəsi qurmalarına dövlət qurumlarında, həmçinin böyük şirkətlərdə karyera imkanları qazanmalarına şərait yaradacaq..

Gənclərə Azərbaycan xalqının və dövlətinin etimadı böyükdür. Fevralın 2-də gənclərə müraciətində Prezident İlham Əliyev bu etimadı və inamı belə ifadə etmişdi: "Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

*Dadaş MƏMMƏDOV:*

## "START gənc müəlliflərə Bakının ictimai sənət məkanına inamla çıxmaq imkanı yaradır"

**"START layihəsi sadə, lakin dəqiq bir müşahidədən doğdu. Azərbaycanda çoxlu istedadlı gənc rəssam var, lakin onların ilk peşəkar addımı atmaq - tədris və ya həvəskar mühitdən çıxaraq ictimai sənət məkanına daxil olmaq üçün real imkanları son dərəcə azdır.**



START 2010-cu ildən fəaliyyət göstərir və ilkin mərhələdə start platforması kimi, ilk təcrübə məkanı, ilk sərgi, auditoriya ilə ilk dialoq və heç də az əhəmiyyət daşımayan ilk peşəkar məsuliyyət sahəsi kimi düşünülüb. Onun vəzifəsi təkcə işləri nümayiş etdirmək deyil, həm də gənc müəlliflərə tələbat hissini aşılamaq və onların yaradıcılığının peşəkar sahədə olduğunu anlatmaqdan ibarət olub".

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində "Arts Council Azerbaijan" təşkilatının rəhbəri Dadaş Məmmədov məlumat verib.

Onun sözlərinə görə, START layihəsinin unikallığı onun mobilliyi və açıqlığındadır. Hər dəfə fərqli məkanda keçirilir və bununla da müxtəlif art-lokasiyaları populyarlaşdırır, şəhərin mədəni xəritəsini genişləndirir.

"Biz şüurlu şəkildə tək qalereya formatından uzaqlaşır və canlı, dinamik bir layihə yaradırıq. Bundan əlavə, START müsabiqə deyil və qapalı peşəkar mühit də təqdim etmir. Burada münsiflər heyəti və statusa görə sərt seçim yoxdur, əsas olan potensial və bədii ifadənin səmimiyyətidir. Ölkənin incəsənət sahəsi üçün bu cür təşəbbüslər xüsusilə əhəmiyyətlidir. Onlar yeni nəsil rəssamları və auditoriyanı formalaşdırır, davamlı incəsənət ekosistemi yaradır", - deyə o qeyd edib.

Həmsöhbətimiz vurğulayıb ki, START layihəsi ekspozisiyanın bağlandığı günlə bitmir. Təşkilatçılar iştirakçılarla işləməyi davam etdirir və onları növbəti layihələrə, vörkşoplara və beynəlxalq əməkdaşlıqlara dəvət edir, kuratorlara və tərəfdaşlara tövsiyə edir, peşəkar portfelin formalaşdırılmasına kömək edir.

Dadaş Məmmədovun qeyd etdiyi kimi, ən vacibi gənc müəllifin qazandığı ictimailik təcrübəsi və özünəinamdır. Bu layihə elə bir başlanğıc nöqtəsinə çevrilir ki, ondan sonra rəssam özünü peşəkar mühitdə başqa cür qavrayır və öz yolunu şüurlu şəkildə qurmağa başlayır.

● Vətənpərvərlər

# Sabahın təməlini qoyanlar

**Gənclik tükənməyən, daim çağlayan, güclü, cəmiyyəti inkişafa doğru aparan yenilməz bir qüvvədir. Gənclər Vətənin uğurlu sabahı, işıqlı gələcəyi, ümid və inam yeridir. Tarixən xalq həmişə özünün xoşbəxt gələcəyə olan ümidini, inamını gənc nəslə bağlayıb. Sabahını ona tapşırıb, gələcəyini ona etibar edib. Buna görə də gənc nəslin hərtərəfli inkişafı, gələcəyə hazırlanması hər bir dövlət üçün önəmli və zəruri məsələdir. Çünki ölkənin, xalqın gələcəyi, xoşbəxtliyi, ölkənin təhlükəsizliyi, etibarlı şəkildə qorunması daha çox gənclərdən asılıdır.**

Şanlı tariximizin inkişaf yollarını vərəqlədikcə görürük ki, gənclərimiz dövlətimizin qurulmasında, müstəqilliyimizin möhkəmlənməsində, ərazi bütövlüyümüzün qorunmasında əhəmiyyətli rol oynayıblar, həmişə mübarizələrin ön sıralarında addımlayıblar. Tariximizin bütün mərhələlərində gənclərimiz çevik, uğurlu fəaliyyətləri ilə dövlətimizin inkişafına böyük töhfələr veriblər. Yorulmadan xalqımızın, ölkəmizin uğurlu sabahları üçün çalışıblar.

Müasir müstəqil dövlətimizin banisi Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə gənclərə böyük önəm vermişdir. Onların yüksəkbilikli, savadlı, milli ruhda, ölkə üçün gərəkli vətəndaş kimi yetişmələri üçün bütün zəruri tədbirlərin görülməsinə nail olmuşdur. Həmişə gənclərə böyük sevgi ilə yanaşan, qayğı göstərən Ulu Öndər demişdir: "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".

Böyük tarixi şəxsiyyət Heydər Əliyev ölkədə gedən demokratik islahatlarda, ictimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində baş verən proseslərdə gənclərin roluna həmişə xüsusi diqqət yetirmişdir. Ölkəmizə rəhbərliyə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edən Ulu Öndər sağlam düşüncəli yeni nəslin hazırlanması sahəsində misilsiz işlər görmüş, bununla yanaşı, gənclərin milli və vətənpərvərlik ruhunda tərbiyə olunmasını həmişə diqqət mərkəzində saxlamışdır.

Bu gün dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu siyasət Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların həyatında, təhsilində mühüm rol oynayır. Gənclərə böyük rəğbət göstərən, bütün işlərində onlara arxalanan Prezident İlham Əliyev demişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Qoynunda dünyaya göz açdığı vətənlərinə sonsuz sevgi ilə bağlı olan gənclər Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətlərində rəhbər tutaraq Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması uğrunda mübarizə aparmağa, döyüşməyə hər zaman hazır idilər. Elə buna görə də 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda vətənpərvər ruhda böyümüş, yurdumuzun azadlığı uğrunda canlarından belə keçməyə hazır olan gənclərimiz Prezident İlham Əliyevin çağırışına səs verərək silaha sarılıb döyüşlərə yollandılar. Vətənin müdafiəsinə atılmış igid, cəsur gənclərimizin döyüş təcrübələri var idi. Onlar 44 günlük Vətən müharibəsindən əvvəl 2016-cı il Aprel döyüşlərində, həmçinin 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində iştirak edərək böyük şücaət göstərmişdilər. Kifayət qədər bacarıqlı, peşəkar olduqlarından düşmən üzərində Zəfər çalmağa, torpaqlarımızı uzun illərin işğalından azad etməyə qadir idilər.



Vətənin müdafiəsi naminə silaha sarılmış gənclərimiz döyüşlərə qələbə əzmi ilə atıldılar. Elə ilk həmlələrdən böyük qəhrəmanlıq göstərdilər. Onların göstərdiyi şücaət nəticəsində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısı qısa müddət ərzində qətiyyətlə alındı. Şanlı Azərbaycan Ordusunun güclü əks-hücumları qarşısında dayana bilməyən erməni işğalçılarının mövqelərini atıb qaçmaqdan başqa yolları qalmadı. Bütün döyüşlərdə uğur qazanan hərbçilərimiz addım-addım düşməni geri qovaraq 30 ilə yaxın erməni qəsbkarlarının işğalında qalmış torpaqlarımızı azad etdilər. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında rəşadətli Azərbaycan Ordusu möhtəşəm Zəfər yürüşü keçdi. Ön sıralarda vuruşan gənclərimiz hər gün yeni-yeni yaşayış məntəqələrini erməni işğalından azad edərək qəhrəmanlıqları və igidlikləri ilə Azərbaycan xalqına qələbə sevincini yaşatdılar.

Ürəyi Vətən eşqi ilə döyünən gənclərimiz uzun illər erməni işğalında qalmış ərazilərin kimə məxsus olduğunu qəhrəmanlıqları ilə bütün dünyaya sübut etdilər. Hünərlə başlanan və uğurla sonlanan döyüşlər nəticəsində 300-ə yaxın kənd, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər işğalçılardan təmizləndi. Müharibənin davam etdiyi günlərdə qəsbkarların texnikası, silah-sursat anbarları, canlı qüvvəsi dəqiq atəş zərbələri ilə məhv edildi.

Gənclərimizin döyüşlər zamanı düşmən üzərində qələbənin qazanılmasında göstərdikləri igidlik əbədi olaraq qəhrəmanlıq tariximizə yazıldı. Onlar ön xətdə Vətən uğrunda gedən döyüşlərlə yanaşı, arxa cəbhədə də qələbəmizə xidmət edən zəruri işlər görürdülər. Baş verən hadisələrlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əbədi-əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının, qandonduran vəhşiliklərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak etdilər. Düşmən üzərində qələbəmiz, torpaqlarımızın azad olunması naminə bütün çətinliklərə sinə gərdilər. Sonda müqəddəs amal və məqsədlərinə çatdılar.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində gənclərin göstərdiyi igidlik və qəhrəmanlıqdan həmişə iftixarla danışır. Onların vətənpərvərliyini, cəsarətini və qorxmazlığını yüksək dəyərləndirən dövlət başçısı çıxışlarının birində demişdir: "...Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güclü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi".

Bu gün çox böyük iftixarla deyə bilərik ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalarımızdan miras qalmış gözəl adət-ənənələrimizi, torpaqlarımızı göz bəbəyi kimi qoruyur və yaşadır. Daim bilik və bacarıqlarını artıran gənclərimiz ölkəmizin bu günü və gələcəyi haqqında düşünür, fəaliyyətlərində, əməli işlərində yüksək vətəndaşlıq hisslərinə malik olduqlarını qürurla nümayiş etdirirlər. Böyük əminliklə demək olar ki, uğurla həyata keçirilən gənclər siyasətindən ruhlanan gənclərimiz dövlətimizin və dövlətçiliyimizin daha da möhkəmlənməsi naminə böyük əzmkarlıqla çalışırlar. Azərbaycan gənclərinin ölkə həyatındakı yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə ürəkdən bağlılığı xalqımıza yeni-yeni qələbə sevincləri yaşadacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Qlobal istiləşmənin səbəb olduğu sərt qış

**Son həftələrdə müşahidə olunan güclü qar və fırtınalar dünyanın müxtəlif regionlarında ciddi fəsadlara yol açıb, onlarla insanın həyatını itirməsinə səbəb olub. Şimal yarımkürəsinin böyük bir hissəsi üçün bu qış mövsümü həm miqyası, həm də intensivliyi baxımından fövqəladə xarakter daşıyır. Rusiyanın Uzaq Şərqindən Şimali Amerikaya, Yaponiyadan Türkiyəyə qədər uzanan geniş coğrafiyada qeydə alınan ekstremal hava hadisələri iqlim dəyişikliyinin artıq yalnız gələcəyə aid risk deyil, bu günün reallığı olduğunu bir daha nümayiş etdirir.**



Rusiyanın Kamçatka yarımadasında dekabr və yanvar aylarında metrlərlə ölçülən qar örtüyü müşahidə olunub. NASA-nın açıqladığı məlumatlara görə, bölgə 1970-ci illərdən bəri ən qarlı dövrünü yaşayır. Çətin hava şəraiti nəqliyyatı iflic edib, yaşayış məntəqələrində ciddi problemlər yaradıb və nəticədə bir neçə nəfər həyatını itirib. Kamçatkada müşahidə olunan bu vəziyyət təkcə regional hadisə kimi deyil, qlobal atmosfer proseslərinin nəticəsi kimi dəyərləndirilir.

Yaponiyada da son bir həftə ərzində güclü qar yağması və sərt qış şəraiti ciddi itkilərə səbəb olub. Yanvarın 26-na olan rəsmi məlumatlara görə, ölkədə ən azı 10 nəfər qarla əlaqəli hadisələr nəticəsində həyatını itirib. Dağlıq və kənd ərazilərində yollar bağlanıb, elektrik xətləri sıradan çıxıb, xilasetmə işləri çətinləşib. ABŞ-də isə vəziyyət daha genişmiqyaslı olub. Yanvarın 27-nə olan məlumatlara əsasən, qar fırtınaları onlarla insanın ölümünə səbəb olub, minlərlə insan işıqsız qalıb və minlərlə uçuş ləğv edilib. Qayalı dağların şərqində yerləşən geniş ərazilərdə temperatur uzun müddət normadan xeyli aşağı düşüb və bu həm şiddəti, həm də davametmə müddəti baxımından diqqət çəkib.

Türkiyədə də qış öz sərt üzünü göstərib. Ordu vilayətindən başlayaraq Bitlisə, Muşa və Vana qədər uzanan geniş ərazilər metrlərlə ölçülən qar örtüyü ilə əhatə olunub. Diyarbəkir, Elazığ və Şırnakda yağan qardan sonra temperaturun kəskin enməsi donma hadisələrinə səbəb olub. Buzlanmanın artması nəticəsində minlərlə insan yıxılma və sınıq şikayətləri ilə xəstəxanalara müraciət edib. Bu hadisələr qış şəraitinə hazırlığın və şəhər infrastrukturunun dayanıqlığının nə qədər vacib olduğunu bir daha gündəmə gətirib.

Mütəxəssislərin fikrincə, bu cür ekstremal qış hadisələrinin arxasında atmosferdəki tarazlığın pozulması dayanır. Britaniya Hava Xidmətinin baş meteoroloqu Cim Deyl bildirir ki, Avropa, Türkiyə, ABŞ, Kanada və Yaponiyada müşahidə olunan güclü qar yağışları və aşağı temperaturlar təbii hava dəyişkənliyi çərçivəsində izah edilə bilər, lakin prosesin arxasında mürəkkəb atmosfer mexanizmləri dayanır. Onun sözlərinə görə, normal şəraitdə qütblərdə yerləşən güclü aşağı təzyiq sistemi olan qütb burulğanı yerində qalır. Lakin atmosferin yuxarı təbəqələrində baş verən qəfil stratosfer istiləşməsi bu tarazlığı poza bilir.

Stratosfer istiləşdikdə, qütblərdəki soyuq hava kütlələri zəifləyən burulğan səbəbindən cənuba doğru hərəkət etməyə başlayır. Bu soyuq hava kütlələri okeanlar üzərindən deyil, əsasən qitələrə doğru yönəldikdə Avropa, Asiya və Şimali Amerikada sərt qış şəraiti yaranır. Beləliklə, qlobal miqyasda temperatur artımı müşahidə edilsə də, bəzi bölgələrdə son dərəcə soyuq hava dalğaları və intensiv qar yağması baş verə bilir.

2025-ci il bunun bariz nümunəsidir. Qlobal temperatur qeydlərinin başladığı 1850-ci ildən bəri 2025-ci il üçüncü ən isti il kimi tarixə düşüb. Ondan daha isti olan illər yalnız 2024 və 2023-cü illər olub. ABŞ Milli Okean və Atmosfer Administrasiyasının məlumatına görə, 2025-ci ilin dekabr ayında qlobal orta temperatur 20-ci əsrin orta göstəricisindən 1,05 dərəcə yüksək olub və bu, həmin ayı 1850-ci ildən bəri qeydə alınan beşinci ən isti dekabr edib. Bununla yanaşı, 2025-ci il şimal yarımkürəsində 1967-ci ildən bəri ən az qar örtüyünün müşahidə olunduğu üçüncü il olub. Bu ziddiyyət iqlim sistemindəki qeyri-sabitliyin açıq göstəricisi hesab olunur.

Nyukasl Universitetində Ekstremal Hava Hadisələri və İqlim Dəyişikliyi üzrə araşdırmalar aparan dr.Abdullah Kahraman bildirib ki, 1950-ci illərdən bəri ekstremal soyuq hadisələrin həm tezliyi, həm də intensivliyi ümumilikdə azalıb. Onun sözlərinə görə, bu tendensiyanın insan fəaliyyəti nəticəsində yaranan qlobal istiləşmə ilə əlaqəli olduğuna dair elmi konsensus yüksəkdir. Lakin bu, lokal və regional miqyasda şiddətli soyuqların və güclü qar yağışlarının baş verməyəcəyi anlamına gəlmir.

London İmperial Kollecinin Ətraf Mühit Siyasəti Mərkəzindən dr.Mariam Zachariah qeyd edir ki, qlobal istiləşmə təkcə temperaturun artması ilə məhdudlaşmır, eyni zamanda atmosfer dövranı sistemlərinə də təsir göstərir. Bu dəyişikliklər qütblərdən gələn soyuq hava kütlələrinin daha aşağı enliklərə enməsinə şərait yarada bilər. Zachariaha görə, soyuq hava kütlələrinin isti və rütubətli hava ilə qarşılaşması "qar apokalipsisi" adlandırılan həddindən artıq qar fırtınalarına səbəb ola bilər.

Mütəxəssislər vurğulayırlar ki, isti hava daha çox nəm saxlaya bilir. Okeanların və dənizlərin normaldan daha çox isinməsi onların üzərindəki atmosfer qatının da daha rütubətli olmasına gətirib çıxarır. Cim Deylin fikrincə, Arktikadan gələn soyuq hava kütlələri bu nəmli hava ilə qarşılaşdıqda Türkiyə də daxil olmaqla bir çox regionda güclü və davamlı qar yağışları üçün əlverişli şərait yaranır. Bu proses iqlim dəyişikliyinin qış hadisələrini necə daha şiddətli və gözlənilməz etdiyini aydın şəkildə göstərir.

Mütəxəssislər bildirirlər ki, qlobal istiləşmə ümumi tendensiya kimi davam etsə də, yerli və regional dəyişikliklər qaçılmazdır. Bəzi ərazilərdə normadan artıq qar yağması müşahidə olunduğu halda, digər bölgələrdə qar örtüyü xeyli azalır. Məsələn, ABŞ-nin şərq və mərkəzi hissələrində intensiv qar yağması qeydə alına, dağlıq regionlarda isə qar miqdarı azalmaqda davam edə bilər.

Türkiyədə qış şəraitinə təsir edən əsas amillərdən biri Şimali Atlantik üzərindəki təzyiq fərqlərinin dəyişməsi olub. Şimali Atlantika Okeanı Salınımının dekabrın sonu və yanvarın əvvəlində mənfi fazada olması Aralıq dənizinə daha çox yağıntının daşınmasına səbəb olub. Bu isə qar da daxil olmaqla intensiv yağıntılar üçün əlverişli mühit yaradıb. Eyni dövrdə atmosfer bloklama şəraitinin də təsirli olduğu bildirilir. Yüksəktəzyiqli sistemlərin bir bölgədə uzun müddət qalması ya güclü yağıntılara, ya da uzunmüddətli quraqlığa səbəb ola bilir. Türkiyədə müşahidə olunan soyuq hava kütlələri Azərbaycana da daxil olub. Buna görə də ölkə ərazisində hava şəraiti kəskin dəyişib, temperatur aşağı düşüb.

Cim Deylin fikrincə, iqlim dəyişikliyi dünyanı keçmişdəki "normal" hava şəraitindən uzaqlaşdıraraq keçid iqliminə doğru aparır. Atmosferdə artan enerji hava hadisələrini daha qeyri-sabit və daha şiddətli edir. Bu isə həm qışda, həm də yayda güclü fırtınalar, həddindən artıq yağışlar, qar fırtınaları, şiddətli küləklər və ekstremal temperatur hadisələrinin daha tez-tez baş verməsinə yol açır. C.Deyl vurğulayır ki, bu səbəbdən yalnız uyğunlaşma və emissiyaların azaldılması siyasətləri deyil, eyni zamanda təhlükəsizlik, səhiyyə və sağqalma məsələləri də getdikcə daha böyük əhəmiyyət kəsb edir.

Bu gün iqlim dəyişikliyi dünya miqyasında ən çox müzakirə olunan və bəşəriyyəti narahat edən problemlərdən biridir. Son onilliklərdə müşahidə olunan qeyri-sabit hava şəraiti, temperaturun sürətlə artması, quraqlıqların və daşqınların çoxalması, buzlaqların əriməsi və dəniz səviyyəsinin yüksəlməsi bu problemin artıq nəzəri deyil, real və gündəlik həyatımıza təsir edən təhlükə olduğunu sübut edir. Bu proseslər təkcə təbiətə deyil, insanların həyat tərzinə, iqtisadiyyatlara və sosial strukturlara da ciddi təsir göstərir.

İqlim dəyişikliyinin sosial nəticələri də az əhəmiyyət daşımır. Yoxsulluğun dərinləşməsi, işsizliyin artması və məcburi miqrasiyanın güclənməsi bu prosesin birbaşa nəticələri sırasında yer alır. Xüsusilə inkişaf etməkdə olan ölkələr bu dəyişikliklərə qarşı daha həssasdır, çünki onların iqtisadi və texniki imkanları məhduddur. Nəticədə qlobal miqyasda sosial bərabərsizlik daha da kəskinləşir.

2026-cı ilin qışı istər rekord qar yağışları, istər qeyri-adi soyuqlar, istərsə də bəzi bölgələrdə müşahidə olunan istilik anomaliyaları ilə ekstremal hava hadisələrinin həyatımızın adi bir hissəsinə çevrildiyini göstərən ciddi bir xəbərdarlıqdır. Son bir ayda Kalininqradda 2001-ci ildən bəri ən güclü qar yağışı, Kamçatkada son 30 ilin ən güclü qar yağışı və Moskvada son iki əsrin ən intensiv qar hadisələrinin qeydə alınması bu vəziyyətin miqyasını açıq şəkildə ortaya qoyur. Bu hadisələr hava limanlarının bağlanmasına, nəqliyyatın iflic olmasına, yolların bağlanmasına, fövqəladə vəziyyətlərin elan edilməsinə və genişmiqyaslı elektrik kəsintilərinə səbəb olub.

Bütün bu faktlar göstərir ki, iqlim böhranı yalnız istiləşmə ilə deyil, həm də artan qeyri-müəyyənlik və risklərlə xarakterizə olunur. Bəzi bölgələrdə illərlə qar yağmaya, digər yerlərdə isə bir neçə gün ərzində fəlakət səviyyəsində yağıntılar müşahidə oluna bilər. Bu yeni reallıq hər kəsdən daha çevik və daha məsuliyyətli yanaşma tələb edir. İqlim dəyişikliyi ilə mübarizə artıq seçim deyil, qaçılmaz zərurətə çevrilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Hava proqnozu açıqlanıb



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 5-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin ayın 4-dən 5-nə keçən gecə və axşam havanın bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 2-4 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək. Gecə və səhər saatlarında bəzi şəhərətrafı ərazilərdə yolların buz bağlayacağı ehtimal olunur.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-5, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 3-8, yüksək dağlıq ərazilərdə 8-13, gündüz 0-3 dərəcə şaxta olacaq. Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

# Lənkərançayda suyun səviyyəsi artıb - qabaqlayıcı tədbirlər görülür

**Dünən axşam saatlarından başlayaraq cənub bölgəsində müşahidə olunan intensiv və fasiləsiz yağışlar nəticəsində əksər çaylarda sululuq əhəmiyyətli dərəcədə artıb. Yağıntıların xüsusilə dağlıq və dağətəyi ərazilərə düşməsi çaylara daxil olan suların həcmini artırıb. Bu səbəbdən Lənkəran rayonu ərazisindən axan Lənkərançayda da suyun səviyyəsində yüksəlmə müşahidə olunur, axının sürəti əvvəlki günlərlə müqayisədə artıb.**



Lənkəran Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin İrriqasiya sahəsinin rəisi Rakif Rufiyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, hazırda Lənkərançayda, o cümlədən digər çaylarda suyun səviyyəsi təhlükəli həddi keçməyib və hər hansı fövqəladə vəziyyət qeydə alınmayıb. Onun sözlərinə görə, mövcud vəziyyət tam nəzarət altındadır və çayın müxtəlif hissələrində aparılan müşahidələr əsasında su səviyyəsində baş verə biləcək dəyişikliklər operativ şəkildə qiymətləndirilir.

R.Rufiyev qeyd edib ki, güclü yağıntıların davam edəcəyi ehtimalı nəzərə alınaraq, mütəxəssislər gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər. Hidrotexniki qurğuların, sahilbərkitmə tədbirlərinin və suötürücü kanalların texniki vəziyyəti mütəmadi olaraq yoxlanılır. Eyni zamanda yaşayış məntəqələrinə və kənd təsərrüfatı sahələrinə mümkün risklərin qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlər görülür. Qurumdan bildirilib ki, hazırda əhali üçün təhlükə yaradan hər hansı vəziyyət müşahidə olunmur. Monitorinqlər fasiləsiz davam etdirilir, zərurət yarandığı təqdirdə isə əlavə təhlükəsizlik və mühafizə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

## BEYNƏLXALQ HƏYAT

# ABŞ-nin Afrikadakı hərbi təlimlərində 30 ölkə iştirak edəcək

**ABŞ may ayında Afrikadakı ən böyük hərbi təlimlərindən olan "African Lion" - "Afrika aslanı"nı keçirməyi planlaşdırır.**

Təlimin əksər hissəsi Mərakeşdə keçiriləcək və 19 Afrika, eləcə də Avropa, Cənubi Amerika və Yaxın Şərqin bir neçə ölkəsindən qoşunları cəlb edəcək. Bu barədə ABŞ Silahlı Qüvvələri Afrika Komandanlığının (AFRICOM) rəhbəri general Daqvin Anderson məlumat verib.

"May ayında onu səbirsizliklə gözləyirik. "Afrika aslanı" 19 Afrika ölkəsini, Avropanın 6 ölkəsini və Cənubi Amerika və Yaxın Şərqdən bir neçə tərəfdaşı əhatə edəcək", - deyə o, brifinqdə bildirib. D.Anderson əlavə edib ki, təlimlərin bir hissəsi Tunis, Qana və Seneqalda keçiriləcək.

Hərbi komandanın sözlərinə görə, ABŞ artıq Mozambikdə 14 Afrika və 5 Avropa, eləcə də Hind-Sakit okean regionunun 2 ölkəsini əhatə edən "Cutlass Express" təlimi keçirir. O, həmçinin Keniya, Tanzaniya və Cibutidə keçiriləcək "Associated Accord" təlimindən də bəhs edib. Vurğulayıb ki, bütün təlimlər terrorizm, qaçaqmalçılıq və narkotik ticarəti kimi ümumi təhdidlərlə mübarizə aparmaq məqsədi daşıdığı üçün çoxtərəfli xarakter daşıyır.



Generaldan sonra brifinqdə çıxış edən mayor Qarrik Banfild əlavə edib ki, ABŞ, habelə Kot-d'İvuar və Liviyada "Flintlock" təlimi keçirəcək.

"African Lion" ABŞ hərbçilərinin iştirak etdiyi illik beynəlxalq hərbi təlimdir. 2025-ci ildə Mərakeşdəki manevrlərdə təxminən 50 ölkədən 10 minə yaxın əsgər iştirak edib. Oktyabr ayında AFRICOM rəhbəri və Mərakeş Silahlı Qüvvələrinin Baş Müfəttişi general Məhəmməd Berrid təlimləri "iki ölkənin silahlı qüvvələri arasında qarşılıqlı əlaqənin ən yaxşı nümunəsi" adlandırıblar.

# Filippin parlamenti Prezidentə qarşı impiçment ərizələrini rədd edib

**Filippin Nümayəndələr Palatasının (parlamentin aşağı palatası) Ədalət komitəsi Prezident Ferdinand Markosa (oğul) qarşı iki impiçment ərizəsini rədd edib. Bu barədə "GMA News" xəbər verib.**

Qərar böyük səs çoxluğu ilə qəbul edilib. Ərizələrdə F.Markos korrupsiya, konstitusiya pozuntuları və ictimai etimada xəyanət etməkdə ittiham olunurdu. Filippinli vəkil Andre de Jesus dövlət başçısını keçmiş Prezident Rodriqo Dutertenin oğurlanmasına və Beynəlxalq Cinayət Məhkəməsinə (ICC) ekstradisiyasına kömək etməkdə və prosesi dəstəkləməkdə ittiham edib. O, bunun qanuni prosedur olmadan baş verdiyini bildirib. Lakin parlament komitəsi Prezidentə qarşı ittihamların əsassız olduğunu müəyyən edib.

Xatırladaq ki, Filippin polisi R.Duterteni ötən ilin mart ayında Honkonqdan Manilaya təyyarə ilə gələrkən insanlığa qarşı cinayətlərə görə ICC-nin orderi ilə həbs edib və o, dərhal Haaqaya köçürülüb. R.Dutertenin qızı vitse-prezident Sara Duterte-Karpio atasının həbsini tənqid edərək, bunu "suverenliyə və ölkənin müstəqilliyinə inanan hər bir filippinliyə qarşı kobud təhqir" adlandırıb.



Prezident Ferdinand Markosun atası Ferdinand Markos 1965-ci ildən 1986-cı ilə qədər Filippinə rəhbərlik edib. O, 1972-ci ildə ölkə konstitusiyasını ləğv edərək fövqəladə vəziyyət elan edib. 1986-cı ildə hərbi çevriliş və geniş yayılmış etirazlar nəticəsində hakimiyyətdən uzaqlaşdırılıb, bundan sonra Havay adalarına köçüb. F.Markos 1989-cu ildə vəfat edib və 2016-cı ildə dövlət başçısı olan Rodriqo Dutertenin qərarı ilə onun qalıqları Filippində yenidən dəfn edilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Qoşqar Əhmədova anası

**GÜLBƏS XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Asif Əsgərov Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Ağdərə Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Bəhruz Məmmədova qardaşı

**VÜQAR MUXTAR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3238**
Sifariş **172**

Qiyməti 60 qəpik